**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**MAGİSTRATURA MƏRKƏZİ**

*Əlyazması hüququnda*

**Həsənov Ramil Nazim**

**“Tədiyyə balansı, beynəlxalq likvidlik və iqtisadi artım problemləri” mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** **060403 “Maliyyə”**

**İxtisaslaşma:** **“Bank işi”**

**Elmi rəhbər:** **i.e.d. prof. Ələkbərov Ə.Ə.**

**Magistr proqramının rəhbəri:** **i.e.n. fəxri prof. Bəşirov R.A.**

**Kafedra müdiri: i.e.d. prof. Ələkbərov Ə.Ə.**

**Bakı – 2017**

# MÜNDƏRİCAT

**Giriş...........................................................................................................3**

**I Fəsil. Tədiyyə balansının makroiqtisadi sistemdə əhəmiyyəti və onun tənzimlənməsinin nəzəri-metodoloji əsasları...........................................................7**

1.1. Tədiyyə balansının mahiyyəti, iqtisadi məzmunu və strukturu.................................7

1.2. Tədiyyə balansının tənzimlənməsinin konsepsiyaları və nəzəriyyələrinin təhlili...17

1.3. Tədiyyə balansının tənzimlənmə mexanizmi.......................................................22

**II Fəsil. Beynəlxalq likvidlik...................................................................................31**

2.1. Beynəlxalq likvidliyin mahiyyəti və iqtisadi məzmunu.........................................31

2.2. Beynəlxalq likvidlik tədiyyə balansının tənzimlənməsinin əsas aləti qismində... .33

2.3. Ticarət balansı və beynəlxalq likvidliyin tənzimlənməsi......................................41

**III Fəsil. Milli iqtisadiyyatın inkişafı və artımının təmin olunmasının əsas istiqamətləri...................................................................................................47**

3.1. "Strateji yol xəritəsi" kontekstində milli iqtisadiyyatın inkişaf meyilləri...............47

3.2. Azərbaycanda iqtisadi artımın əsas mərhələləri və inkişafının prioritet istiqamətləri...........................................................................................................58

**Nəticə və təkliflər....................................................................................................77**

**İstifadə olunmuş ədəbiyyat siyahısı.........................................................................80**

**Referat....................................................................................................................82**

**Резюме....................................................................................................................86**

**Summary.................................................................................................................87**

**Magistrant:** __________ Həsənov R.N.

**Dissertasiya rəhbəri:** __________ i.e.d. prof. Ələkbərov Ə.Ə.

# GİRİŞ

**Mövzunun aktuallığı.** XX əsrin sonlarında dünyada yaşanan dəyişikliklər dünya iqtisadiyyatının bütöv olması və beynəlxalq iqtisadi əlaqələrin qloballaşmasının güclənməsinə gətirib çıxarmışdır ki, bunun nəticəsində milli iqtisadiyyatların qarşılıqlı asılılıqlarının yüksəlməsinə səbəb olmuş və xarici münasibətlər bütün ölkələrin iqtisadi və siyasi fəaliyyətində üstün istiqamətlərindən birinə çevrilmişdir.

Bildiyimiz kimi, ölkələrarası iqtisadi münasibətlər beynəlxalq maliyyə və beynəlxalq ticarət əməliyyatları vasitəsilə keçirilir. Maliyyə sahəsində isə milli iqtisadiyyatların qarşılıqlı münasibəti bu və ya başqa ölkə vətəndaşlarının xarici aktivləri də olması kimi başa düşülür. Xarici ticarət əməliyyatları isə əsasən ölkədə istehsal edilən mal və xidmətlərin xaricə ixracını və ya xaricdə istehsal edilən mal və xidmətlərin ölkəyə idxalını nəzərdə tutur. Beləliklə, beynəlxalq məhsul, xidmət və maliyyə bazarları qarşılıqlı şəkildə birləşən hər bir ölkənin milli gəlirinin həcminə, inflyasiya və məşğulluq səviyyəsinə və həmçinin, digər makroiqtisadi statistik göstəricilərə öz təsirini göstərir.

Buna görə də müasir zamanda dövlətin iqtisadi siyasəti hazırlanarkən ilk növbədə, makroiqtisadi statistik göstəricilərinə nəzər salınması, onun düzgün şəkildə tənzimlənməsi və qiymətləndirilməsi əhəmiyyətli məsələlər hesab edilir.

Dünya təcrübəsi onu göstərir ki, belə məsələlərin həll edilməsi ölkənin tədiyyə balansının hazırlanması, onun qiymətləndirilməsi və tənzimlənməsi layihələrinin həyata keçirilməsi və işlənməsi kimi problemlərlə əlaqəlidir.

1994 –cü ildə Azərbaycan Respublikasında BVF-u tərəfindən ilk dəfə tədiyyə balansı hazırlanmışdır, 1 il sonra isə Nazirlər Kabinetinin 1995 –ci il 8 fevral tarixli 25 saylı qərarına əsasən Azərbaycan Respublikasının tədiyyə balansının hazırlanmasını və onun tənzimlənməsini Mərkəzi Bank həyata keçirir.

Müasir zamanda tədiyyə balanslarının davamlı formada kəsirli olması bir sıra ölkələrin iqtisadiyyatının inkişaf etməsinə neqativ təsir edən amillərdən biridir. Adətən tədiyyə balansının mənfi olmasına bir çox makroiqtisadi göstəricilər – milli xərclərdə olan dəyişikliklər, valyuta məzənnəsinin aşağı və yuxarı qalxması, məhsuldarlıqda və tələbdə özünü göstərən dəyişikliklər ciddi təsir edir. Buna görə də, yaranmış kəsirin örtülməsi üçün xarici və daxili amillərdən istifadəsi ilə onun tənzimlənməsi vacibdir.

Tədiyyə balansının məzmununun, xüsusiyyətlərinin və formalaşmasının, bu sektorda son zamanların qabaqcıl meyllərinin seçilməsi, tədiyyə balansının tarazlanması və formalaşmasında dünya praktikasının öyrənilməsi, hazırlanmasının əlverişli şəkli və istiqamətlərinin nəzəri tədqiqi, mövcud olan problemlərin həll edilməsinin təcrübə

cəhətdən səmərəli yollarının, tədiyyə balansının dövlət tərəfindən tarazlanmasının əlverişli mexanizminin elmi cəhətdən təsdiqlənməsi iqtisad elmi qarşısında duran əhəmiyyətli vəzifələrdən biri hesab edilir.

**Problemin öyrənilmə səviyyəsi.** Xarici iqtisadi əməliyyatların son nəticələrinin qeydiyyata alınması iqtisadi tədqiqatların inkişaf etdirilməsinin hər bir mərhələlərində tədiyyə balansı şəklində tədqiqat obyektinə çevrilmişdir. MDB ölkələrin iqtisadçılarından L.N.Krasavina, N.N.Liventsev, L.S.Taraseviç, V.B.Buqlay, V.M.Qalperin və digərləri, klassik iqtisadçılardan isə D.Rikardo, A.Smit tədiyyə balansının formalaşmasına aid təcrübi və nəzəri əsası olan tədqiqat işləri aparmışlar.

Azərbaycan Respublikası müstəqil olduqdan sonra beynəlxalq iqtisadi əlaqələrə qatılmış və o dövrdən başlayaraq ölkənin tədiyyə balansının hazırlanması vacib sayılmış və bu sahə tədqiqat obyektinə çevrilmişdir. Son vaxtlar makroiqtisadi proseslər və tədiyyə balansı tənzimlənməsi problemlərinin öyrənilməsi üçün alimlərin marağı artmışdır. Bunun üçün Ə.Ə.Ələkbərov, Z.Ə.Səmədzadə, E.M.Sadıqov, Z.F.Məmmədov, I.Kərimli, F.Ə.Qənbərov, R.T.Həsənov, Ş.B.Quliyev, V.Ə.Nəzərov və digərləri bazar iqtisadiyyatına keçid şəraitində bir sıra məqalələr və tədqiqat işlərini bu sahəyə həsr etmişlər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti tədiyyə balansı və beynəlxalq likvidlik kontekstində iqtisadi artım problemləridir, tədqiqatın predmeti qismində isə iqtisadi artım, tədiyyə balansı və beynəlxalq likvidliyin qarşılıqlı təsiri çıxış edir.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı iqtisadi–riyazi metodlar, statistik təhlil, məntiqi ümumiləşdirmə və s. metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi tədiyyə balansının tənzimlənməsi zamanı yaranan problemləri bütöv şəkildə araşdırmaqla onun təkmilləşdirilməsi yönümünü müəyyən etmək, bu sektora elmi yanaşmadan əsaslandırılmış təklif və məsləhətlər işləyib tərtib etməkdən ibarətdir. Bu məqsədlə aşağıdakı vəzifələri həll etmək qarşıya məqsəd qoyulmuşdur :

1.tədiyyə balansı tərtibinin nəzəri prinsiplərini elmi yanaşmadan əsaslandırıması ;

2.makroiqtisadi siyasətin tərtibində tədiyyə balansı rolunun və yerinin müəyyənləşdirilməsi ;

3.tədiyyə balansının keçid iqtisadiyyatı şəraitində məzmunun, quruluşunun və xüsusiyyətlərinin hazırlanması problemlərin və ona təsiri olan amillərin müəyyən edilməsi ;

4.tədiyyə balansı tənzimlənməsinin əsas aləti olan beynəlxalq likvidliyin təsirini tədqiq etmək və qiymətləndirməsi ;

5."Strateji yol xəritəsi" kontekstində milli iqtisadiyyatın inkişaf meyillərinin araşdırılması ;

6.Azərbaycanda iqtisadi artımın əsas mərhələlərini tədqiq etmək və effektliyinin artmasında istiqamətlərin müəyyən edilməsi ;

**Tədqiqatın elmi yeniliyi.** Bazar iqtisadiyyatına keçid şəraitində milli iqtisadiyyatın xarici iqtisadi münasibətlərinin yekunlarını göstərən tədiyyə balansının tərtibi və onun tənzimlənməsinin nəzəri təcrübi məsələlərinin probleminin kompleks tədqiq olunub, milli iqtisadiyyatın tədiyyə balansı hazırlanması və onun tənzimlənməsinin vacib şərtlərinin, iqtisadi mexanizmlərinin və əsas istiqamətlərinin müəyyən edilməsindən ibarətdir. Tədiyyə balansı nəzəri-metodoloji əsaslarının, tənzimlənməsinin və təhlilinin öyrənməsi əsasında bu sahədə mövcud olan xüsusiyyətlər və problemlər, həmçinin tədiyyə balansı, beynəlxalq likvidliyin və iqtisadi artım problemlərinin qarşılıqlı əlaqələri müəyyənləşdirilir. Tədqiqat prosesində elmi yeniliyin xarakterizə edən aşağıdakı nəticələr əldə olunub:

- Klassiklərin nəzəri-metodoloji maddələrindən və müasir iqtisadçıların elmi tərəflərindən çıxış edərək, tədiyyə balansının hazırlanması, tənzimlənməsi və daha da mükəmməl hala gəlməsinin konseptual əsasları kompleks halda tədqiq olunmuşdur;
- bazar iqtisadiyyatına keçid dövründə iqtisadiyyatın makrotarazlama sistemində tədiyyə balansının vəziyyəti və ona təsir edən amilər araşdırılmışdır.
- milli iqtisadiyyatın inkişaf etməsi və dünya təsərrüfat münasibətlərinin genişlənməsində tədiyyə balansının tarazlandırılmasının ümumi iqtisadi istiqamətləri göstərilmişdir.
- Beynəlxalq valyuta likvidliyinin mahiyyəti, formalaşmasının şərtləri və onun komponentləri təhlil olunmuşdur.
- Azərbaycanda iqtisadi artımın mərhələləri kompleks şəkildə təhlil olunub və "Strateji yol xəritəsi " kontekstində onun gələcək istiqamətləri müəyyən olunmuşdur.
- Azərbaycan Respublikasının tədiyyə balansının tarazlandırılması və yeni iqtisadi dövrə keçidin hazırkı mərhələsinə uyğun olaraq təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının Mərkəzi Bankının, Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin və digər dövlət qurumlarının hesabatları, həmçinin BVF və digər beynəlxalq maliyyə təşkilatlarınnın rəsmi məlumatları təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Milli iqtisadiyyatın tədiyyə balansı tənzimlənməsi strukturunun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi və bu istiqamətlər üzrə elmi yanaşma ilə konkret təklif və məsləhətlərin tərtibi, ölkənin idxalatını rasionallaşdırmaq, ixracatını isə genişləndirilməsi, xidmətlər balansı üzrə əməliyyatların inkişaf etdirilməsi, həmçinin ölkə iqtisadiyyatının davamlı olaraq inkişafına görə xarici kapitalın cəlb edilməsi üçün müəyyən tədbirlərin göstərilməsi ilə şərtlənir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi mündəricat, giriş, 3 fəsil, nəticə, ədəbiyyat siyahısı və annotasiyalardan (rus və ingilis dilində) ibarət olmaqla 87 səhifəni əhatə edir.

# I FƏSİL. TƏDIYYƏ BALANSININ MAKROIQTISADI SISTEMDƏ ƏHƏMIYYƏTI VƏ ONUN TƏNZIMLƏNMƏSININ NƏZƏRI-METODOLOJI ƏSASLARI

## 1.1. Tədiyyə balansının mahiyyəti , iqtisadi məzmunu və strukturu

Iqtisadi tədqiqat zamanı dövlətlərarası iqtisadi münasibətləri beynəlxalq maliyyə və beynəlxalq ticarət əlaqələri olmaqla iki qrupa bölməklə standart bir bölgü kimi qəbul olunmuşdur. Beynəlxalq maliyyə əlaqələri maliyyə və kapitalın beynəlxalq hərəkətini, beynəlxaq ticarət əlaqələri isə ölkələr arasında məhsul və xidmətlərin mübadiləsini əhatələyir. Ölkələr arasında olan bu münasibətlərin nəticələri bütövlüklə tədiyyə balansında öz əksini tapır.

Tədiyyə balansı tarixən ilk əvvəl orta əsrlərdə ticarət balansı anlamında meydana gəlmişdir. “Tədiyyə balansı” sözü ilk dəfə olaraq termin şəklində iqtisadiyyata C.S.Mill (1806-1873) tərəfindən daxil olmuşdur. Beynəlxalq dərəcədə ilkin olaraq tədiyyə balansı Millətlər Liqasında axtarış edilmiş daha sonralar isə BMT, Beynəlxalq Valyuta Fondunda tədqiq olunmuş və müasir dövrümüzdə geniş şəkildə araşdırılmaqdadır.

Tədiyyə balansı hər hansı bir ölkəyə müəyyən müddət ərzində dünyanın qalan ölkələrindən daxil olan ödənişlər və həmin ölkədən digər qalan ölkələrə göndərdiyi pul ödənişləri vəsaitləri arasındakı nisbətdir. Ölkəyə daxil olan müəyyən pul miqdarı pul ödənişlərindən daha çox, yəni artıq olarsa aktiv tədiyyə balansı, əgər daha az, yəni əksik olduqda isə passiv tədiyyə balansı hesab olunur. Yəni bu cür də demək olar ki, daxil olan pul ödənişlərdən daha çox olarsa müsbət saldo, əksinə olarsa isə mənfi saldo hesab etmək olar.

Makroiqtisadi siyasət elementlərin hazır olması zamanı vacib alət rolunda çıxış edənlərdən ən önəmlisi məhz tədiyyə balansıdır. Beynəlxalq Valyuta Fondunun yanaşmasına görə, tədiyyə balansı müəyyən müddət ərzində statistik hesabatdır və aşağıdakıları əks etdirir :

1) hər hansı bir ölkənin xarici ölkələr ilə həyata keçirdiyi xidmət, əmtəə və gəlir əməliyyatlarını ;

2) ölkənin qızıl ehtiyatı digər xarici ölkələrlə münasibətdə maliyyə tələbləri və mülkiyyət hüququnun dəyişilməsini ;

3) əməliyyat və dəyişikliklərin mühasibatla əlaqədar olaraq balanslaşdırılması üçün məcburi olan birtərəfli transfertlər və kompensasiya edici qeydlər.

Bu metodiki göstərişlərdə tədiyyə balansına yalnız həyata keçirilən əməliyyatlar haqqında məlumatların deyil, həmçinin bu əməliyyatların balanslaşdırılması üçün süni şəkildə tərtib olunmuş göstəricilərin daxil edilməsi tövsiyə olunur. [ 10. ]

Tədiyyə balansı müəyyən müddət ərzində (1 il) hər hansı bir ölkənin rezidentlərinin digər ölkədən gələn qeyri–rezidentlərlə apardığı iqtisadi əməliyyatların yekun nəticələrini dəyər şəklində əks etdirən statistik göstəricilər strukturudur. Tədiyyə balansına verilən təriflərə nəzər yetirərkən ortaya bir çox suallar meydana gəlir: "İqtisadi müqavilələr və bağlaşmalar deyərkən nə anlaşılır?", "Kimlər rezidentdir"

Tədiyyə balansı hazırlanarkən rezident və müqavilə anlayışları əhəmiyyətli sayılır. Xarici iqtisadi əməliyyatlar beynəlxalq ödəmə əlaqələri yönümündən ölkənin rezidentləri və ya qeyri–rezidentləri kimi çıxış edən təşkilat, firma və fiziki şəxslər tərəfindən yerinə yetirilir. İlk baxışdan sadə görünsə də, Transmilli korporasiyalar (TMK) fəaliyyətinin genişləndiyi, işçi qüvvəsi miqrasiyasının iri miqyaslarda olacağı və kapitalin beynəlmilləşdiyi müasir dövrdə mürəkkəb problemə çevrilir. Buna görə də keçirilən əməliyyatların təhrif olunmasını götürmək məqsədilə rezidentə geniş yerin verilməsi və onun bütün əməliyyatlar üçün düzgün tətbiq edilməsi əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Valyuta tənzimlənməsi haqqında qanunda aşağıdakılar qeyd olunur. Valyuta Tənzimi Maddə 2. Milli valyuta ilə əməliyyatlar :

1. Rezidentlər arasında milli valyuta ilə hesablaşmalar heç bir məhdudiyyət qoyulmadan aparılır.

2. Azərbaycan Respublikasında qeyri-rezidentlər tərəfindən milli valyutanın əldə edilməsi və ondan istifadə edilməsi gaydası Azərbaycan Respublikası Milli Bankı tərəfindən müəyyən edilir.

3. Rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın və milli valyutada ifadə edilmiş qiymətli kağızların Azərbaycan Respublikasından çıxarılması və göndərilməsi eləcə də Azərbaycan Respublikasına gətirilməsi və göndərilməsi Azərbaycan Respublikasi Milli Bankının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin birgə müəyyən etdikləri qaydada həyata keçirilir. [ 1. ]

Beynəlxalq iqtisadi əməliyyatların qeydiyyatını iqtisadi təsirinə görə qruplaşdırmaq olar. Bu qruplar aşağıdakılardır :

**1. Cari əməliyyatlar**

**2. Kapitalla əməliyyatlar**

Bu qruplar uyğun olaraq tədiyyə balansında cari əməliyyatlar və kapitalla əməliyyatlar balansları kimi qeyd olunur.

## Tədiyyə balansının strukturu

| | |
|---|---|
| **I** | **Cari əməliyyatlar** |
| 1.1 | Əmtəələr ( qeyri – monetar qızıl daxil olmaqla) |
| 1.2 | Xidmətlər |
| 1.3 | İnvestisiya gəlirlər və əməyin ödənilməsi |
| 1.4 | Cari transfertlər |
| **Cari əməliyyatlar balansı** | |
| **II** | **Kapital və maliyyə alətləri hesabı** |
| 2.1 | Dövlət və digər sektorların kapitalı ilə əməliyyatlar |
| 2.2 | Birbaşa investisiyalar |
| 2.3 | Portfel investiyalar |
| 2.4 | Digər investisiyalar , bank kapitalı daxil olmaqla |
| 2.5 | Səvhlər və buraxılmışlar |
| **Kapital və maliyyə alətlərinin hesabının balansı** | |
| **III** | **Rəsmi beynəlxalq ehtiyatlar (rezervlər) (azalması + , artması - )** |
| 3.1 | Monetar qızıl |
| 3.2 | Xüsusi borcalma hüquqları (SDR) |
| 3.3 | BVF ehtiyyat mövqe (25%) |
| 3.4 | Xarici valyuta |
| 3.5 | Digər ehtiyat aktivlər |

**Cari əməliyyat balansı**. Dövlətin beynəlxalq iqtisadi münasibətlərindəki əməliyyatlarının çox hissəsi cari əməliyyatlar hesabına aid edilir. Cari əməliyyatlar balansında qeyd olunan əməliyyatlar xidmətlərin və malların idxalı və ixracı, eyni zamanda birtərəfli iqtisadi transfertlərdir. Cari balans xidmətlərlə, mallarla və birtərəfli transfertlərlə əlaqədar olan dövlətin beynəlxalq müqavilələrdə əldə olunan xalis gəlir və xərcin dəyərini ölçür.

**Cari balans = ixracdan gəlir - idxal xərci - xaric edilən xalis iqtisadi transfertlər**

Cari əməliyyatlar balansına aid olan ticarət balansı idxal və ixrac üzrə ödənişlər və daxilolmaların nisbəti əsasında əmələ gəlir. Ticarət balansının tədiyyə balansına o hissəsi daxil olunur ki, ödənişlər artıq ödənilmişdir və ya tez bir zamanda yerinə yetirilməlidir. Kredit hesabına həyata keçirilmiş ödənilməmiş hissə də xarici ticarət əməliyyatlar üzrə hesablaşma balansında əks olunur.

Tədiyyə balansının cari vəziyyətinə təsir göstərən mühüm hadisələrdən biri də elə xarici ticarət dövrüyyəsinin quruluşudur. Bu balansın qiymətləndirməsi, yəni müsbət və mənfi saldoya malik olmasını qeyd etmək çox vacibdir.

Beləliklə, ölkədə xarici ticarət balansı mənfi saldo yaranan zaman xarici valyuta gəliri azalmağa doğru gedir, ödəmələr isə artır. Belə olduğu halda ölkənin valyuta ehtiyatlarınn həcmi azalır. Nəticədə milli valyutanın dəyəri xarici valyutaya nisbətdə aşağı düşür. Ölkənin xarici ticarət balansı müsbət saldoya malik olan zaman xarici valyutada gəlirlərin artmasına və beləliklə sonda milli valyutanın xarici valyutalara nisbətən valyuta kursunun yüksəldilməsinə imkan yaradır. Müsbət saldonun olması üçün hər bir ölkənin ixracatını inkişaf etdirməsi vacib amil hesab edilir. Cari əməliyyatlar balansına aid olan mühüm komponentlərindən biri də xidmət balansıdır. Xidmət balansına aşağıda yazılmış daxilomalar və ödəmələr aiddir :

- telefon, maliyyə əməliyyatları, nəqliyyat, turizm, ticarət nümayəndəliklərinin saxlanması;
- təzminat, hərbi xərclər və istehlak köçürmələri (miras, xarici fəhlələrə maaş, xaricdə oxuyan tələbələrə təqaüd və s.)
- iqtisadi məzmuna görə xidmətlərə deyil də kapital və kreditlərin hərəkətinə aid olan xarici investisiyalar üzrə gəlir və beynəlxalq kreditlərə görə faizlər də balansın bu hissəsində qeyd olunur.

Bizə məlumdur ki, bir çox ölkələrin iqtisadiyyatının inkişafında xidmətlər sferası əvəzedilməz rol oynayır. Bir çox inkişaf etmiş ölkələrdə, məsələn – Türkiyə, İtaliya, İspaniya, İsveçrə kimi ölkələrdə turizm inkişaf etmiş və ən gəlirli sahələrdən hesab etmək olur və ümumi valyuta gəlirinin 45 % - 60 % -ni bəzən də 80 % - 90 % -ni təşkil edir. [ 36. ]

Cari transfertlərə kapital transferti olmayan bütün transfertlər aid olunur. Bura dövlətin köçürmələri və digər transfertlər daxildir. Dövlət sektoruna xarici dövlətlərdən alınmış əvəzsiz maliyyə vəsaitləri, əvəzsiz alınmış hərbi texnika və texniki yardımlar daxildir. Özəl sektora isə xaricdə əməklə məşğul olmuş (1 ildən artıq) vətəndaşların pul köçürmələri, hümanitar yardımlar, dini, elm və s. təşkilatın üstünlük haqqları və s. daxildir.

**Kapitalın hərəkəti balansı**. Kapital və kredit hərəkəti müxtəlif zaman ərzində baş verir. Belə ki, bu bölmədə əməliyyatlar uzunmüddətli və qısamüddətli şəklində fərqləndirilir. Qısamüddətli əməliyyatlara aid bunlardır :

- xarici banklarda qeyd olunan cari hesablar üzrə ;

- valyuta və əmtəə formasında verilmiş kreditlər (1 ilə qədər müddətə) ;
- milli və xarici pul ehtiyatların ixracı və idxalı ;

Uzunmüddətli əməliyyatlara isə bunlar aiddir :

- ölkədən xaricdə daşınmaz əmlak və müəssisə alış–satışı ilə əlaqədar əməliyyatlar;
- xaricdə qiymətli kağızların alış–satışı ilə əlaqədar olan daxilolmalar və ödənişlər;
- uzunmüddətli kreditlərin verilməsi və alınması ;

Kapitalla əməliyyatların balansına bir maddə də əlavə olunur ki, bu da "nəzərdə qalanlar və səhvlər"– dir. Burada böhran zamanı nəzərə çarpmamış qısamüddətli kapitalın hərəkəti qeyd olunur.

Kapitalın hərəkəti balansı dövlətin xaricdəki aktivlərinin necə saldoya malik olmasını aydın şəkildə göstərir. Əgər ölkələrə xaricdən aktivlərin alınmasına çəkilən xərclər aktivlərin satışından daxilolmalardan azdırsa bu zaman balans müsbət saldoya malik olur. Belə olduğu halda ölkəyə kapitallar daha çox axmağa başlayır. Əgər bunun əksinə olduğu halda isə kapitalın ölkədən xalis çıxıb getməsi hadisəsi olur və balans kəsirlə nəticələnir.

Kapital hesabı iki bölmədən ibarət olur :

- balansda debet tərəfindən mühacirlərin köçürmələri
- neft mükafatı

Azərbaycanın dünya bazarında inteqrasiya olunmasının müsbət hallarından biri onun dünya dövlətləri ilə iqtisadi, maliyyə ticarət münasibətlərinin genişləndirməsidir.

**Maliyyə hesabında** aşağıdakılar qeyd olunur :

1. Portfel investisiyalar – səhm və qiymətli kağızların qazanılması yolu ilə yatırılan investisiya. Birbaşa investisiyalar və ehtiyat aktivləri bu bölməyə aid deyil.

2. Birbaşa investisiyalar – bir ölkənin investoru digər ölkənin müəssisəsinə uzunmuddətli qoyulan investisiya. Belə investisiyalar investorla müəssisə arasında bütün əməliyyatlar toplusudur.

3. Digər investiyalar – depozitlər, ssudalar, uzun və qısamüddətli kreditlər, digər kreditor və debitor borcları bu bölməyə daxildir.

4. Səhvlər və buraxılmalar hesabı səhvlərə nəzərən daha çox buraxılmaları, yəni nəzərdən qaçmış göstəriciləri əhatə edir. Bu hesab əsasən qısamüddətli kapitalın hərəkəti üzrə aparılan hesablaşmalar zamanı özünü göstərir. Bu hesabda, o cümlədən, kapitalın qeyri–leqal axını və qaçaqmalçılığın olması nəzərə yetirir.

Qeyd etmək olar ki, tədiyyə balansında maliyyə hesabında ən mühümü investisiyalar tutur. Müasir dövrdə investisiyalar bir çox ölkələrdə xüsusi böyük

əhəmiyyətə malikdir. O cümlədən, investisiya yatırmaq Azərbaycan iqtisadiyyatı üçün də çox böyük əhəmiyyətli hesab olunur.

**Balanslaşdırıcı hesab**. Balanslaşdırıcı hesab – qeyri-rezidentlər ilə kompleks əməliyyatlar tədiyə balansında əks olunmalıdır. Statistik göstərici kimi tədiyə balansının strukturunda öz əksini tapmayan əməliyyatların nəticəsi kimi yekunda bu maddə meydana gəlir. Bir çox hallarda bir əməliyyatın debet və kredit tərəflərini uçota almaq üçün müxtəlif məlumatlandırıcı mənbələrdən istifadə edilir. Bu mənbələrin biri və ya bir neçəsi tam olmadıqda debet və kredit tərəfləri bir-birinə uyğun olaraq bərabər olmur və yekunda müəyyən fərq meydana gəlir. Bu fərqlər cəmi nıticədə balanslaşdırıcı hesablar rolunu oynayır.

"Rəsmi Beynəlxalq ehtiyatlar (rezervlər)" müxtəlif ölkələrin mərkəzi banklarının ödəniş vasitəsi kimi qəbul edilən valyuta ehtiyatları hesab olunur. Bu ehtiyatlar əsasən qızıl və ya digər valyutalar formasında ola bilər ki, bu valyutalara əsasən avro və dollar rezervlərini misal göstərə bilərik. Beynəlxalq ehtiyatlar, o cümlədən, beynəlxalq öhdəliklərin həyata keçirilməsi üçün də istifadə edilir.

Xüsusi borcalma hüququ (SDR) 1969 –cu ildə beynəlxalq valyuta ehtiyatından bir olub BVF tərəfindən üzv ölkələr üçün əlavə olaraq valyuta ehtiyatı kimi yaradılmışdır. Bu, əsasən dollar və qızıl məhdudiyyətinə qarşı yaradılmışdır ki, onun əsas məqsədi standart valyuta ehtiyatının və beynəlxalq hesabların yaradılması ilə bazarın likvidliyinin təmin olunması idi.

Monetar qızıl - qızılın dünyada olan qiymətlərində həyata keçirilən dəyişikliklər hesabına ölkənin qızıl ehtiyatının həcmində olan dəyişmələrdir.

BVF –dakı ehtiyat mövqe – Dövlətin BVF –dəki ehtiyat aktivləri və həmin fond tərəfindən ölkəyə verilən borcların cəmini təşkil edir. Ehtiyat hissələri isə kvotanın 25%-ni təşkil edir və dövlət tərəfindən istənilən zaman qeyd–şərtsiz götürülə bilər.

Xarici valyuta aktivləri – beynəlxalq aktivlərin əsas hissəsini təşkil edir. Bu aktivlərə bunlar aid olunur: xarici valyuta ilə qeyri–rezidentlərə qarşı çıxan tələblər, dövlət qiymətli kağızları, digər qiymətli kağızlar, bank depozitləri, yerli və xarici mərkəzi banklar, həmçinin dövlət orqanları aralarındakı müqavilələr nəticəsində yaranan tələblər.

Ehtiyat aktivlər – tədiyyə balansının tənzimlənməsi,maliyyə ehtiyaclarına görə ölkənin pul–kredit tənzimlənməsini aparan orqanı tərəfindən aktivlərlə əməliyyatlara deyilir. Tədiyyə balansının bir hissəsi olan ehtiyat aktivləri deyərkən, ölkənin qızıl–valyuta ehtiyatları nəzərdə tutulur. Bu ehtiyatların həcmi tədiyyə balansının cari vəziyyətindən asılıdır. Ehtiyat aktivlərindən istifadə etmək Mərkəzi Bankın beynəlxalq

ödəmə vasitəsidir. Mərkəzi Bankın valyuta bazarına müdaxilələri xairici iqtisadi münasibətlərin nəticəsidir.

Əgər ölkənin valyuta gəliri valyuta xərclərini bütünlüklə qarşılayırsa o zaman valyuta kurslarında dəyişmə elə də görülmür. Bu zaman Mərkəzi Bankın müdaxilələrinə ehtiyac yoxdur. Əgər valyuta münasibətlərində gəlirlər xərcləri qarşılamırsa, bu zaman valyuta kursu yüksəlməyə başlayır. Əksinə olan halda isə, yəni valyuta tələbi təklifdən az olarsa, valyuta kursu aşağı olur. Mərkəzi Bank kurs sabitliyini göstərən siyasət izləyirsə, bu zaman valyuta bazarına müdaxilə etməsi vacibdir. Yəni valyuta təklifi çox olan zaman valyuta bazarından valyuta almalı, tələb çox olduqda isə valyuta satmalıdır. Bu cür fəaliyyətlər kursları istənilən vəziyyətdə saxlamağa kömək göstərir. Əlbəttə ki, Mərkəzi Bankın müdaxiləsi ehtiyat aktivlərində dəyişməyə səbəb olmur. Bazardakı valyuta alarkən ehtiyatlar artır, əksinə satışı olan zaman isə ehtiyatlar azalır. Ehtiyatlardakı dəyişmələr isə dövlətin tədiyyə balansında  qeyd olunur.

Tədiyyə balansı vəziyyətinin beynəlxalq əlaqələrdə dövlətin necə vəziyyətdə olduğunu göstərən makro iqtisadi göstəricilər cəmidir. Beynəlxalq maliyyə təşkilatları hər hansı ölkə ilə əməkdaşlıq quran zaman ilk növbədə həmin ölkənin tədiyyə balansı ilə tanış olurlar. Belə ki, tədiyyə balansı göstəriciləri dövlətin tədiyyə qabiliyyətini göstərməklə, həm də dövlətin xarici dövlətlərdən nə dərəcədə asılı olmasını göstərir.

Bazar iqtisadiyyatına keçid, dünya dövlətlərində iqtisadi inkişaf səviyyəsini yüksəltmək üçün dövlətin düzgün tənzimləmə siyasəti olması vacibdir. Bu fikri keçmiş zamanda A.Smit deyirdi ki “Bazarın normal inkişafı və istehsalçıların mənfəət götürməsi üçün dövlət bir neçə funksiyaları öz üzərinə götürməlidir” .

Dövlətin tədiyyə balansının tənzimlənməsi əsas vəzifələrindən biridir. Ölkənin bütün tədiyyə balansını öyrənmək üçün cari əməliyyatlar balansı və kapitalların hərəkəti balansını birləşdirmək vacibdir. Dövlət öz mallarının, aktivlərinin və xidmətlərinin satışından əldə etdiyi vəsaitdən çox xaricdən alması üçün xərc edə bilməz.

Əgər cari əməliyyatlar üzrə dövlətin xərcləri gəlirlərini ötərsə, kəsir yaranacaqdır. O zaman dövlət özünü maliyyələşdirmək üçün xaricdən borc almağa məcbur olacaqdır. Buna görə kapitalların hərəkəti balansı müsbət saldosu cari əməliyyatlar üzrə balansının kəsrinə dəqiq uyğunlaşmalıdır ki, bütün əldə olunan gəlirlərlə xərclər balans şəklində olsun. Lakin valyuta bazarının işini həyata keçirən Mərkəzi Bankın müdaxiləsi şəraitində balanslaşmaya ehtiyac olmur.

Valyuta bazarı dünya ölkələrinin valyutalarının satışını və alışını yerinə yetirən bazardır. Ölkədə olan şirkətlər mallar və xidmətlər idxal edən zaman ödənişləri yerinə yetirmək üçün xarici pullar əldə etməyə ehtiyac olur və bu zaman öz valyutasını satmağı

təklif edir, bununla da xarici valyuta alıcıları olur, yəni tədiyyələrini yerinə yetirmək üçün xarici pul alması zəruri hesab edilir. Valyuta mübadilə kursu o deməkdir ki, bir xarici valyutanın milli valyutaya olan nisbətidir. Bu mübadilə kursu uyğun olaraq valyutaya olan təklif və tələbinə görə müəyyən edilir.

Valyuta mübadilə kursuna təsir göstərmək üçün əsasən mərkəzi banklar valyuta bazarında olurlar. Beləliklə mərkəzi bankın valyuta bazarına necə təsir göstərməsini düzgün şəkildə öyrənmək və valyutanın mübadilə kursuna necə təsir göstərmisini düzgün aydınlaşdırmaq vacibdir. Mərkəzi bank valyuta bazarına təsir göstərərkən, o, özünün valyuta ehtiyatını, yəni xarici valyuta rezervlərinin yüksəldir.

Beləliklə əgər mərkəzi bank öz rezervlərini xarici valyutada saxlayırsa, bu zaman cari əməliyyatlar balansının kəsiri olduqda onu maliyyələşdirmək üçün aktivlər qismən müyyən hissəni sata bilər. Cari əməliyyatlar balansı tarazli vəziyyətdə olduğu mərkəzi bank xarici valyutanı satmaqla kapital hərəkəti balansının kəsirini aradan qaldıra bilər. Əgər dövlətin kapitalla hərəkəti balansı ilə cari əməliyyatlar balansı müsbət saldo təşkil edirsə, bu zaman mərkəzi bank xarici valyuta alır və valyuta rezervlərini yüksəldir. Belə olduğu halda isə deyə bilərik ki, ölkənin mərkəzi bankı öz valyuta ehtiyatını artıran zaman ölkənin tədiyyə balansı müsbət saldo təşkil edir. Əgər mərkəzi bank xarici valyuta alırsa o zaman hər iki balans eyni müddət ərzində müsbət saldoya malik olmalıdır.

Hər iki balans, yəni kapitalla hərəkəti balansı və cari əməliyyatlar balansı müsbət saldo göstərirsə, onda xarici valyutanın daxil olması müsbət şəkildə olur, buna görə də ölkənin tədiyyə balansı müsbət saldo təşkil edir. Əgər hər iki balans mənfi olarsa ölkənin tədiyyə balansı kəsirli şəkildə olacaqdır. Kəsirli olan zaman isə mərkəzi bank xairici bank rezervlərini ləğv etməli olur. Tədiyyə balansını uyğun olaraq aşağıdakı bərabərlik şəklində yazmaq olar:

**Tədiyyə balansı = Cari tədiyyə balansı + kapitalın hərəkəti balansı**

Bu bərabərlikdə tədiyyə balansı müsbət saldoya malik olması onu göstərir ki, bərabərlikdən sağ tərəfdə yerləşən hər iki balansın müsbət saldoların məbləğinə bərabərdir.

Tutaq ki, cari əməliyatlar balansı mənfi saldoya malikdir, yəni kəsirlidir və həm də mərkəzi bank xarici valyutanın almasına görə təsir edə bilmir. Belə olduğu halda yuxarıdakı bərabərliyin sol tərəfini sıfıra bərabər etdikdə, hər iki balans bir-birinə bərabər olduğunu göstərmək üçün isə gərəklidir ki, cari əməliyyatlar balansı müsbət saldoya, kapitalla hərəkəti balansı isə kəsirə malik olmalıdır. Bu yazdığımızı bu şəkildə yaza bilərik :

**Cari əməliyyatlar balansının müsbət saldosu = Kapitalla hərəkət balansı kəsiri**

Bu bərabərlik onu göstərir ki, iqtisadiyyata ölkənin təsiri olmadığı halda xüsusi sektorun hesabı balanslı şəkildə olmalıdır. Bütünlüklə dövlətdə olduğu kimi firmalar və xüsusi sahibkarlar əldə etdiyi vəsaitlərdən çox xərcləyə bilər və belə olduğu halda borc götürməyə məcbur olar və ya aktivləri sata bilər. Əgər heç kəs borc vermirsə o zaman firmalar və sahibkarlar öz gəlirlərini ilə xərclərini balanslaşdırmağa məcbur olacaqdır.

Dövlət tədiyyə balansının tənzimlənməsində hər cür vasitədən istifadə edir, xaricə ixracı artırır, dünyaya bazarına əmtəələr və xidmətlər çıxarır, deflyasiya siyasəti keçirir. Tənzimləmə zamanı dövlət əvvəlcə artıq pul kütləsinin bir hissəni tədavüldən çıxarır ki, bu da inflyasiyanın aşağı salınması üçündür. Dövlət vergiləri yüksəldir, qiymətli kağızları satışını artırır.

Dövlət həm də pul–kredit bazarına təsir göstərilməsində valyuta tənzimlənməsindən geniş istifadə etmək imkanına malikdir. Bütün inkişaf edən ölkələrdə olduğu kimi, maliyyə bazarı inkişaf edərkən dövlət öz monetar siyasətini həyata keçirir, yəni qiymətli kağızlar bazarında əməliyyatlar aparmağa daha çox üstünlük verir.

Tədiyyə balansı tənzimlənməsinin metodları əsasən iki cür olur: müvəqqəti və qəti metodlar. Müvəqqəti metodlara bunlar aiddir: beynəlxalq maliyyə təşkilatların kreditlərindən istifadə olunması, mərkəzi banklar arasında svop kreditlərin verilməsi və investiyalar. Qəti metoda isə qızıl valyuta ehtiyatlarından istifadəsi aiddir.

Azərbaycanda tədiyyə balansı quruluşunun optimallaşdırılması və onun tənzimlənməsi əsas makro iqtisadi problemlərdəndir. Belə ki, tədiyyə balansı göstəriciləri ilə yanaşı makro iqtisadi göstəricilər bu informasiyada öz əksini tapdığından dövlətin iqtisadiyyat sahəsində apardığı islahatların nəticəsi məhz bu sənəddə qeyd olunur.

Onu da qeyd edə bilərik ki, Beynəlxalq Valyuta Fondunun məsləhət verdiyi İnkişaf etməkdə olan ölkələrin tədiyyə balansı 120-dən çox maddələrdən ibarətdir. Amma Azərbaycanda bu sənəd tərtib olunan zaman göstərilən sxemdən kənara çıxılır. Bu da ölkənin iqtisadiyyatlarının özəlliklərindən asılıdır. Məsələn, Azərbaycanın tədiyyə balansı əsas göstəriciləri (2016-cı il yanvar–iyun ayları üçün) aşağıda göstərilən cədvəllə təsvir olunmuşdur: mln. $

| | |
|---|---|
| **Cari əməliyyatlar** | **- 801.9** |
| Xarici ticarət balansı | 1933.6 |
| Xidmətlər balansı | -1755.9 |
| İlkin gəlirlər balansı | -1002.7 |
| İnvestisiya gəlirlərin qaytarılması | -892.1 |
| Təkrar gəlirlər balansı | 23.1 |
| **Kapital hesabı** | **-40.0** |
| **Maliyyə hesabı** | **-2180.9** |
| Xalis maliyyə aktivləri : | 4072.8 |
| -xaricə yönəldilmiş birbaşa investisiyalar | 1490.0 |
| -portfel investisiyalar | -82.1 |
| -törəmə maliyyə alətləri | - 0.7 |
| -digər investisiyalar | 2665.6 |
| Xalis maliyyə öhdəlikləri : | 1891.9 |
| -ölkəmizə cəlb olunmuş birbaşa investisiyalar | 3693.3 |
| -cəlb olunmuş investisiyaların qaytarılması | -1547.5 |
| -portfel investisiyları | 570.4 |
| -digər invesitsiyalar | -743.3 |
| **Balanslaşdırıcı maddələr** | **1770.1** |
| **Tədiyyə balansının ümumi saldosu** | **-1252.7** |

**2016-cı il yanvar–iyun aylarının tədiyyə balansının əsas statistik göstəriciləri**

Yuxarıdakı tədiyyə balansı cədvəlinə əsasən qeyd edə bilərik ki, 2016–cı il yanvar–iyun aylarında Azərbaycan Respublikasının xarici iqtisadi əməliyyatlar neft-qaz bölməsi üzrə müsbət saldo, qeyri–neft bölməsi üzrə isə mənfi saldo təşkil edir. Neft–qaz bölməsi üzrə məcmu daxilolmalar əsas neft və qazın ixracından və bu bölməyə cəlb olunan xarici kapitaldan alınan vəsaitlər hesabına formalaşır. Tədiyyə balansı 2016–cı il yanvar iyun ayların statistik göstəricisinə əsasən neft–qaz bölməsi üzrə əldə olunmuş ümumi müsbət saldo 2.9 mlrd. $ olmuşdur.[ 42. ]

Azərbaycan Respublikasının tədiyyə balansını tənzimləyən zaman onun optimal vəziyyətə gətirmək üçün aşağıda göstərilən variantları həyata keçirmək məqsədə uyğun olardı:

1) İxrac–idxal əməliyyatı zamanı barter hesablaşmaların həcmi azaldılmalı, valyuta ilə aparılan əməliyyatlar artırmalı daha çox ona üstünlük verilməlidir.

2) Dövlətin xarici və daxili iqtisadi siyasəti sistemli şəkildə tənzimlənməli, pərakəndəlik olmamalıdır.

3) istehsal yönümlü məhsulların idxalı yüksəldilməli, ixrac yönümlü sahələr üçün stimullaşdırıcı tədbirlər görülməlidir.

4) Dövlət Statistika Komitəsi və Dövlət Gömrük Komitəsi tərəfindən keçirilən proseslər tədiyyə balansının hazırlanması baxımından düzgün şəkildə və beynəlxalq standartlara uyğun olaraq həyata həyata keçirilməsi məqsədə uyğun olardı.

Sonda onu da qeyd edə bilərik ki, tədiyyə balansı qurulmasının optimallaşdırılması ilə birlikdə hesablaşmalar balansına nəzər yetirmək lazımdır. Yəni, hər iki sənəddə pozitiv nəticələrin əldə olunması hərəkətləri paralel formada həyata keçirilməlidir.

### 1.2. Tədiyyə balansının tənzimlənməsinin konsepsiyaları və nəzəriyyələrinin təhlili

Tədiyyə balansı balanslaşdırılmanın pozulmasının iqtisadi nəticələri – bir çox ölkələrdə tədiyyə balansını tənzimləmək müasir dövrdə əsas iqtisadi siyasət hesab olunur. Bu tənzimləmənin pozulması müasir dövrün xarakterik cəhətlərindəndir və bu pozulmanın səbəbləri haqqında müxtəlif fikirlər mövcuddur. Tədiyyə balansı kəsirinin meydana gəlməsinə və bir sıra göstəricilər – milli xərclərdə dövri dəyişikliklər, tələbdə və məhsuldarlıqdakı dəyişikliklər, valyuta məzənnəsində dəyişikliklər əsas ciddi təsir göstərir. Başqa bir fikrə görə, Beynəlxalq Valyuta Fondu yaradılmamışdan əvvəl ölkələrin öz valyuta məzənnələrini qorumaq üçün bir-biri ilə rəqabət etməsi üçün devalvasiyalardan istifadə etmələri tənzimləmənin pozulması ilə sonlanırdı. XX əsrin II yarısında bəşəriyyat tarixində iqtisadi inkişaf sürəti yüksək həddə çatmışdır. Belə şəraitdə bir sıra ölkələrin inkişafında qeyri–bərabərlik ciddi hal sayılırdı. Belə ölkələrə misal olaraq Almaniya və Yaponiyanın iqtisadiyyatının səviyyəsi dünyada artması onların tədiyyə balansında müsbət saldo yaranması üzrə nəticələnmişdir. Yəni burada belə başa düşmək olar ki, hər hansı ölkənin iqtisadi vəziyyətini müəyyən dərəcədə tədiyyə balansı tənzimlənməsi ilə xarakterizə olunur. Dünyada iqtisadi vəziyyətin pozulması isə tədiyyə balansında da tənzimləmənin pozulmasına gətirib çıxarır. İlk öncə isə tədiyyə balansının pozulması ölkə iqtisadiyyatında bir çox arzuedilməz nəticələr doğurur.

Cari əməliyyatlar üzrə tədiyyə balansının sabit müsbət saldosu milli valyutanın dəyərini möhkəmləndirir və xaricə kapital ixracı üçün əlverişli maliyyə bazası yaradır. Bu balansın mənfi saldosu isə, əksinə, milli valyutanın dəyərini aşağı salır və daha çox ölkəyə xarici kapitalı cəlb etməyə məcbur olur. Əgər belə kapitalın cəlb etməyi uzunmüddətli investisiyalar formasında deyil, uzunmüddətli dövlət və bankın qiymətli kağızlar (istiqrazlar) formasında keçirilirsə, bu isə dövlətin xarici borclanmaya və

borcların üstünə faizlərin gəlməsi ilə borcların artmasına gətirib çıxarır. Belə olduğu halda isə dövlət öz siyasətini kreditlər hesabına həyata keçirir.

Cari əməliyyatlar balansı üzrə saldonun güzəştli şəkildə dəyişməsi ölkə üçün çox ağır nəticələr doğurur. Müsbət qalığın kəskin artması dövlətdə pul kütləsinin kəskin çoxalması və uyğun olaraq inflyasiyanın olmasına şərait yaradır. Mənfi qalığın sürətlə artması isə valyuta məzənnəsi dəyərinin aşağı düşməsinə gətirib çıxarır və xarici iqtisadi əməliyyatlarda xaos yaradır. Yuxarıda dediklərimizə görə, tədiyyə balansı tənzimlənməsi deyərkən əvvəlcə cari əməliyyatlar balansının qalığı və kəsri dəyişməsinə diqqət yetirmək lazımdır.

Müasir iqtisadiyyatda tədiyyə balansı problemini öyrənən nəzəri konsepsiyalar və modellər çoxluq təşkil edir. Bu konsepsiyaların və nəzəriyyələrin əsas məqsədi odur ki, tədiyyə balansını tənzimləmək üçün səmərəli metodlar hazırlayır. Belə ki, tədiyyə balansının tənzimlənməsinə aid bir sıra uzun tarixə malik olan nəzəriyyələr vardır ki, onlar əsasında həyata keçirilir. Onlara nəzər salaq:

Merkantilistlər tədiyyə balansı tarazlı vəziyyətdə qalmasının əleyhinə idilər. Merkantilistlər əsasən bu yolda, yəni hər hansı malı yüksək qiymətə satıb ucuz almaqla tədiyyə balansı müsbət saldosunun təmin olunması və beləliklə ölkədə rifah vəziyyətinin yüksəkdilməsi fikrini deyirdilər. Onlar belə hesab edirdilər ki, tədiyyə balansında müsbət saldo olan zaman valyuta bazarında milli valyuta məzənnəsi yüksəlir və buna görə də, idxal qiymətləri ixrac qiymətlərinə nisbətən azalır. Belə düşüncə ilə onlar hər hansı malı aşağı qiymətə alıb baha qiymətə satmaq üçün şərait yaratdığını fikirləşirlər. Onlar daxili qiymətlərin artması ilə balansın müsbət saldosunun olduğu fikrini qəbul etmişlər, amma idxalatı artırmaqla ixracı azaltması, sonda isə qızılın ölkədən çıxarılacağı düşüncəsini görə bilmişlər. Merkantilistlər tədiyyə balansına aid fikirlər söyləyib onu əhəmiyyətli hesab etsələr də, bu sektorda nəzəriyyə yarada bilməmişlər.

Klassik iqtisadçılar tədiyyə balansı tarazlığının valyuta məzənnəsi və siyasət alətləri vasitəsilə tədiyyə balansı tarazlığı avtomatik bərpası fikrini söyləmişlər. Bu nəzəriyyəni ingilis alimi David Hume tərəfindən 1752-ci ildə hazırlayıb. Bu nəzəriyyəyə görə tədiyyə balansı tarazlığı qiymətlərin təsiri ilə formalaşdığı fikrini söyləmişdir. Belə ki, tədiyyə balansı passiv olduqda milli iqtisadiyyatdan qızılın çıxışı baş verir. Beləcə, qızıl pulların dövriyyədə azalması halı olur. Nəticədə, milli mallar beynəlxalq əlaqədə rəqabətliliyi artır və məhsulların ixracı yüksəlir.

Nəzəriyyəni ilk dəfə sistem şəklinə salan alim isə C.S.Mill olmuşdur. Sonralar bu nəzəriyyəni C.Robinson və A.Lerner 1930 –cu ildə tənqid etmişlər. Klassiklər valyuta məzənnəsi və qiymətdəki dəyişiklikləri Keyns nəzəriyyəsi çıxana qədər beynəlxalq

tarazlıq hesab etmişlər. Həmin dövrdə qızıl standartı sistemi var idi. Klassiklərin düşüncəsinə əsasən xarici tarazlığın pozulması valyuta və qızıl dəyişmələri ixrac və idxal qiymətlərinə təsir edərək balansı müvazinətdə saxlayır. Bu nəzəriyyəyə görə tədiyyə balansı kəsirli olan zaman, bu kəsri bağlamaq üçün hər hansı ölkə qızıl ixrac etməlidir. Pulun miqdar nəzəriyyəsinə görə hər hansı ölkə qızılı ixrac edərkən pul miqdarı azalır və pulun miqdarı aşağı düşməsi isə qiymətlərin səviyyəsinin aşağı düşməsinə səbəb olur. Pul vəsasitinin azalması nəticəsində borc bazarında faiz dərəcələri artır. Digər tərəfdən tədiyyə balansı müsbət saldoya malik olan ölkəyə qızıl axını baş verir. Ölkədə qızıl isə qiymətlərin səviyyəsini və pulun pul miqdarını çoxaldır. Belə ki, ixrac azalan zaman idxalat artır. Belə olan halda isə xarici tarazlıq bərpa olunur. Ölkələr arasında maliyyə və kapital hərəkəti bu sistemə öz təsirini göstərir. Klassiklərin fikirlərinə əsasən idxalat və ixracat valyuta məzənnələri ilə sıx əlaqəlidir. Valyuta məzənnəsi də öz növbəsində ölkənin tədiyyə balansından asılı vəziyyətdədir. Buradan belə nəticəyə gəlmək olar ki, ölkənin tədiyyə balansı tarazlığı pozulan zaman onu tənzimləmək üçün valyuta məzənnələrindəki dəyişmələr ən effektli və ya səmərəli vasitədir.

Balans kəsirli olan zaman valyuta tələbi təklifdən artıq olur və bununla əlaqədar olaraq xarici valyuta məzənnələri milli valyuta məzənnəsinə nəzərən nisbətdən yüksəlir. Buna uyğun olaraq yerli malların qiymət səviyyəsi xarici valyutalarda azalır. Balans müsbət saldoya malik olduqda isə bu prosesin əksi baş verir. Nəticədə, qarşılıqlı təsir göstərməklə ölkələr arasında tədiyyə balansı müvazinətdə olur.

Keynsin nəzəriyyəsi olan tədiyyə balansı nəzəriyyəsi ilə yeni beynəlxalq tarazlaşdırma nəzəriyyəsi meydana gəldi. Bu nəzəriyyəyə görə hər hansı ölkədə tədiyyə balansı kəsirli olarsa o zaman həmin kəsir miqdarında pul azalır və ona görə tələbin həcmi azalır. Tələbdə olan azalma iqtisadiyyatda istehsal və məşğulluq səviyyəsi və uyğun olaraq milli gəlir də azalmağa doğru gedir. Belə ki, milli gəlirin azalması zamanı idxala olan tələb də məhdudlaşır. Əksinə tədiyyə balansında müsbət saldo olan ölkələrdə pul həcmi çoxalması ümumi tələbi artıraraq milli gəlir və istehsalın həcmləri artırır. Milli gəlirin artımı isə uyğun olaraq idxalı stimullaşdırır. Müxtəlif ölkələrdə baş verən belə proseslər qısa müddət ərzində onlar arasında beynəlxalq tarazlaşma müvazinətdə olur. Xarici tarazlaşma zamanı da, şübhəsiz, qiymətlərin öz təsiri vardır.

Y.Tinberqan, C.Mid və S.Aleksander tərəfindən "Gəlir tənzimlənməsi mexanizmi" nəzəriyyəsi Keynsin "Milli gəlir və məşğulluq" nəzəriyyəsinə əsasən hazırlanmışdır. Bu yanaşma tədiyyə balansını ümumi daxili məhsulun əsas elementləri ilə, ilk növbədə ümumi daxili tələbatla bağlamağa çalışır. Bu cür yanaşma onu isbat edir

ki, tədiyyə balansının yaxşılaşdırılması (milli valyutanın devalvasiyası ilə) ölkənin gəlirini artırır, yəni ümumiyyətlə həm kapital qoyuluşunu, həm də istehlakı artırır. Belə nəticəyə gəlmək olar ki, bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, milli gəlir çoxalarsa, o qədər də bölüşdürülməlidir. Başqa sözlə desək, ölkənin milli gəlirini azaldıb– artırmaqla tədiyyə balansını tarazlaşdıra bilər. Buradan görünür ki, milli gəlirlə idxal arasında birbaşa əlaqə vardır. Yəni milli gəlir artan zaman idxalat da artır və ya əksinə azaldıqca idxalatın həcmi azalır.

Keynsin nəzəriyyəsinin mahiyyətini aşağıdakı formada göstərmək olar :

Yekun xərclər (D) – istehsalı (S) və investisiyaları (Y) təmin etmək üçün ümumi xərclər. Yazılanlar aşağıdakı düsturda öz əksini tapır :

$$\mathbf{D = S+Y+E_x–İ_m}$$

Yuxarıdakı düsturda $İ_m$ – idxalat , $E_x$ – ixracatdır.

Yekun məhsul buraxılışı (B) – istehlak malları məcmu istehsalı və investisiya;

Milli gəlir (U) – istehsaldan əldə edilən bütün gəlirlər, yekun məhsul buraxılışı (B) ilə yekun xərcləri (D) bərabərləşdirsək, onda yuxarıdakı düstura nəzər salsaq bu düsturu almaq olar :

$$\mathbf{B = S+R+E_x–İ_m \quad \text{və ya} \quad E_x–İ_m = B-(S+Y)}$$

Yuxarıdakı (S+Y) – ümumi daxili xərclərdir.

Bu nəzriyyədən keynsçilər belə nəticə çıxarırlar ki, ümumiyyətlə, ilk sırada milli əmtəə və xidmətlərin rəqabət qabiliyyətinin artırılması ilə əlaqədar olaraq ixracı hərtərəfli stimullaşdırmaq və idxalı isə saxlamaq lazımdır.

Tədiyyə balansına monetarist yanaşma bir çox şəxslərin işlərində lazım olub və bu yanaşmadan istifadə ediblər. Bu müəlliflərdən C.Pollak və X.Consonu xüsusi ilə qeyd etmək olar vacib sayılmalıdır. Təbii ki, bu nəzəriyyədə əsas diqqət pul amilidir ki, burada əsas, ilk növbədə, tədiyyə balansı saldosunun dövlətdə pul tədavülünə təsirinə yönəlib. Monetarizm nəzəriyyəsində əsasən monetaristlər düşünürlər ki, ölkədə olan pul bazarında tarazlığının pozulmasına gətirib çıxarır.

Monetarizm yanaşma müxtəlif hüquqi və fiziki şəxslərin fəaliyyətində aşağıda qeyd olunan üç variantlar arasında olan nisbətin təmin olunmasından təşkil olunur :

a) Gəlirlər və ya ümumi məhsul ixrac arasında

Beləliklə, bu nəticəyə gəlmək olar ki, hər ikisinin statistik göstəricisi istehsal olunan məhsulun həcminə vurmaqla alınan qiymət şəklində göstərilir.

b) Puldan başqa aktivlər arasında

Bu əmtəənin miqdarına vurmaqla alınan qiymətlər şəklində göstərilir.

c) Qeyd olunan pul vəsaitinin məbləği ilə

Pul vəsaitin məbləği sonda belə göstərilir :

**M=Pa,Qa**

Monetarist yanaşmaya görə yuxarıda qeyd olunan tarazlıq pozulan zaman fiziki və hüquqi şəxslər öz pul vəsaitlərinin həcmini geri qaytarmağa, yəni bərpa etməyə səy göstərirlər. Məsələn, əgər dövlət dövriyyədə olan pul vəsaitinin miqdarını azaldarsa, nağd vəsaitlərə tələbat az olduğuna görə özəl sektorda tarazlıq pozulur. Buna görə də özəl sektorda çalışan fiziki və hüquqi şəxslər əsas vəsait alınması üçün xərclərini və cari xərclərini ixtisara salmaqla öz pul xərclərindən tarazlıq əldə etməyə çalışırlar. Beləliklə, bu nəticəyə gəlmək olar ki, dövlətdə əmtəə və əsas vəsait artıqlığı baş verir. Bazarda olan əmtəə və əsas vəsaitin qiymətləri azalır. Bu o zamana qədər davam edər ki, pul məbləğinin həcmlərində azalma pul vəsaitinin miqdarındakı səviyyə ilk azalma göstəricisinə çatsın.

Beynəlxalq monetarist yanaşmaya görə bu vəziyyəti belə izah etməyə çalışırlar ki, bazara artıq şəkildə əmtəə və əsas vəsaitlə daxil olanda onları xarici alıcılar alır. Buna görə də nə əsas vəsaitin miqdarı, nə də məhsul buraxılışı və ya qiymətləri azalmır. Əgər dövriyyədə dövlət pul buraxılışı həcmini çoxaldırsa, o zaman xarici təşkilatlar müəyyən qədər əmtəə təklifi miqdarını təmin edirlər. Dövlətdə əmtəə çatışmazlığı olanda idxal ilə ödənilir. Beləliklə, pul tələbinin idxala istiqamət etməsi tədiyyə balansı göstəricisində olan kəsirlərində aydın ifadə olunur. Xərclərin azalması ilə pulun miqdarı çatışmazlığı olduğu halda ixracat çoxalacaq və belə olduğu halda tədiyyə balansında müsbət saldo özünü biruzə verəcəkdir. Nəticədə, tədiyyə balansının müsbət və mənfi saldosu dövlət siyasətinin yeritdiyi deflyasiya və ya inflyasiya olması ilə göstərir.

Başqa sözlə desək, monetaristlər düşünürdülər ki, tədiyyə balansında tarazlığın pozulması tədavülə izafi pul vəsaiti buraxılması ilə əlaqəlidir. Belə ki, əgər izafi pulun miqdarı müəyyən həddi keçdikdə tədiyyə balansı kəsirli ola bilir. Pul vəsaiti çatışmazlığı xaricdən gələn valyutadan istifadə olunmasını genişləndirir. Xarici valyuta ölkədən xaric olunduqda və ya müəyyən qədər daxil olduqda tədiyyə balansında müsbət qalıq və ya kəsiri ləğv edilir.

Klassik və neoklassik tədiyyə balansı nəzəriyyələrindən monetarizm nəzəriyyəsinin əsas fərqi ondan ibarətdir ki, onlar tədiyyə balansına əmtəə və xidmət hərəkəti kimi baxılmır, pul–maliyyə münasibəti tərəfindən nəzərdən keçirilir. Tədiyyə balansının müvazinətinin pozulması və ya sabit halda olmasında pulun dövriyyəsi əsas əhəmiyyətli hesab edilir. Balans tarazlığın pozulması bir müddətlik, müvəqqəti hesab edilir.

Monetaristlər tədiyyə balansının tarazlaşdırılması üçün əsas diqqəti dövlət ehtiyatlarına yönəldirlər, qalan bütün maddələri nəzərə almırlar. Monetaristlərə əmtəə və xidmət satışı, kapital hərəkəti və onların balanslaşdırılması maraq cəlb etmir. Belə ki, onlar balansa aşağıdan yuxarı baxılır, yəni əmtəənin dövriyyədə olması deyil, pulun dövriyyədə olması ilə təhlil edilir.

Tədiyyə balansı dövlətlə tənzimləmə nəzəriyyəsinin keynsian, neokeynsian, monetarist yanaşma nəzəriyyələrinin əsas prinsiplərinin birləşməsi əsasında meydana gəlib. Bu nəzəriyyənin prinsipləri hələ II Dünya müharibəsi vaxtlarında dünya valyuta sisteminin islahat layihələrinə C.Keyns və Q.Uayt tərəfindən qoyulmuşdur. Bu nəzəriyyə daxilində tədiyyə balansı tarazlaşdırılmasında kollektiv mexanizmin yaradılmasına böyük diqqət yetirilir. Bu da Beynəlxalq Valyuta Fondunun nizamnaməsində qeyd olunmuşdur.

### 1.3. Tədiyyə balansının tənzimlənmə mexanizmi

Tədiyyə balansı dövlət tənzimlənməsinin obyektidir. Tədiyyə balansına dövlət tərəfindən təsirinin bir neçə metodlarını aşağıda göstərmək olar:

Birinci metod odur ki, birbaşa dövlətin nəzarəti şəklində həyata keçirilir. Buraya aiddir: gömrük və başqa yığımlar, idxalın tənzimlənməsi, xarici investisiyalar üzrə gəlirləri və xaricə pul köçürülməsinin qadağan edilməsi, əvəzsiz köməklər, qısa və uzunmüddətli kapital ixracının azaldılması və s. Belə olduğu halda, yəni birbaşa nəzarət ölkədə adətən bir çox şirkətlər üçün çətinliklər yaradır və uyğun olaraq yaxşı qarşılanmır.

Birbaşa nəzarət etmək qısamüddətli sxemdə müsbət nəticə əldə edir. Uzunmüddətli sxemdə bu nəzarətin keçirilməsi səmərəsi isə ziddiyətli hesab edilir. Ona görə ki, belə tədbirlərlə yerli istehsalçılar üçün fürsət yaradılır, belə ki, gəlirlərin xaricə köçürülməsi məhdudlaşdırıldığı üçün xarici investorların dövlətə investisiya qoymağa marağı azalmağa doğru gedir, onların cəlb edilməsinə çətinlik yaranır, yerli istehsalçılar üçün xaricdə əmtəə və xidmətlərin yönləndirilməsi və genişləndirilməsi üçün maneələr yaranır. Ancaq, ixraca yardım göstərilməsi üçün subsidiyalar verilməsi şirkətlər tərəfindən müsbət qarşılanır. Lakin, o çox bahalı olduğu üçün çox zaman dövlət büdcəsinin hansı vəziyyətində olmasından asılı olur.

Dövlət tərəfindən tədiyyə balansına təsir göstərilməsinin ikinci metodu daxili iqtisadi siyasətə yönəldilmiş, ancaq eyni vaxtda tədiyyə balansına təsir göstərən defilyasiya siyasətindən istifadə olunmasıdır. Belə ki, defilyasiya siyasətindən istifadə olunmasının nəticələri investisiya, istehsal və gəlirlərin aşağı düşməsi, idxalın ləğv olunmasına və ixracın yuxarı səviyyəyə qalxması üçün ehtiyat istehsal qabiliyyətinin

çoxalmasına gətirib çıxarır. Defilyasiya siyasətini həyata keçirərkən sadə vəziyyət olan faiz dərəcələrinin yüksəlməsi ölkədə bank–kredit şəbəkəsinin olması və siyasi riskin azalması şəraitində qısamüddətli kapitalın gəlməsinə şərait yaradır.

Lakin, digər tərəfdən yanaşsaq, görərik ki, defilyasiya siyasəti idxalı çoxaldır, ixracatı isə azaldır. Defilyasiya olan zaman milli valyuta kursu yüksəlir ki, bu halda idxalatçıları stimullaşdırır. İxracatçılar üçün isə milli valyuta kursunun yüksəlməsi ona səbəb olur ki, ixracdan olan gəlirləri milli valyutaya çevirən zaman az gəlir əldə olunur. Bu isə, nəticədə əksinə ixracatı stimullaşdıra bilməz.

Dövlət tərəfindən tədiyyə balansına təsirinin üçüncü metodu mübadilə məzənnəsində olan dəyişmələrdir. Valyuta məzənnəsinin necə olmasından asılı olmayaraq bu sistemdə mübadilə dövlət nəzarəti və təsiri altında keçirilir. Hətta üzən valyuta məzənnəsi dövründə dövlət məzənnədəki dəyişmələri müəyyən istiqamətdə yönəldir və onu müəyyən çərçivədə saxlamağa çalışır.

Mübadilə məzənnəsinin dəyişməsi sistemi dövlətə tədiyyə balansının tarazlıqda saxlamasına imkan yaradır. Amma, o anda nəzərə almaq lazımdır ki, devalvasiya və ya revalvasiyadan əldə olunan səmərə idxal və ixracın dəyişkənliyi və xarici ticarət axınlarının saxlanması ilə azalır. Buna görə də, mübadilə məzənnəsindəki dəyişikliklərlə tədiyyə balansına uzun, orta və qısamüddətli təsir şəkillərini bir–birindən fərqləndirmək əhəmiyyətli hesab olunur.

Xarici ticarət axınlarının saxlanması bəzən onunla nəticələnə bilər ki, milli valyuta məzənnəsi aşağı səviyyədə olandan sonra əvvəlki aylarda ticarət balansının vəziyyəti dəyişmir və hətta pisləşməyə doğru gedir. Ona görə ki, idxalatçılara müqaviləri azaltmaq, ixracatçıları isə ixracı yüksətmək üçün zaman lazım olur. Çünki, xarici ticarət axınları əvvəldə bağlanmış müqavilələrlə aparılır, idxal və ixracın dollar ilə dəyəri aşağı düşmür. Lakin dövlətdə milli əmtəələrin dəyəri valyuta ilə əvvəlki vəziyyətdə qalır, idxal olunan malların isə dəyəri yüksəlir. Beləliklə zaman keçdikdən sonra ticarət balansının vəziyyəti dəyişir, yəni idxalat aşağı düşür, ixracat isə artır.

Mübadilə məzənnəsindəki dəyişikliklər kapitalın hərəkətinə müxtəlif cür təsir edir. Ölkəyə uzunmüddətli kapitalın cəlb edilməsi hərtərəfli məqsədlərlə aydınlaşdırılır. Buna görə də məzənnədəki olan dəyişmələr ona təsir edir. Sərbəst çevrilə bilən valyuta ilə qısamüddətli kapitalın daxil olması isə yüksək əhəmiyyətli hesab edilir, çünki bu zaman mübadilə məzənnəsindəki dəyişmələrdən istifadə etmək olur. Belə ki, revalvasiyadan əvvəl ölkəyə daxil olan qısamüddətli kapitalın miqdarı çoxalır, ondan sonra isə tərsinə, kapital ixracı yüksəlir.

Tədiyyə balansı formal şəkildə tarazlıqda olmalıdır. Əgər ödənişlər əsas vəsaitlər üzrə daxil olmalardan çoxdursa, o zaman sahibkarlıq kapitalı və xarici borclar hesabına kəsirli olmasını ləğv etmək olar. Bu halı müvəqqəti hesab etmək olar. Balansın passiv əməliyyatının yerinə yetirilməsi qaydası razılaşma üzrə qısamüddətli kreditlərdir. Bu əməliyyat baş verən zaman mərkəzi banklar qarşılıqlı olaraq bir–birinə milli valyuta ilə kreditlər verir.

Tədiyyə balansının kəsirin müvəqqəti halı zaman onun ödənməsi üçün Beynəlxalq Valyuta Fond şərtsiz olaraq ehtiyat kredit verir. Bu kreditin məbləği çox da yüksək deyil və dövlətlər arasında onların üzvlük haqqının 25 %-i həcmində bölüşdürülür. Tədiyyə balansı ölkənin milli iqtisadiyyatının dünya təsərrüfatında iştirakı haqqında kifayət qədər informasiya toplamağa imkan verir. Belə dediyimiz halda tədiyyə balansına əsasən aşağıdakıları qey edə bilərik :

- dövlət və bazar tənzimlənməsi nəticəsində milli iqtisadiyyatın vəziyyətində dəyişmələr
- kapital , əmtəə və xidmət idxalı və ixracı vəziyyətini müəyyən edən iqtisadi strukturu
- inflyasiya, beynəlxalq rəqabət qabiliyyətliliyi, valyuta məzənnəsində olan dəyişmələr və s.

Ölkənin tədiyyə balansına müxtəlif bir çox sayda amillər təsir edir ki, onları da aşağıda göstərmək olar :

**1.** Xarici ölkədə dövlət xərclərinin artması – ölkədən xaricdə müxtəlif siyasi və iqtisadi məqsədlər üçün yaranan dövlət xərcləri ölkənin iqtisadiyyatının əsasını təşkil edir və bu da dövlət üçün çox ağır yükdür. Belə xərclərin tədiyyə balansına təsiri iqtisadi artım vəziyyətinə təsiri, istehsal şərtlərinə, həmçinin milli iqtisadiyyatın ixrac sahələrində çoxlu resursların çıxarılması ilə öyrənilir.

**2.** İqtisadiyyatın dövrü tərəddüdləri – tədiyyə balansında ölkənin milli iqtisadiyyatının tərəddüdləri, düşüş və yüksəlişləri öz əksinə tapır, ona görə ki, xaricdə keçirilən iqtisadi əməliyyatların nəticəsi milli iqtisadiyyatın səviyyəsindən birbaşa asılı vəziyyətdədir. Məsələn, iqtisadi hərəkətin zəifləməsi əmtəələrin idxalı azalmağa doğru gedir, istehsal həcminin artması isə xammalın, enerji daşıyıcılar və avadanlığın idxalını artırır. Milli iqtisadiyyatın aşağı səviyyədə inkişafı zamanı əsasən kapital ixracatı yüksəlir. Əksinə, iqtisadiyyat sürətlə inkişaf etdikdə isə faiz dərəcələri artır, gəlirlər yüksəlir və bununla da kapital ixracı azalır.

**3.** Qloballaşan dünya iqtisadiyyatında struktur dəyişikliklər. Müasir şəraitdə dünyada ÜDM 25 % -ni innovasiya ticarət fəaliyyəti təşkil edir. Yüksək texnologiyalı məhsullara internet vasitəsi ilə elektron ticarət daha geniş və intensiv istifadə olunur.

**4.** İnflyasiya. Ölkənin tədiyyə balansına mənfi təsir göstərən iqtisadi vəziyyətlərdən biri də inflasiyadır. İnflyasiya daxili qiymətlərin artması milli əmtəələrin rəqabətini aşağı salır, malların ixracını çətin vəziyyətə salır, idxalı isə stimullaşdırır, beləliklə, ölkədən kapitalların xaricə qaçmasına səbəb olur.

**5.** Dünya iqtisadiyyatının qloballaşması. Tədiyyə balansına təsərrüfat əlaqələrinin beynəlmilləşdirilməsinin artması dünya ticarətinin həcminin artımı ilə əlaqədar təsir göstərir.

**6.** Dünya bazarında TMK rolunun artması. Transmilli Şirkətlərin dünya malları, xidmətlər və kapital bazarlarında əməliyyatlarının həcminin artması tədiyyə balansı vəziyyətinə təsir göstərir.

**7.** Tədiyyə balansına valyuta–maliyyə amillərinin təsiri – adətən, devalvasiya ixracı genişləndirir, idxalı əngəlləyir, revalvasiya isə digər bərabər şəraitdə idxalı stimullaşdırır.

**8.** Təmərküzləşmə - dünya iqtisadiyyatında bir neçə mərkəzləşmənin mövcud olması və bu dünya iqtisadi və maliyyə mərkəzlərinin vaxtaşırı qüvvələrinin nisbətinin dəyişməsi tədiyyə balansına öz təsirini göstərir.

**9.** Maliyyə qloballaşması – tədiyyə balansı strukturunda özünü göstərir. “Kapitalın hərəkəti və maliyyə əməliyyatları” hesabının mahiyyəti son zamanlar çox artıb, bu da beynəlxalq əlaqələri münasibətlərin genişlənməsi ilə əlaqədardır. Bu dünya maliyyə axınlarının, xüsusən də saxta kapitalın böyüməsi ilə əlaqələndirilir.

Tədiyyə balansı kapitalın ölkədən “qaçması” mənfi təsir göstərir. Kapitalın “qaçmasının” əsas səbəbləri – ölkədə iqtisadi və siyasi qeyri–sabitlik, inflyasiya, milli valyutaya inamsızlıq, səmərəsiz iqtisadi siyasət, böhran sarsıntıları, müxtəlif risklərin artması, yüksək vergilər.

Kapitalın ölkədən “qaçmasının” aşağıdakı formaları göstərilir:

1. Qeyri–leqal (saxta müqavilə üzrə avans ödənişlər və s. kapitalın və malların qaçaqmalçılıq yolu ilə daşınması)

2. Açıq kanallar üzrə - müəssisələrin xarici aktivlərinin artması, xaricdə əmlakın alınması

3. Çirkli və ya kriminal pulların yuyulması

4.Milli valyutadan xarici valyutaya kapitalın daxili qaçışı – dollarlaşma və avrolaşma formasında

Kapitalın qaçışının həcmini qiymətləndirmək çətindir. Dünya təcrübəsində aşağıdakı üsullardan istifadə olunur:

1. Ümumi üsul – xarici aktivlərin artmasının və “səvhlər və buraxılmışlar” maddəsinin cəminə bərabərdir (burada rəsmi ehtiyyatların aktivləri hesablanmır).

2. Özəl sektorun borcu üzrə - xarici borclanmanın artması (bank və qeyri–bank köçürmələrinə görə) və “səvhlər və buraxılmışlar” maddəsinə görə.

3. Dərin təhlil metoduna görə - qeyri–bank olan özəl səhənin qısamüddətli köçürmələri və “səvhlər və buraxılmışlar” maddəsi.

4. Dolayı üsul – vergitutma üçün deklarasiya olunmayan xarici aktivlərin payı . BVF statistik hesablamalarına əsasən dolayı üsulla kapitalın ölkədən çıxmasının və 2/3 kapitalın qaçışı kimi qiymətləndirilə bilər.

Kapitalın ölkədən qaçması qlobal bir haldır və vaxtaşırı gah bir, gah digər ölkələri əhatə edir. O ölkənin iqtisadi, xüsusən maliyyə və investisiya potensialını pozur. Xüsusən də milli təhlükəsizliyə mənfi təsir göstərir.

Xarici kapitalın ölkəyə axını idxalçı ölkələnin tədiyyə balansına ikili təsir göstərir: əvvəlcə ölkəyə daxilolmalar artır, lakin ödənişlərin vaxtı çatanda borclu ölkələr borcun məbləğini, faiz və dividentlər ilə ödəməlidirlər. Xarici kapitallar səmərəli istifadə olunması şərti ilə tədiyyə balansına müsbət təsir göstərir. Onlar borclu ölkənin idxal mallarının azalmasına təsir göstərə bilər. Məsələn, bir çox məhsul növlərini, hansını ki, əvvəllər Qərbi Avropa ölkələri ABŞ –dan idxal edirdilər (maşın, avadanlıq, elektrik məişət cihazları), hal – hazırda bu ölkələrdə Amerika müəssilərində istehsal olunur.

Birbaşa investisiyaların idxalçı ölkənin tədiyyə balansına mənfi təsiri ölkədən çıxarılan gəlirlərin məbləğinin ölkəyə yeni kapital qoyuluşların axınından gələn məbləğdən çox olduqda özünü göstərir. Portfet investisiyaların tədiyyə balansına mənfi nəticələri onların repatriasiyası ilə (latın sözü: vətənə qayıdış) bağlıdır. Yəni, öz vətənlərində daha əlverişli investisiya şəraiti yaradılmışdır.

**10.** Fövqəladə hallar. Təbii fəlakətlər, quraqlıq və s. bunun kimi fövqəladə hallar baş verdikdə tədiyyə balansına öz mənfi təsirini göstərir.

**11.** Liberalizmin və proteksionizmin tədiyyə balansına təsiri – ÜTT üzv olan 156 ölkənin iqtisadiyyatının açıqlıq səviyyəsinin artması, idxal rüsumlarının azalması dünya əmtəə ixracının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Kapitalın beynəlxalq hərəkətinin liberallaşması tədiyyə balansı strukturunda bu maddənin üstünlüyünə gətirib çıxarmışdır. Liberallaşma – sərt məhdudiyyətlərdən, dövlət tənzimlənməsindən və nəzarətindən azad olma deməkdir.

Tədiyyə balansının kəsirinin azaldılmasına yönəlmiş proteksionist tədbirlər dünyada maraqların münaqişəsini doğurur. Proteksionist tədbirlər (valyuta

məhdudiyyətləri) – idxal mallarının idxalına tələblərin sərtləşdirilməsi və idxala vergilərin artırılması və yerli malların rəqabət qabiliyyətinin artırılması ilə ixrac vergilərinin azaldılması anlaşılır.

Beynəlxalq statistik göstəricilər göstərir ki, dünya ölkələrində tədiyyə balansları hər zaman qeyri tarazlıq halında olur, yəni cari əməliyyatlar üzrə saldo əsasən sıfır şəklində göstərilmir, çünki ümumilikdə tədiyyə balansı və saldo kapitalın hərəkəti ilə dövlətin keçirdiyi balanslaşdırıcı tədbirlər və ehtiyatda olan dəyişmələrlə tənzimləndirilir.

Cari əməliyyatlar balansında olan sabit müsbət saldo milli valyutanın dəyərini gücləndirir və eyni vaxtda, kapitalın ixracı üçün maliyyə bazası yaradır. Balansda olan sabit mənfi saldo isə milli valyutanın dəyərini aşağı salır və ölkəni əsasən xarici kapitalı cəlb etməyə yönəldir. Əgər hər hansı ölkəyə kapitalın gəlməsi uzunmüddətli investisiya vasitəsilə deyil, özəl bank və dövlətlərin borclanması və xüsusən də xarici öhdəliklərin artmasına görə həyata keçirilirsə, o zaman bu dövlətin xarici borcunun və onların ödənişlərinin kəskin sürətdə artmasına gətirib çıxarır. Nəticədə ölkə əsasən kredit hesabına öz siyasətini yürüdür.

Cari əməliyyatlar balansı üzrə saldonun çoxlu tərəddüdlər ölkə üçün əlverişli sayılmayan nəticələr yaradır. Belə olduqda müsbət saldonun daha çox artması pul kütləsinin həcminin sürətlə artmasına şərati yaradır və beləliklə, bunun nəticəsində inflyasiyanı stimullaşdırır. Mənfi saldonun daha çox artması isə mübadilə məzənnəsinin daha çox aşağı salması ilə nəticələnir və bununla da ölkənin xarici iqisadiyyatında təşfişə yol açılır. Ona görə də, tədiyyə balansdan danışarkən əvvəlcə onun cari tədiyyə balansının kəsiri və artıqlığı, yəni onun saldosuna güclü diqqət yetirmək lazımdır.

Tədiyyə balansının tənzimlənməsinin iki metodu vardır: müvəqqəti və qəti. Müvəqqəti metodlara: beynəlxalq təşkilatlardan alınan kreditlərdən istifadəsi, svop kreditlər, investisiyalar aiddir. Tədiyyə balansı kəsirli sayılan zaman və onun ödənməsinin müvəqqəti metodlarından biri güzəştli kreditlərdir. Tədiyyə balansı tənzimlənməsinin qəti metodu rəsmi qızıl–valyuta ehtiyatlarının istifadəsidir.

Yuxarıda qeyd etdiyimiz kimi, tədiyyə balansını əsasən dövlət tərəfindən tənzimlənir. Bunun aşağıdakı səbəblərini göstərmək olar:

- qeyri–tarazlığın tədiyyə balansında xroniki olaraq müşahidə edilməsi ;
- qızıl standartının məhdudlaşdırılmasından sonra qiymətlərinin tarazlığının pozulması;

Tədiyyə balansı tarazlaşdırılmasının maliyyə baxımından əsasını aşağıdakılar təşkil edir:

- dövlətin mülkiyyətində olan ehtiyatlar , o cümlədən rəsmi qızıl – valyuta ehtiyatı (ABŞ dolları, avro və yapon iyenası ) ;
- dövlət büdcəsi ilə bölüşdürülən milli gəlirin həcminin artması ;
- nəzarət orqanları və normativ sənədlər ilə xarici iqtisadi əməliyyatlarının keçirilməsi;
- kreditor, kapital ixracatçısı, borcverən və zəmanət kimi dövlətin beynəlxalq iqtisadiyyatda iştirak etməsi;

Tədiyyə balansı kəsirli olan zaman dövlətlər idxalın məhdudlaşdırılması ixracın təşviq edilməsi, kapital ixracın ləğv edilməsi, xarici kapital cəlb edilməsi məqsədilə aşağıdakı siyasətləri həyata keçirirlər :

- valyuta məhdudiyyətləri
- maliyyə və pul – kredit siyasəti
- deflyasiya siyasəti
- dövlət tərəfindən xüsusi tədbirlərin keçirilməsi siyasəti

Valyuta məhdudiyyəti deyərkən, əmtəənin ixracından əldə olunan valyuta həcminin məhdudiyyəti və Mərkəzi Bankın valyuta əməliyyatlarının yığılması ilə kapital ixracının ləğv edilməsi, onun dövlətə axının təşviq edilməsi və əmtəə idxalına müəyyən sərhəd qoyulması kimi anlamaq olar. Ölkənin valyuta siyasətinin bir forması olan valyuta məhdudiyyətləri, milli valyutanın qorunması vacib olması ilə bağlı keçirilən valyuta əməliyyatlarının sərhədlər və şərtlərin ümumi xarakteristikasıdır. Onlar valyuta dəyərləri ilə həm ümumi sərəncam imkanını , həm də onların istifadəsinin konkret istiqamətlərini əhatələyir. Beləliklə, valyuta məhdudiyyətləri – qeyri–rezidentlər və rezidentlər arasında valyuta və valyuta dəyərləri ilə keçirilən əməliyyatların qanunverici və ya inzibati qadağan, nizama və limitləmə salmasıdır. Valyuta məhdudiyyətləri proteksionizm və ayrı–seçkilik xarakter daşıyır. Tədiyyə balansı kəsirinin aradan qaldırılması üçün maliyyə və pul–kredit siyasətinə aşağıdakıları aid etmək olar:

- idxaldan olan gömrüyün yüksəldilməsi ;
- əmtəəni ixrac edən müəssisələrə büdcədən maliyyə dəstəyi ;
- qiymətli kağızların xaricilərə ödənilən faizlərə verginin məhdudlaşdırılması və belə olduğu halda ölkəyə xarici kapitalın cəlb olunmasını stimullaşdırır.

Deflyasiya siyasəti isə qiymətlərin və əmək haqqının sabit saxlanılması, daxili tələbin azaldılması, mülkiyyətə görə büdcə xərclərinin ləğv edilməsinə yönəlmişdir. Deflyasiya siyasətinin məqsədlərini aşağıda qeyd etmək olar:

- kredit məhdudiyyəti ;
- Mərkəzi Bankın uçot faiz dərəcələrinin dəyişdirilməsi ;

- pul kütləsinin həcminin artmasına müəyyən sərhəd qoyulması

Deflyasiya siyasəti əmtəə idxalının saxlanması və ixracın stimullaşdırılılması üçün milli valyuta kursunun aşağı salınması deməkdir. Amma, tədiyyə balansı tənzimlənməsində devalvasiyanın olması birmənalı qarşılanmır, ümumi maliyyə və iqtisadiyyatdan asılı hesab etmək olunur. Tədiyyə balansı kəsirini aradan qaldırmaq üçün istifadə edilən devalvasiya siyasəti müvəqqəti metod hesab olunur. Bunun mənfi cəhətləri hesab edilən aşağıdakı nəticələri vardır:

- xarici bazarda rəqabət qabiliyyəti imkanlarının azalması. Devalvasiya dərəcəsinin müəyyən edilməsi əhəmiyyətli sayılır.
- daxili malların istehsal məsrəflərinin yüksəldilməsi.

Devalvasiya dərəcəsinin göstərilməsi mühüm hesab edilir. Bu dərəcəni qazanmaq üçün bir çox dövlətlər valyuta məzənnəsinin dəyişdirilməsi rejimi tədbiq olunur. Bu isə, öz növbəsində, ixrac və idxal əmtəələrin qiymətlərinin dəyişməsinə mənfi təsirini aşağı salır.

Tədiyyə balansının əsas vəsaitlərinin formalaşmasında dövlətin xüsusi tədbirləri görülür. Bunları aşağıda belə qeyd edə bilərik :

a) görünməz əməliyyatlar üzrə vəsaitlərin daxilolmaları və ödənişlərin tarazlaşdırılması zamanı aşağıdakı göstərilən tədbirlər görülür :

- xarici turistlərin ölkəyə cəlb edilməsi üçün turizmin inkişafında dövlətin dolayı və birbaşa iştirak etməsi ;
- xarici turistlərin ölkədən valyuta aparılmasına müəyyən sərhəd şəklində məhdudiyyət qoyulması ;
- lisenziya (xüsusi razılıq), patent və s. daxil olan vəsaitlərin artırılması məqsədi ilə elmi–tədqiqata aid dövlət xərclərinin artırılması
- xaricdən gələn fəhlələrə pul transfertlərini aşağı salmaq üçün ölkəyə gələn işçi qüvvəsinə məhdudiyyət qoyulması .

b) ticarət balansı tənzimləmə zamanı əsas obyekti hesab edildiyindən, ixracın artırılması, yəni onun stimullaşdırılması üçün qiymətlərə müəyyən təsir edilir. Belə ki, ixracatçılar maliyyə vəsaiti köməyi göstərilir, kredit və vergi güzəştləri edilir. Dövlət tənzimlənməsi zamanı ixrac olunan əmtəənin hərəkətinin bütün sistemi əhatə edir.

c) kapital hərəkətinin tarazlaşdırılması bir yandan milli inhisarların xarici iqtisadiyyatda stimullaşdırılması, o biri yandan isə xarici kapitalın təşviq edilməsi və milli kapitalın ölkəyə geri döndürülməsi yolu tədiyyə balansının tənzimlənməsinə yönəldilmişdir. Belə olan zaman dövlət investisiyalar üçün kommersiya sığortasına

zəmanət verir. Tədiyyə balansının aktiv saldosu olduqda ölkə digər ölkədən vəsait tələb etmək ixtiyarına malikdir. Aktiv saldo olduğunda, bu o deməkdir ki, ölkə istehsal etdiyindən daha az istehlak edir. Aktiv saldo müəyyən sərhəddən çox yüksək olduqda, bu istiqamətdə müvafiq xüsusi tədbirlər görülür.

Təsərrüfat əlaqələrinin genişlənməsi nəticəsində tədiyyə balansının beynəlxalq tənzimləməsi əhəmiyyətli şəkildə hesab edən milli valyuta kursunun yüksəldilməsidir və yaxud qızıl ehtiyatının artırılmasıdır. Belə ki, hal hazırda ölkə iqtisadiyyatı xaricdən gələn müxtəlif təsirlərə daha çox məruz qalır. Tədiyyə balansı beynəlxalq tənzimlənməsinə aşağıdakıları aid etmək olar :

- mərkəzi banklar arasında qarşılıqlı olaraq qısamüddətli kreditlərin bir–birinə verilməsi ;
- cəlb olunan kreditlər və ixracın şərtlərinin razı olunması ;
- maliyyə müəssisələrinin kreditləri və beynəlxalq valyuta–kreditindən istifadə edilməsi;

C.M.Keyns bazarın avtomatik tənzimlənməsini yararsız hesab edərkən dövlət tərəfindən tədiyyə balansının tənzimlənməsinin önəmli olduğunu məsləhət görür. C.M.Keyns tədiyyə balansının müvazinətdə olması problemini dövlətin əsas iqtisadi məsələlərindən hesab edir. Belə ki, bu tənzimləmə iqtisadi məşğulluq və inkişafın təminatına doğru yönəlmişdir. Nəticədə, həmin məqsədlə məsrəflərin səviyyəsi tənzimlənməli və normal vəziyyətdə saxlanılmalıdır.

Tədiyyə balansının tənzimlənməsinin monetarist yanaşmaya əsasən balansda olan qeyri–tarazlığı pul vəsaitlərindəki kənarlaşmalarla əlaqədardır. Bu isə təklif və tələb arasında tənzimləməyə əngəl törədə bilir və daxili qiymətlərin strukturunu dəyişdirir.

Sənaye siyasətinin yüksək inkişaf etmiş ölkələrin tədiyyə balansların özünəməxsus xüsusiyyəti onda ibarətdir ki, burada xaricə göndərilən kreditlərdən, xarici investisiyalardan və xidmətlərdən daxil onların həcmi çoxdur. Belə ölkələrin valyuta məsrəfləri də böyük həcmə malikdir ki, bu da xaricə borc vermək, kapitalın ixracı və s. ilə əlaqəlidir. Belə ki, sənayesi yüksək inkişaf etmiş ölkələrin xaricə göndərilən dövlət məsrəfləri, xaricdən daxil olan gəlirlərdən yüksək ola bilir. Bu əsasən rəqabət qabiliyyətinin yüksək olması, bazar uğrunda aparılan rəqabət tədbirlərinin nəticəsi hesab olunur.

# II FƏSİL. BEYNƏLXALQ LİKVİDLİK

## 2.1. Beynəlxalq likvidliyin mahiyyəti və iqtisadi məzmunu

Beynəlxalq likvidliyin mahiyyəti ölkə və yaxud da ölkə qruplarının özlərinin qısamüddətli xarici öhdəliklərinin yolverilən ödəmə vasitələrilə təmin etmək imkanlarından ibarətdir. Beynəlxalq likvidlik beynəlxalq valyuta sisteminin resurslarla təmin olunması ilə əlaqədar meydana gəlir. Beynəlxalq ehtiyatlar beynəlxalq valyuta sisteminin normal fəaliyyət göstərməsi üçün zəruri amildir. Beynəlxalq likvidlik müxtəlif ölkələrin və yaxud regionların xarici ödəməqabiliyyətliliyinin vəziyyətini özündə cəmləşdirir. Xarici likvidliyin əsası ölkənin qızıl–valyuta ehtiyatlarından ibarətdir. Beynəlxalq likvidliyin strukturu aşağıdakı komponentlərdən ibarətdir:

1) dövlətin rəsmi valyuta resursları;

2) rəsmi qızıl resursları;

3) BVF-də ehtiyyat;

Beynəlxalq likvidliyin aşağıdakı üç funksiyası vardır:

1) likvid ehtiyatların formalaşdırılmasının ümumi vasitəsi;

2) beynəlxalq ödəniş vasitəsi;

3) valyuta müdaxilə vasitəsi.

Azərbaycan Respublikasının rəsmi valyuta ehtiyatı illər üzrə statistik göstəricilər

| Rəsmi ehtiyatlar(il) | 2014 | 2015 | 2016 |
|---|---|---|---|
| **Valyuta** | 13758.3 mln ABŞ d. | 5016,7 mln ABŞ d. | 3974,4 mln ABŞ d. |

Cədvəl müəllif tərəfindən tərtib olunub

Ümumilikdə isə Azərbaycanın strateji valyuta ehtiyatlarına həmçinin, qızıl ehtiyatı da daxildir.

Beynəlxalq likvidliyin əsas hissəsi rəsmi qızıl ehtiyatları, yəni mərkəzi bank və maliyyə orqanlarının qızıl və xarici valyuta ehtiyatlarından ibarətdir.

Qızıl–valyuta resurslarına standart külçə formasında olan qızıl resursu, eləcə də sərbəst dönərli valyutada yüksək səviyyəli likvidlik xarici aktiv aiddir. Bundan başqa, qızıl–valyuta resurslarına qiymətli metal növləri aid oluna bilər. Bu o zaman baş verir ki, onlardan beynəlxalq əməliyyatlar zamanı istifadə edilir və onların girov qoyulması ilə valyuta alınarkən mümkün olur. Yüksək likvidli vəsaitlər minimum riskə malik yüksək etibarlılıq səviyyəsi olan təşkilatlar, yəni beynəlxalq təsnifləşdirməyə uyğun olaraq yüksək etibarlılığa malik qurumlarda yerləşdirilir.

Qızılın beynəlxalq valyuta likvidliyində xüsusi yeri vardır. Ondan dünya üzrə ümumi öhdəliklərin yerinə yetirilməsi məqsədilə fövqəladə vasitə olaraq istifadə olunur.

Belə hallarda qızıl ya bazarlarda satılır və zəruri xarici valyuta əldə olunur, yaxud xarici borcun alınanda kreditora girov olaraq verilir. Müasir dövrdə beynəlxalq likvid aktivlərin strukturunda valyuta elementinin funksiyasının artması sabit bir istiqamət kimi nəzərdən qaçmır.

Qızıl ehtiyatlarının təməl hissəsi (80%-ə qədər) sənayesi inkişaf etmiş ölkələrin payındadır. Ehtiyatların denominasiyası müəyyən edilən zaman mərkəzi banklar aşağıdakı qanunu əsas götürür: valyuta ehtiyatları milli valyutaya nəzərən ehtiyat rolunu oynaya biləcək başqa xarici valyutada saxlamaq lazımdır. Borcu olan ölkənin likvidlik mövqeyi aşağıda göstərilən göstərici vasitəsilə xarakterizə edilir:

$$\mathbf{LM} = \frac{VH}{BH}$$

Burada LM – ölkənin likvidliyinin mövqeyi, VH – qızıl-valyuta resurslarının ümumi həcmi, BH – borcun ümumi həcmidir. Ölkənin öz ehtiyatları şərtsiz olaraq likvidliyin formalaşmasının əsasıdır. Bu ünsürdən mərkəzi banklar heç bir məhdudluq yaradan amil olmadan istifadə edirlər. Borc ehtiyatları isə şərti likvidliyin əsasını təşkil edir. Buraya xarici mərkəzi, özəl bankların, eləcə də BVF– nin ayırdığı kreditlər daxil edilir. Borc ehtiyatlarından istifadə kreditorun hər hansı tələblərinin yerinə yetirilməsi ilə əlaqədardır.

Balans müəyyən bir fəaliyyətin tərəfləri arasındakı müvazinətin formalaşdırılması və yaxud münasibətlərin kəmiyyətlə ifadə olunmasıdır. Bu tərəflər bir–birilərini tarazlaşdırmalıdır. Ölkələrin beynəlxalq təsərrüfatın digər ölkələri ilə bütün mövcud qarşılıqlı əlaqələri beynəlxalq hesabların fərqli balanslarında göstərilir. Belə balanslar ölkənin inkişafı və onun maliyyəsinin vəziyyəti barəsində statistik hesabatın təkmil formalarıdır. Beynəlxalq hesab balansları bir ölkənin digər ölkələrlə münasibətdə pula olan tələbləri və öhdəlikləri, gəlirləri və ödəmələrini özündə əks etdirən hesabat formasıdır. Belə balansların tərtib edilməsi zamanı önə sürülən ümumi tələblərə aşağıdakılar aiddir:

- aqreqat xarakterə malik olması, yəni iqtisadi göstəricilərin əsasında tərtib olunması;
- beynəlxalq tələblər və öhdəliklərin məcmu xalis saldosunun nəzərə alınması;
- hər hansı zaman kəsiyi göstəricilərinin nəzərə alınması.

Beynəlxalq təcrübədə beynəlxalq hesab balanslarının 3 forması fərqləndirilir:

1) hesablaşmalar balansı;

2) xarici borclanma balansı;

3) tədiyyə balansı.

Hesablaşma balansında hər hansı ölkənin digər ölkələrin qarşısında tələblərinin və öhdəliklərinin nisbəti barəsində hesabat əksini tapmaqdadır. Belə anlarda ödəmələrin daxilolma müddətindən asılı olmayaraq örtülmüş və örtülməmiş ödəmələr balansa daxil olunur. Hər hansı bir dövr üçün və hər hansı bir tarix üçün hesab balansı fərqli olur. Birinci halda balansda müəyyən dövrdə yaranmış tələblərin və öhdəliklərin nisbəti göstərilir. İkinci halda hər hansı tarixə, məsələn 2016-cı ilin əvvəlinə dövlətin netto-borclu və yaxud da netto–kreditor olması müəyyənləşdirilir və balansda onun tələb və öhdəliklərinin hansı əsas maddələrdən ibarət olduğu öz əksini tapır. Hesablaşma balansı əmtəələrin və xidmətlərin ixracını və idxalını, alınmış və təqdim edilmiş borc və investisiyaları tərkibinə daxil edir. Bu balansın saldosu dövlətin beynəlxalq hesabının mövqeyini göstərir:

- əgər saldo müsbətdədirsə, onda dövlət netto-kreditor hesab olunur və gələcəkdə o, valyuta formasında gəlirlər əldə edir;
- əgər saldo passivdədirsə, onda dövlət netto-borclu hesab olunur və gələcəkdə o, valyuta formasında ödəmələr etməlidir.

Beynəlxalq borclanma balansı dünya praktikasında geniş istifadə olunur və hesab balansından bəzi maddələrinə görə müxtəliflik göstərir. Belə ki, ölkənin valyuta ehtiyatları, xaricdə yerləşmiş xalis aktivləri adı çəkilən balansa daxil olunur. Tədiyyə balansının tərkibində ölkənin xarici iqtisadi münasibətlərinin miqyasının, struktur və xarakterinin kəmiyyət, keyfiyyət göstəriciləri öz əksini tapmaqdadır. Tədiyyə və hesab balansları bəzi əhəmiyyətli fərqliliklərə malikdir:

1) tədiyyə balansında təkcə həyata keçirilən gəlir və ödəmə əməliyyatları əksini tapır, hesab balansında gələcək dövrdə həyata keçiriləcək əməliyyatlar da əksini tapmaqdadır ;

2) tədiyyə balansına yalnız real həyata keçirilən (alınan və ya verilən) kredit və investisiyalar, hesab balansına isə faktiki şəkildə həyata keçirilməmişlər daxil olunur;

3) tədiyyə balansına yalnız ödənilən əmtəə və xidmətin ixracı və idxalı daxil edilir, hesab balansına isə öz növbəsində xarici ticarət müqavilələrinin ödənilməmiş hissəsi də daxil olunur.

Beləliklə, tədiyyə və hesab balanslarının saldoları uzlaşmır.

## 2.2. Beynəlxalq likvidlik tədiyyə balansının tənzimlənməsinin əsas aləti qismində

Tədiyyə balansı ölkənin xarici ölkələrlə qarşılıqlı münasibətlərini xarakterizə edən ümumi göstəriciləri özündə əks etdirir. Tarixi olaraq tədiyyə balansı ticarət balansı şəklində hələ orta əsrlərdə formalaşmışdır.

Beynəlxalq Valyuta Fondunun verdiyi izahata görə, tədiyyə balansı müəyyən dövrə görə statistik hesabatdır və aşağıdakıları özündə əks etdirir:

a) müəyyən bir ölkənin yerdə qalan ölkələrlə həyata keçirdiyi əməliyyatlar;

b) ölkənin monetar qızıl, xüsusi borcalma hüququ (SDR), eləcə də geridə qalan ölkələrə münasibətdə maliyyə tələb və öhdəlikləri üzrə mülkiyyət hüququ prinsipinin dəyişikliyə uğraması və başqa dəyişikliklər;

c) qarşılıqlı şəkildə örtülməmiş əməliyyat və dəyişikliklərin uçot nöqteyi-nəzərindən balanslaşdırılması məqsədilə zəruri olan birtərəfli köçürmə və kompensasiyaedici qeyd.

Tədiyyə balansının tərtibinin əsasında iki prinsip durmaqdadır:

1) hər hansı dövr üçün (ay, rüb, il) ölkənin daxili və xarici iqtisadi əməliyyatlarının əks etdirilməsi;

2) əməliyyatların ikitərəfli uçot yazışı;

Nəticədə bəzi maddələr üzrə disbalans başqa maddələrlə müvazinətləşdirilir.

Tədiyyə balansının tərtib olunmasında nümunə kimi Beynəlxalq Valyuta Fondu tərəfindən dərc edilən sxemdən istifadə olunur. Tədiyyə balansının tərtib edilməsinin tam sxemi 112 maddədən ibarətdir. Ümumiləşdirilmiş sxem bu maddələrin 7 blok üzrə cəmləşməsindən ibarətdir.

Unutmaq lazım deyildir ki, tədiyyə balansında ixracat və idxalat FOB şərti ilə qiymətləndirilir. Beynəlxalq ticarətin statistikasında isə idxalat ənənəvi olaraq CIF şərti ilə (sığorta və nəqliyat xərcləri nəzərə almaqla) qiymətləndirilir. “Digər əmtəə, xidmət və gəlirlər” maddəsinin tərkibinə aşağıdakılar daxildir:

a) xidmətin idxal-ixracdan fərqləndirilməsi ağır olan əmtəələrin idxal-ixracı;

b) ən fərqli xidmətlər:  yük, sərnişin və başqa daşınmalar; dünya turizmi; telekommunikasiya xidməti; maliyyə, təhsil, işgüzar, texniki və b. xidmət növləri;

c) mülkiyyətin hüququndan istifadə edilməsinə görə gəlir və xərclər;

d) xaricə özəl və dövlətin investisiya qoyuluşundan əldə olunan gəlir və ölkəyə xarici investisiya qoyuluşlarından əldə olunan analoji gəlirlər;

e) ölkənin xaricdə siyasi və inzibati funksiyaları ilə bağlı olan əməliyyatlar (hərbi baza və beynəlxalq qurumlarda iştirak və s.)

“Fərdi birtərəfli köçürmələr” və “Dövlət birtərəfli köçürmələri” maddələri transfertlər adlı əməliyyatları əhatə etməkdədir:

a) köçkün, xarici işçi və başqalarının pul köçürmələri;

b) əvəzsiz hökumət yardımları (hədiyyələr).

Hökumət iqtisadi fəaliyyət üzərində vergiqoyma yolu ilə likvidliyi artırma yönündə işlər həyata keçirə bilər. Hökumətlərin vergi qoyma yolu ilə iqtisadi fəaliyyətlərə müdaxiləsi maliyyə azadlığını azaldır. Maliyyə azadlığı sahəsində həm insanların üzərindəki dolayı və birbaşa vergi yükü, həm də ümumi vergi gəlirlərinin ümumi daxili məhsula nisbəti nəzərə alınır. Hesablamada fiziki şəxslərin tabe olduğu ən yüksək vergi nisbəti, müəssisələrin tabe olduğu ən yüksək vergi nisbəti və ümumi vergi gəlirlərinin ümumi daxili məhsula nisbətindən də istifadə edilir. Hökumətlərin tətbiq etmiş olduqları siyasətlər və bununla bərabər gələn hədsiz öhdəliklər iqtisadiyyat üzərində, dövlət xərcləri və dövlət gəlirləri yaradılması baxımından əhəmiyyətli bir məqamdır. Dövlət maraqlarının ağırlıqlı olduğu bir iqtisadiyyat yüksək xərc potensialı ilə qısa dövrdə sürətli inkişafı təmin edə bilər. Ancaq bu vəziyyət, ictimai sərbəstliyin azalması və təcridetmənin təsiri ilə ölkənin böyümə potensialı üzərində uzun dövrdə mənfi ola bilər. Bir ölkədə dövlətinin iqtisadiyyat içindəki payı nə qədər az isə, iqtisadi azadlıq o qədər çox deməkdir.

Tədiyyə balansı ölkənin xarici iqtisadi əlaqələrinin vəziyyətini səciyyələndirən əsas makroiqtisadi göstəricilər toplusudur. Beynəlxalq maliyyə təşkilatları və eləcə də inkişaf etmiş dövlətlər hər hansı bir ölkə ilə əməkdaşlığın istiqamətlərini müəyyən edərkən, ilk növbədə, həmin ölkənin tədiyyə balansının göstəriciləri ilə tanış olur.

Tədiyyə balansının göstəriciləri ölkənin real tədiyyə qabiliyyətini göstərməklə yanaşı, həm də həmin ölkənin xarici dövlətlərdən nə dərəcədə asılı olduğunu göstərir. Bazar iqtisadiyyatına keçid, xarici əlaqələrin genişlənməsi, bu əlaqələrin ən ümumi cəhəti və dünya ölkələrində iqtisadiyyatın inkişaf səviyyəsi müəyyən mənada dövlətin yeritmiş olduğu tənzimləmə siyasəti ilə bağldır.

Dövlətin yerinə yetirmiş olduğu əsas vəzifələrdən biri ölkənin tədiyyə balansının tənzim edilməsi məsələsidir. Dövlət bir neçə metodla tədiyyə balansını tənzim edir. Bu metodlardan birbaşa nəzarət (idxal, ixrac, gömrük nəzarəti, pul köçürmələri, investisiyalar və s. üzərində nəzarət) deflyasiya (inflyasiya ilə mübarizə), valyutanın mübadilə kursunun dəyişməsi və s. göstərmək olar.

Bazar iqtisadiyyatı şəraitində dövlətin həyata keçirmiş olduğu iqtisadi siyasətin bir istiqaməti xarici iqtisadi fəaliyyətlə bağlıdır. Dövlət bu siyasəti ilk növbədə açıq qapı siyasəti və himayədarlıq siyasəti istiqamətində həyata keçirir. Açıq qapı siyasəti zamanı ölkənin xariclə apardığı iqtisadi və ticarət əlaqələrində heç bir məhdudiyyət qoyulmur.

Himayədarlıq siyasətində isə dövlət milli istehsalçıları xarici rəqabətdən qorumaq məqsədi ilə kənardan gətirilən məhsullara yüksək gömrük haqqı müəyyən edir. Dünya ölkələrinin iqtisadi əlaqələrinin əsas hissəsi ticarət əlaqələrinin payına düşür.

Hazırda dünyada aktiv xarici iqtisadi fəaliyyət aparmaq, o cümlədən, dünya bazarında nüfuz qabiliyyətinə malik ticarət partnyoruna çevrilə bilmək üçün dünyada qəbul edilmiş ticarətin «oyun» qaydalarına əməl edilməsi vacibdir. Bu sırada malların «dempinq» qiymətlə ixracı, idxal və ixrac vergiləri, o cümlədən ticarət rejimləri və gömrük güzəştləri sisteminin yaradılması, milli valyuta kursunun süni surətdə dəyişdirilməsi və s. kimi müxtəlif iqtisadi metodlardan istifadə edilir. Ölkədə makroiqtisadi sabitlik yarandıqca, iqtisadiyyatda müsbət dəyişikliklər baş verdikcə, Azərbaycan neftinin ixracı çoxaldıqca ölkənin tədiyyə qabiliyyəti get–gedə artacaq və ölkəmizin iqtisadi inkişafına təkan verəcək.

Respublikanın tədiyyə balansının kəsirli olmasının səbəbi cari balansın tərkibində ixracdan gələn gəlirə nisbətən idxala sərf edilən xərclərin çox olmasıdır. Xarici əmtəələr və xidmətlər satarkən az vəsait əldə edilir, onlardan alarkən isə çox vəsait veririk. Tədiyyə balansın kəsirini aradan qaldırmağın əsas yolu kəsiri maliyyələşdirməkdir.

Kəsiri ödəmək üçün mənbələrdən biri xaricdən borc almaq və ölkənin aktivlərinin xaricə satılmasıdır. Lakin bu yol məqbul deyildir. Ən əlverişli yol ölkədən kənara çıxan xərclərin ixtisar edilməsi, xərclərə əmtəə xidmətlər satışından əldə edilən gəlirlərin artırılması və xarici ölkədən kənar aktivlərin çoxaldılmasıdır.

Dövlət tədiyyə balansının tənzim edilməsində bütün vasitə və metodlardan istifadə edir. Deflyasiya siyasətini həyata keçirir, ixracı artırır, dünya bazarlarına rəqabətqabiliyyətli əmtəə və xidmətlər çıxarılmasım genişləndirir. Dövlət ilk növbədə inflyasiyanın aşağı salınması üçün tədavüldə olan artıq pul kütləsinin bir hissəsini tədavüldən çıxarır. Dövlət qiymətli kağızlar satışını çoxaldır, vergiləri artırır.

Bank uçot tariflərini yüksəltmək və xarici iqtisadi əlaqələri dövlət tərəfindən xüsusi valyuta və xarici ticarət tədbirləri ilə tənzimləmək yolu ilə həyata keçirir. Dövlət, həmçinin pul–kredit bazarına təsir vasitəsi və ölkənin tədiyyə qabiliyyətinin möhkəmlənməsi amili kimi valyuta tənzimlənməsindən geniş istifadə edir.

Bütün sivil ölkələrdə olduğu kimi, maliyyə bazarı inkişaf etdikcə dövlət öz monetar məqsədlərinə daha çox qiymətli kağızlar bazarında əməliyyatlar aparmaq hesabına nail olmağa üstünlük verir. Müəyyən tarixə tərtib olunmuş tədiyyə balansı statistik göstəricilər şəklində çap olunmasa da müəyyən tarixə ödəmə və daxilolmaların nisbətlərinin dəyişməsini əks etdirir.

Tədiyyə balansına faktiki olaraq ticarət balansının o hissəsi daxil edilir ki, ödəmələr artıq yerinə yetirilmişdir və ya təcili yerinə yetirilməlidir. Xarici ticarət əməliyyatları üzrə kredit hesabına həyata keçirilmiş ödənməmiş hissə hesablaşma

balansında və ya müstəqil ticarət balansında əks olunur. Xidmət və qeyri–kommersiya ödəmələri balansına aşağıdakı ödəmə və daxilolmalar aiddir:

a) nəqliyyat, teleqraf, telefon, poçt rabitəsi, müxtəlif komisyon və maliyyə əməliyyatları, turizm, diplomatik və ticarət nümayəndəliklərinin saxlanması;

b) istehlak köçürmələri (xarici fəhlələrə əməkhaqqı, miras, xaricdə oxuyan tələbələrə təqaüd və s.) və hərbi xərclər, təzminat.

c) xarici investisiyalar üzrə gəlirlər və beynəlxalq kreditlərə görə faizlər də balansın bu bölməsində öz əksini tapır. Hərçənd ki, iqtisadi məzmununa görə onlar xidmətlərə deyil, kapital və kreditlərin hərəkətlərinə aiddirlər.

Kapital və kredit hərəkəti balansı dövlət və xüsusi kapitalın ixracını və idxalını, həmçinin verilmiş və alınmış beynəlxalq kreditlərin nisbətini ifadə edir. Bu bölmədə borc kapitalının ixracı (kreditlər, qısamüddətli avuarlar və s.) və sahibkarlıq kapitalının, həmçinin portfel investisiya ixracı əks olunur.

Kapital və kreditin hərəkəti müxtəlif müddətdə baş verir. Odur ki, tədiyyə balansının bu bölməsində əməliyyatlar qısa və uzunmuddətli kimi fərqləndirilir. Qısamüddətli əməliyyatlara aşağıdakılar aiddir:

1) əmtəə və valyuta formasında bir ilə qədər müddətə verilmiş kreditlər;

2) xarici banklarda olan cari hesablar üzrə (yəni qısamüddətli avuarlar üzrə hərəkət);

3) xarici və milli pul vəsaitlərinin idxal və ixracı.

Uzunmüddətli əməliyyatlara aşağıdakılar aiddir:

1) xaricdə qiymətli kağızların alqı-satqısı ilə əlaqədar ödəmələr və daxilolmalar);

2) xaricdə müəssisə və daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlar;

3) uzunmüddətli kreditlərin (o cümlədən dövlət istiqrazlarının) alınması və verilməsi.

Kapital və kreditlərin alınması balansına “səhvlər” və “ buraxılmalar” maddəsi əlavə olunur. Burada böhran dövründə nəzərə alınmamış qısamüddətli kapitalın hərəkəti əks olunur. Hesablaşma balansı ölkənin xarici ölkələrə müəyyən tarixə və müəyyən müddətə tələblərinin və öhdəliklərinin nisbətidir.

Formal olaraq tədiyyə balansı tarazlıdır. Əgər ödəmələr əsas maddələr üzrə daxilolmalardan artıqdırsa, onda kəsir xana borclar və sahibkarlıq kapitalının hesabına aradan qaldırılır. Bu müvəqqəti üstünlükdür.

Balansın passiv saldosunun ödənilməsinin yeni qaydası razılaşma üzrə qısamüddətli kreditlərdir. Bu razılaşdırma zamanı mərkəzi banklar bir-birinə qarşılıqlı milli valyutada ifadə olunan kreditlər verir.

Tədiyyə balansının müvəqqəti kəsirinin ödənilməsi üçün Beynəlxalq Valyuta Fondu (BVF) ehtiyat (şərtsiz) krediti verir. Bu kreditin həcmi böyük deyil və ölkələr arasında onların kvotasının (üzvlük haqqı) 25%-i həddində bölüşdürülür.Tədiyyə balansının kəsirinin ödənilməsinin müvəqqəti üsullarından biri də güzəştli kreditlərdir.

**2016-cı il yanvar-sentyabr ayları üçün Azərbaycan Respublikasının tədiyyə balansı (min ABŞ dolları)**

| | |
|---|---|
| **Cari əməliyyatlar hesabının saldosu** | -1113273 |
| Xarici ticarət balansı | 2914953 |
| Xidmətlər balansı | -2270475 |
| Gəlirlər balansı | -1797926 |
| Cari transfertlər balansı | -50,0 |
| **II. Kapitalınvə maliyyənin hərəkəti hesabının** | -40099 |
| Birbaşa investisiyalar | 1255190 |
| - Azərbaycana cəlb olunmuş | 697595 |
| - Xaricə yönəldilmiş | 557615 |
| Kreditlər və digər investisiyalar | -1224875 |
| Neft bonusu | 52 |
| **III.Tədiyyə balansının ümumi saldosu** (ölkənin ehtiyat aktivlərinin dəyişilməsi) | -1190200 |

Devalvasiyanın təzahürləri müəyyən dövrdən sonra özünü göstərir. Az miqdarda devalvasiya (məsələn, 1967-ci ildə funt sterlinqin 14,3 %, 1971-ci ildə dolların 7,89 %) valyuta möhtəkirliyinə təsir edərək, valyuta məzənənsinin təkrar azalmasının ehtimalını saxlamaqdadır. Devalvasiyanın ölçüsü əksər vaxtlar digər valyutaların azaldılması ilə zəncirvari reaksiyaya səbəbiyyət verir və bu zaman təşəbbüskarlarda rəqabət üstünlükləri yoxa çəkilir. Devalvasiyanın səmərəliliyinin yüksəldilməsi uğrunda ölkələr, xüsusilə inkişaf etməkdə olan ölkələrdə ixrac və idxal üzərində diferensiallaşmış rüsumlar və subsidiyalar tətbiq edilir. Valyuta siyasəti əslində dövlətin öz milli valyuta məzənnəsinin və onun vasitəsilə xarici sövdələşmələrin idarə edilməsindən ibarətdir. Ölkə valyutasının məzənnəsinin devalvasiya və revalvasiyası ilə dəyişməsi milli gəlirin dinamiki dəyişməsinə əhəmiyyətli təsir göstərir [ 19. ]

İdarəçilik baxımından praktikada daha çox istifadə edilən metod valyutanın devalvasiya yoludur. Ona görə ki, devalvasiya ixracın real çəkisinin artmasına və idxalın

aşağı düşməsinə gətirir, buna görə ixrac yönümlü və idxala rəqabətli sferalarda yeni iş yerləri açılır, gəlirlər artır. Amma ilk baxışdan yuxarıda göstərilən məntiqin doğru olmasına baxmayaraq, bu həmişə müsbət halla nəticələnmir.

1.Devalvasiya beynəlxalq ticarətin şəraitini pisləşdirərək, dövləti hər idxal vahidi uğrunda daha böyük ixraca məcbur edə bilir. Çünki ticarətin şəraiti (R/Rm) pisləşirsə ölkədə real alıcılıq qabiliyyəti aşağıya düşür. Başqa tərəfdən bunu dərk edən əhali öz xərclərini azaldır, bu isə neqativ prosesləri daha çox gücləndirir. Buna görə də devalvasiya yalnız ticarət şəraitini yaxşılaşdırdığı və yaxud ən azı ona təsir etmədiyi hallarda milli gəliri artıra bilir.

2.Devalvasiya tədiyyə balansında tənzimləməni həyata keçirdikdə müsbət nəticəyə alınır. Çünki devalvasiya yaranan kəsiri aradan qaldırmaqla Mərkəzi bankı valyutanın məzənnələrini süni surətdə stabil saxlamaq üçün daha çox valyuta ehtiyyatı xərcləməkdən xilas etməkdədir.

3.Devalvasiya ticarət balansında müsbət nəticə verməyə bilər, çünki real məzənnənin alıcılıq qabiliyyəti paritet səviyyəsinə qədər artdıqda ixracat artır. Bu andan sonra ixracın artımı olmur. Əksinə daxili xərclər artdığına görə ticarət balansı mənfi tərəfə meyl edir.

Beləliklə, aydın olur ki, valyuta siyasətini yalnız onun məzənnəsinin idarə edilməsi kimi qəbul etmək düzgün deyil. Valyuta siyasətinin ölkədə makroiqtisadi sabitliyin təmin edilməsinə istiqamətləndirilməsinin beş forması vardır. Həmin üsulların müxtəlifliklərini aydın görmək üçün onların tədiyyə balansındakı kəsiri, həm də valyuta məzənnəsinin aşağıya meyl etməsi–devalvasiyaya təsirini araşdıraq.

1. Ölkə iqtisadiyyatında mövcud şəraiti və yaxud valyuta məzənnəsini dəyişdirmədən tədiyyə balansındakı kəsirin müvəqqəti maliyyələşməsi. Kəsirin yaranmasının müvəqqəti olduğu məlum olarsa, ölkə sadəcə olaraq özünün ehtiyatlarını istifadə edəcək, amma dövriyədə pul təklifinin çoxalmamasını proqnozlaşdırır. Ümumi və müsbət balans yarandıqda resursların bərpasına çalışır.

2. Valyutaya nəzarətin tətbiqi. Hökümət ölkə ilə xarici ölkələr arasında bütün əlaqələrə ciddi nəzarət yürüdür. Məsələn, rəsmi valyutanın məzənnəsini dəyişmədən rezidentə xaricə aparılmaq üçün valyutanın dəyişdirməsinə məhdudiyyətlərin qoyulması mümkün haldır.

3. Üzən valyuta məzənnələrinin tətbiqi. Valyuta bazarında məzənnənin müstəqil müəyyənləşdirilməsi üçün şəraitin yaradılması. Belə zamanlarda məzənnə valyuta müvazinəti yaranana qədər düşə bilir.

4. Təsbit edilmiş daimi məzənnənin tətbiqi. Rəsmi dövlət qurumları iqtisadiyyatda dəyişikliklərin aparılması ilə onu formalaşmış valyuta məzənnələrinə uyğunlaşdıra bilirlər. Bu o halda alınır ki, ölkə uzunmüddətli dövrdə xarici ödəmə kəsirinə malikdir və buna görə də xaricilər ölkə valyutasını almaq istəmir. Belə olduqda ölkənin valyuta ehtiyatının axırına çıxmaqla pulun təklifini azalda bilər, devalvasiya ilə qiymətləri və gəlirləri azalda bilər. Bu o zamana qədər davam edəcək ki, xarici valyutaya olan tələb və həmin valyutanın təklifi müəyyən qeyd edilmiş paritetdə müvazinətdə dayanacaqdır. Bu üsul tədiyyə balansının qeyri–sabitliyinin aradan qaldırılması məqsədilə «klassik üsul» hesab edilir.

5. Valyuta məzənnəsinin kombinasiya üsulu. Yəni hökumətlər "üzən valyuta" və "təsbit olunmuş valyuta" metodlarının kombinasiyasını tətbiq edə bilərlər. Bu halda iki hal mümkün hesab edilir. Birinci variant Bretton–Vuds sistemi olan "dəyişən valyuta paritetləri" üsuludur. Yəni təsbit edilmiş məzənnə siyasəti aparılmaq üçün iqtisadiyyatda bəzi dəyişikliklər həyata keçirilir. Amma bu tədbirlər bəs etmədikdə devalvasiya həyata keçirilir və yeni qeyd edilmiş səviyyədə məzənnə müəyyən edilir. Bu üsul 1944–1971-ci illərdə aparıcı olmuşdur. 2-ci variantda isə valyutanın tənzimlənən üzməsi tətbiq edilmişdi. Yəni hökumət valyuta məzənnəsini yeni paritet əldə edilənə qədər tədricən dəyişməklə öz funksiyasını yerinə yetirir. Yeni paritetə hərəkətdə isə valyuta gündəlik, əvvəlcədən müəyyənləşmiş və elan olunan həcmdə ("sürüşkən bağlılıq"), əvvəlcədən açıqlanan dövriliklə, iri addımlarla ("sürünən bağlılıq") və yaxud hər gün əvvəlcədən açıqlanan ("çirkli üzmə") devalvasiya edilə bilir. Amma hər üç halda hökumət iqtisadiyyatın yeni şəraitə uyğunlaşması üçün tədbirlər həyata keçirir və valyuta bazarında hesablaşmaları asanlaşdırmaq üçün maliyyə bazaları axtarır. Dünya praktikasını və iqtisadi mahiyyətini təhlil edərkən yuxarıdakı beş üsulun təkcə son üçünün seçim məqsədilə əlverişliliyi aydınlaşır [41, s. 76].

Revalvasiya – pul vahidində olan qızıl tərkibinin rəsmi şəkildə artırılması və yaxud başqa ölkələrin valyutalarına nisbətdə milli məzənnənin artırılmasıdır. Devalvasiya ölkə əhalisinin məşğul hissəsinin yaşayış səviyyəsinin aşağıya düşməsinə, revalvasiya isə baha olmayan xarici əmtəələr ilə rəqabətə dözməyən sahələrdə işsizlik səviyyəsinin artmasına gətirib çıxardır. Devalvasiya ölkələrarası rəqabət mübarizəsini kəskin formaya salır. Qərbi Avropa ölkələrində ABŞ dollarında yaşanan 2 devalvasiyadan sonra itkilər təxminən 10 milyard dollar olaraq göstərilmişdir. İnkişafda olan ölkələr əsas valyutaların devalvasiyası ilə böyük miqdarlarda pul itkisi ilə qarşılaşırlar.

Valyuta məhdudiyyəti dövlətin daxilindəki valyuta bazarında aparılan əməliyyatların, həmçinin ölkəyə daxil olan xarici valyutaların və ölkədən milli və xarici valyutanın çıxarılmasının məhdudlaşdırılması istiqamətində yürütdüyü valyuta tənzimləməsi siyasətidir. Əsas etibarilə valyuta məhdudiyyətləri valyuta bazarlarında valyuta məzənnəsinin idarəsinə xidmət edir. Valyuta məhdudiyyətləri ölkə iqtisadiyyatının xarici təsirlərdən qorunması məqsədini əsas olaraq qəbul edir.

## 2.3. Ticarət balansı və beynəlxalq likvidliyin tənzimlənməsi

Beynəlxalq ticarət müxtəlif ölkələrin alıcıları, satıcıları və vasitəçiləri arasında həyata keçirilən alqı və satqı prosesi hesab olunur. Beynəlxalq ticarət beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsinə və genişlənməsinə, mövcud resurslardan əlverişli istifadə olunmasına, dünya ölkələri arasında elmi–texniki sahədə əməkdaşlığın genişlənməsinə və dünya xalqlarının mənəvi və maddi tələbatlarının ödənilməsinə imkan yaradır. Cəmiyyətin iqtisadi tərəqqisi, dünya dövlətlərinin təhlükəsizliyinin təmin edilməsi və ölkələrdə iqtisadi artıma nail olmaq beynəlxalq ticarətlə bağlıdır.

C.Mill "Siyasi iqtisadın prinsipləri" əsərində göstərir ki, "Beynəlxalq ticarətin faydası dünyanın məhsuldar qüvvələrindən daha səmərəli istifadə olunmasındadır".

Beynəlxalq ticarət dünya dövlətləri arasında yaranan beynəlxalq iqtisadi münasibətlərin ən əsas forması olub, geniş bir struktura malikdir. Beynəlxalq ticarət idarəetmə, maliyyə, kredit, qiymət, informasiya, kommersiya və s. strukturları özündə birləşdirir.Beynəlxalq ticarəti təşkil etmək üçün bir sıra şərtlərə əməl edilməlidir. Beynəlxalq ticarət şərtlərinə qısa və uzunmüddətli amillər təsir göstərir. Qısamüddətli amillər xarici ticarət siyasəti, valyuta məzənnəsində baş verən dəyişmələr, birtərəfli transferi ödəmələri və konyunktura dalğalanmaları aiddir.

İnkişaf etməkdə olan ölkələrdə qərb banklarının həyata keçirdiyi əməliyyatlar azalır və borc vəsaitlərinin verilməsi şərtləri sərtləşdirilirdi. Çünki, 1980-ci illərdə Argentina, Braziliya və Meksikaya ABŞ-ın 10 iri bankı tərəfindən verilən xarici kreditlərin ümumi həcmi onların şəxsi kapitallarının həcmindən çox idi. Onların aldıqları borc vəsaitlərini ödəyə bilməmələri həmin bankların müflisləşməsi ilə nəticələndi. Lakin debitor ölkələrin borcla bağlı ödəmələrini tam dayandırmaq təhlükəsi kreditorların onlara təcili əlavə maliyyə yardımı göstərmələri zərurətini reallaşdırdı. Nəticədə, Braziliyaya əlavə olaraq 7,8 mlrd. dollar , Argentinaya 2,5 mlrd. dollar , Meksikaya 5,75 mlrd. dollar kredit ayrıldı.

Onu da qeyd edək ki, yaranmış borc böhranının tənzimlənməsi istiqamətində beynəlxalq mexanizmin yaradılmasında mərkəzi, aparıcı qüvvə rolunu oynayan BVF

borclu ölkələrlə razılaşmalar imzalayaraq proqramlar qəbul edirdi. Bu proqramlarda həmin ölkələrdə müxtəlif tədbirlər kompleksi nəzərdə tutulurdu.

- büdcə və tədiyə kəsirinin azaldılması;
- dövlətin iqtisadi sektorda rolunun məhdudlaşdırılması;
- dövlət sektorunun xüsusi çəkisinin azaldılması və sosial xərclərin minimuma endirilməsi;
- ixracın genişləndirilməsi və idxal məhsullarına, xarici malların alışının artırılması məqsədilə daxili istehlakın məhdudlaşdırılması;
- aktiv ticarət balansının saxlanılması;
- əmtəələrin xarici rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə milli valyutanın devalvasiyasının həyata keçirilməsi;
- faiz stavkalarının artırılması;
- ölkədə xarici kapital üçün əlverişli şəraitin təmin edilməsi.

Lakin həyata keçirilən bu siyasət Latın Amerikası ölkələrində iqtisadiyyatın dövlətsizləşməsi, şəxsi sektorun inkişafma şərait yaratsa da, iqtisadiyyatda qeyri-mərkəzləşməyə yol açırdı.

Xarici borcla bağlı tənzimləmə məsələlərində atılan ilk addımlar, eləcə də, bu problemə yanaşmanın özündə fıkrimizcə, müəyyən çatışmazlıqlar var idi. Çünki, yaranmış bu problemə debitor ölkələrdə likvidlik böhranı kimi yanaşılırdı. Bu istiqamətdə həyata keçirilən tədbirlər sistemi vaxtı keçmiş borcların qaytarılması və iri kredit banklarını müflisləşmək təhlükəsindən qorumaq məqsədi daşıyırdı. Əslində isə bu kifayət qədər ciddi bir problem idi və həmin ölkələrə verilən kreditlər borc ödəmələrinin həyata keçirilməsinə təyinatlı idi.

Xarici borc öhdəlikləri probleminin tənzimlənməsində atılan növbəti mühüm addım tarixdə Beykerin adı ilə bağlı olan “Beyker Planı” nın qəbul edilməsi oldu. “Üç illik davamlı inkişaf proqramı” olan bu plan borclu ölkələrə onların davamlı iqtisadi inkişafmı və köhnə borclarının qaytarılmasını təmin edə bilmək üçün böyük həcmdə yeni kreditlərin ayrılmasını nəzərdə tuturdu. Planda həmçinin böhranla üzləşən ölkələrdə ticarətin liberallaşması zərurəti əsaslandırılır, dövlət xərclərinin azaldılması, kapital idxalının tənzimlənməsinin zəiflədilməsi, iqtisadi artımın təmin edilməsi təklif edilirdi. Beyker planı borclu ölkələrin borc probleminin tənzimlənməsində, yenidən maliyyələşdirmə məsələlərində BVF və Dünya Bankının rolunu daha da artırdı.

Beyker planının əsas müsbət cəhətlərindən biri o idi ki, o, inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın artımını, inkişafını, köklü iqtisadi islahatların həyata keçirilməsini ön plana çəkirdi. Lakin bu istiqamətdə borclu ölkələrin borc yükünü əsaslı

maneə kimi qiymətləndirərək, onun azaldılması üçün inkişaf etmiş ölkələrin, beynəlxalq kredit təşkilatlarının fəaliyyətini önəmli hesab edirdi. Amma Beyker planı xarici borc öhdəliklərinin tənzimlənməsində o qədər də təsirli bir mexanizm ola bilmədi. Bu ondan irəli gəlirdi ki, bu plan inkişaf etmiş Qərb ölkələrinin debitor ölkələrdə iqtisadi islahatların keçirilməsində güclərini səfərbər edə bilmədi, həmin ölkələr bu proseslərə tam şəkildə cəlb edilmədi. Və plan borcların radikal şəkildə azaldılmasını nəzərdə tutmurdu. Kənardan göstərilən, o qədər də güclü olmayan maliyyə dəstəyi debitor ölkələrdə tədiyyə qabiliyyətini yüksəldə bilmədi. Çünki BVF-nin bu ölkələrlə bağlı siyasəti onların tədiyyə balansında aktivliyin borc öhdəliklərilə bağlı ödəmələrə xidmətə yönəldilməsini nəzərdə tuturdu.

Lakin borclu ölkələrin onların borc yükünün azalmasını təmin edə biləcək istiqamətində irəli sürdükləri təkliflər, proqramlar müəyyən mənada oxşarlıq təşkil edirdi. Bu proqramlar, planlarda aşağıdakılar nəzərdə tutulurdu:

- iqtisadi artımın sabitləşməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalının artırılması;
- daxili bazarın genişləndirilməsi, ixracın genişləndirilməsi, özəl sektorda kreditlərin artırılması, iri dövlət müəssisələrinin özəlləşdirilməsi, borclar üzrə faiz dərəcələrinin azaldılması, qısamüddətli borcların uzunmüddətli borclarla əvəz edilməsi, ödənməmiş ümumi borc məbləğinin dondurulması, ixrac mənfəətindən asılı olaraq borc öhdəlikləri üzrə ödəmələrin məhdudlaşdırılması, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrdən (borclu ölkələrdən) ixrac məhsullarmı satın almaları, borclu ölkələrdə idxal proteksionizminin aradan qaldırılması, yoxsul ölkələrin borclarının silinməsi, borcların bir hissəsinin milli valyuta ilə qaytarılması, borca görə ödəmələrin vaxtının uzadılması, borcun bir hissəsinin investisiyaya çevrilməsi (dəyişdirilməsi), inkişaf etmiş ölkələrə resurs axınının artırılması, böyük qərb dövlətlərinin özəl banklar qarşısında inkişaf etməkdə olan ölkələrin ümumi borclarmm ödənişi ilə bağlı öhdəliyi öz üzərilərinə götürmələri.

Borclu ölkələrin qəbul etdikləri proqramlarda irəli sürdükləri bu məsələlər inkişaf etmiş ölkələrin beynəlxalq miqyasda həyata keçirdikləri iqtisadi siyasətin optimal əlaqələndirilməsini zəruri edirdi. Məhz bu istiqamətdə 1988-ci ildə Toronto şəhərində “Böyük yeddiliyə” daxil olan ölkələrin bir araya gəlməsi atılan ilk addımlardan biri oldu. Burada qəbul edilən “Toronto müqaviləsi” dünya borc bazarında kreditorların fəaliyyətinin tənzimlənməsinin əsas cəhətlərini özündə birləşdirirdi. Bu müqavilə borc böhranının tənzimlənməsində, borclu ölkələrin problemlərinin həllində praktik fəaliyyət üçün şərait yaratdı. Beləliklə də, “Böyük yeddiliyə” daxil olan dövlətlər borc

probleminin beynəlxalq miqyasda tənzimlənməsində aparıcı rol oynayaraq, bu istiqamətdə fəaliyyətin institusional əsasmı formalaşdırdılar. BVF, Dünya Bankı, Paris və London klubuna daxil olan ölkələr beynəlxalq tənzimləmədə "Böyük yeddiliklə" birgə bir kompleks təşkil etdilər.

Yuxarıda qeyd etdiyimiz təşkilatlarla yanaşı BMT, BTT-də borc probleminin tənzimlənməsində iştirak prosesinə cəlb edilirdilər. Beynəlxalq borc bazarında, eləcə də beynəlxalq kredit münasibətlərində aparıcı yer tutan, belə demək mümkünsə, beynəlxalq borc probleminin tənzimlənməsində Paris və London klubu və kluba daxil olan kreditorlar fəal iştirak edirlər.

Bu klublar inkişaf etməkdə olan ölkələrin xarici borcla bağlı yaranmış problemlərinin həll edilməsində, bir növ yumşaldılmasında, borc yükünün yüngülləşdirilməsində onlara kömək edirlər. Lakin bu klublardan heç biri beynəlxalq təşkilat hesab olunmur. Hər iki kluba daxil olan kreditorların strukturu, yəni klubların üzvlük strukturu qeyri–stabildir, onlar hər hansı bir rəsmi mandata malik deyillər[40. ].

Qeyri-dövlət krediti münasibətlərindən yaranan dövlət borcları əksər hallarda ticarət münasibətləri zamanı meydana gəlir. Belə ki, dövlət digər iqtisadi subyektlərlə (daha çox xarici ölkələrlə) ticarət münasibətlərinə girərək əmtəə və ya xidmətlərin alıcısı kimi çıxış edir. Bu zaman o, dəyəri ya birbaşa olaraq ödəyir, yaxud da müəyyən müddətdən sonra ödənilməsi üçün öhdəlik götürür. Beləliklə, ikinci halda həmin əmtəə və ya xidmətin dəyəri dövlət borcuna çevrilmiş olur.

Dünya təsərrüfatı qloballaşması ilə maliyyə bazarının həcmi və tutumunun artması ilə dövlət borcu ilə ümumi milli məhsul arasındakı nisbətin daha da yüksəlməsinə nail olmaq yolunda dövlətlərə yeni formalı imkanlar açır. Əgər borc və iqtisadi artımın arasında olan nisbət bərabər şəkildə artarsa, heç bir dövlət bunun uğrunda milli riski artırmır. Belə zamanlarda əsas məsuliyyət dünya maliyyə bazarının öhdəliyinə düşür və bu da dövlətlərin arasında olan kapital axınının hesabına kompensasiya olunur. Bu o deməkdir ki, dünya maliyyə bazarları adıçəkilən axının hesabına özünün davamlığını və sabitliyini qoruya bilir. Buna görə də müasir dövrdə xarici dövlət borcunun yenidən maliyyələşdirilməsi məsələlərinə diqqətin cəlb edilməsi, bu prosesin əhəmiyyətinin artmasına və inkişaf etməsinə şərait yaratmaq daha məqsədə uyğun olardı. Məhz inkişaf etmiş maliyyə bazarına malik ölkələr bu bazarın genişlənməsi amilini nəzərə alaraq borcun artım tempinin iqtisadi artım tempi ilə əlaqəsinin uzun müddətə ötürülməsini mümkün hesab edir. Lakin iqtisadi artıma nisbətən borcun artması və nisbətin uzunmüddət davamedici olması xarici borcla bağlı

fərqli parametrlərin, o cümlədən borclanma prosesinin keyfiyyəti ilə bağlı olan bir sıra neqativ meyillərin baş verməsi ilə nəticələndirilə bilər.

Tarix sübut edir ki, borclanmanın kəskin olaraq birdən-birə azaltmağın özü də arzuolunan hal kimi qəbul edilməməkdədir, çünki bu vaxt borc kapitalı bazarında borclu obyektə qarşı mənfi reaksiya yarana bilər. Amma bu o demək deyil ki, xarici borcun kəskin şəkildə artımının qarşısını almaq üçün heç bir tədbir görülməməlidir, əksinə borcun artımını azaltmağa icazə verən xüsusi tədbirlər həyata keçirilməlidir.

Bunu da vurğulayaq ki, borcun artım tempi ilə iqtisadi artım arasında qarşılıqlı təsirin xüsusiyyətlərindən irəli gələrək milli iqtisadiyyatın inkişaf perspektivlərindən asılı olaraq xarici borcun dəqiq proqnozlaşdırılması üçün Dünya Bankı tərəfindən RMSM-X adlı standart model işlənib hazırlanmışdır. Bu model Dünya Bankından borc resursları cəlb edən ölkələrin inkişaf perspektivləri, onlarm xarici borc vəsaitlərinə olan tələbatının səviyyəsi və borcları qaytarma qabiliyyəti, imkanlarını proqnozlaşdırmağa imkan verir.

Dövlət qiymətli kağızları investorları daha çox cəlb edir. Çünki bu borc öhdəliklərinin qarantı kimi hökumət çıxış edir. Bu qiymətli kağızların gəlirliyi korporativ istiqrazlardan aşağı olsa da, stabil olur. Xüsusilə də təkrar bazarda daha aktiv iştirakı və yüksək likvid olması onu cəlbedici edir.

Bir çox inkişaf etmiş ölkələrdə dövlət, hökumət xəzinə veksellərі və dövlət istiqraz vərəqələri buraxan iri emitent kimi çıxış edir. Bəzi ölkələrdə istiqrazların buraxılışı büdcənin maliyyələşdirilməsində vacib hesab olunur. Digər ölkələrdə istiqrazların buraxılışı pul-kredit tənzimlənməsinin həyata keçirilməsində istifadə olunur. Dövlət qiymətli kağızlarına dövlət istiqrazları, xəzinə bonları, xəzinə notları, xəzinə veksellərі, dövlət xəzinə öhdəlikləri, əmanət istiqrazları və. s aiddir. Dövlət qiymətli kağızları müxtəlif cür təsnifləşdirilir. Dövlət qiymətli kağızları əsasən bazar qiymətli kağızları və qeyri bazar qiymətli kağızlarına bölünür. Bazar qiymətli kağızları daha etibarlı və likvid sayılırlar. Onlar həm ilkin, həm də təkrar bazarda daha çox alınıb satılırlar. Bu qiymətli kağızlar yerli icra hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları tərəfindən buraxılır. Bazarqiymətli kağızları sərbəst dövr edir və onların ilkin yerləşdirilməsindən sonra digər subyektlər tərəfindən alınıb-satıla bilər. Bazar qiymətli kağızlarına xəzinə veksellərі, müxtəlif müddətli dövlət istiqrazları və. s aiddir.

Sovet imperyasının süqutu Qafqaz və Mərkəzi Asiya ülkələri daxil olmaqla, geniş bir coğrafi məkanda yeni iqtisadi regionun yaranması prosesinə imkan yaratmışdır. Bu proses TRASEKA proqramı adlı İpək Yolunun bazasının qoyulması ilə yeni imkanlar qazanmışdır[33, s. 7].

Yeni region artıq geniş şəkildə bütünləşmiş ümumi dünya təsərrüfat sisteminin tərkib hissəsi olaraq formalaşır, onunla assimilyasiya prosesləri həyata keçirilir. Böyük nəqliyyat dəhlizlərinin bu bütünləşməyə yol açmasına baxmayaraq, həmin tarixi prosesin gedişatı əhəmiyyətli dərəcədə "görünməz yollardan", yəni sərmayələrin sərbəst hərəkət və fəaliyyət göstərməsi üçün əlverişli siyasi və iqtisadi mühitin dövlətlər tərəfindən yaradılmasından asılıdır. Uzun bir zaman ərzində inzibati-amirlik sistemi ilə idarə edilmiş postsovet respublikaları çoxcəhətli mürəkkəb siyasi-iqtisadi mühitdə bazar iqtisadiyyatının prinsiplərinin tətbiqini reallaşdırmağa çalışırlar. Məhz bunun nəticəsində yaranan iqtisadi məkan öz müasir məzmununu almaqla, müxtəlif iqtisadi formaları və infrastrukturu özündə cəmləşdirən yeni iqtisadi mühitin formalaşdırılmasında baza rolunu oynayır.

Respublikamız özünün mühüm strateji mövqeyi vasitəsilə bu yeni iqtisadi regionun mərkəzində, Qərb və Şərqin kəsişməsində yerləşmişdir. İki qitənin mərkəzində yaranan nəhəng kommunikasiya qurğularının respublikamızın ərazisindən axın etməsi onun strateji mövqeyini daha da artırmaqdadır. Fikrimizcə, Azərbaycanda nüfuz dairəsi üçün dünyanın bir çox inkişaf etmiş ölkələrinin ciddi rəqabəti, təkcə mövcud təbii sərvətlərlə əlaqədar olaraq yox, həm də əhəmiyyətli dərəcədə bu amillə əlaqədardır.

# III FƏSİL. MİLLİ İQTİSADİYYATIN İNKİŞAFI VƏ ARTIMININ TƏMİN OLUNMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. "Strateji yol xəritəsi" kontekstində milli iqtisadiyyatın inkişaf meylləri

Azərbaycan dünya iqtisadiyyatında iqtisadi artım tempinə görə son illər ərzində qabaqcıl yerlərdə öz mövqeyini tutmuşdur. Azərbaycanda əsasən neft strategiyasının uğurla həyata keçirilməsindən qazanılmış gəlirlər hesabına sistemlər müasirləşdirilmiş, sosial rifahı yüksəltmiş, qeyri–neft sahəsi inkişaf etdirilmiş, dövlətin aktivləri yüksəlmiş və yüksək strateji valyuta ehtiyyatları təşkil olunmuşdur. Lakin, 2014–cü ildən sonra neftin qiymətlərindəki kəskin azalma və beynəlxalq münasibətdə olan digər ölkələrdə böhran olması nəticəsində bizim ölkədə iqtisadi artım tempi aşağı düşməyə başladı. Tədiyyə balansı, maliyyə-bank sahəsində olmuş hadisələr, qeyri–neft sahəsində yaranan büdcə kəsiri olması nəticəsində Azərbaycan iqtisadiyyatı yeni iqtisadi inkişafa keçməyə məcbur olmuşdur. Milli iqtisadiyyat sisteminin təzələnməsi biznes sahəsinin daha da inkişaf etdirilməsi, maliyyə-bank sektoruna antiböhran siyasətin yeridilməsi və üzən məzənnə sisteminin daha da yaxşı vəziyyətdə olması, həmçinin beynəlxalq münasibətlərin genişləndirilməsi ilə mümkün olacaqdır.

Azərbaycanın dayanıqlı iqtisadiyyatının inkişaf etməsinə əsasən milli iqtisadiyyatın əsas sahələri üzrə "Strateji Yol Xəritəsi" siyasəti əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyini, davamlılığını və sosial rifahını daha da yüksəltməsi ilə təmin olunacaqdır. Bu siyasət əsasında sərmayələrin cəlb olunması, bazarlara sərbəst maneəsiz çıxış və insan kapitalın inkişaf etməsi Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatında yerini möhkəmləndirəcək və yüksək gəlirli ölkələr səviyyəsinə çatacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 mart 2016 tarixli 1897 nömrəli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sahələri üzrə strateji yol xəritəsini başlıca istiqamətləri" sərəncamına uyğun olaraq milli iqtisadiyyatın 11 sektorlu "Strateji Yol Xəritəsi" layihəsi uzun, orta və qısamüddətli dövrlərə nəzərən, 2020–ci ilə qədər strateji baxış, 2025–ci ilə qədər üçün uzunmüddətli strateji baxış və 2025–ci ildən növbəti illər üçün hədəf baxışlarla hazırlanmışdır. Qısamüddətli dövrdə qazanılmış üstünlüklər əsasən orta və uzunmüddətli dövrlərdə milli iqtisadiyyatın inkişaf etməsinin əsası qoyulacaqdır. "Strateji Yol Xəritəsi" layihəsi milli iqtisadiyyatın inkişafını stimullaşdıracaq, həmçinin yerli və beynəlxalq sahələrin nmayəndələri ilə əməkdaşlıq etmək üçün şərait yaradacaqdır. Dövlət sərmayələri əhəmiyyətsiz olacaq, əksinə özəl sahələr isə iqtisadiyyatın inkişafında aparıcı rol oynayacaq. [ 6. ]

Xüsusən də onu qeyd edə bilərik ki, "Strateji Yol Xəritəsi" layihəsinin həyata keçirilməsi üçün uyğun olan dövlət orqanları daha ətraflı proqramlara əsasən öz

fəaliyyətlərini təşkil edəcəklər. Bu layihənin keçirilməsində əvvəlcə texniki–iqtisadi proqnozlaşdırma aparılacaq və hər fəaliyyət üzrə dövlət orqanları məsuliyyət daşıyacaqlar.

Azərbaycan neftdən gələn gəlirlərinin düzgün şəkildə idarə edilməsinə görə çoxlu yığım və aşağı səviyyədə xarici borclar , biznes sahəsinin yaxşılaşdırılması, sosial və iqtisadi mexanizmin qurulması, yoxulluğun aşağı səviyyəyə düşməsi və özəl sahənin inkişaf etdirilməsi sahələrində uğurlara imza atmışdır. “Strateji Yol Xəritəsi” layihəsində yüksək idarəetməyə əsasən sabit makroiqtisadiyyatı təmin etmək, məşğulluq səviyyəsini yüksəltmək, biznes sahəsinin yaxşılaşdırılması və özəl sahənin yaxşı iştirak etməsini möhkəmləndirməyi nəzərdə tutur. Azərbaycan inkişaf məqsədlərində bir sıra hədəflərə çatmış və BMT–nin 2016–2030–cu illərdə təsdiq olunmuş Dayanıqlı İnkişaf Məqsədlər layihəsinə qoşulmuşdur. Azərbaycan da iqtisadi inkişafı daha dayanıqlı inkişafın təmin olunması üçün əlverişli icra sistemi yaradılacaqdır.

2020–ci ilə qədər  milli iqtisadiyyatımızın strateji baxışın belə nəzərə yetirə bilərik. Əvvəlcə xaricdən gələn mənfi təsirlərdən yaxşı vəziyyətdə çıxmaq üçün qısamüddətli zaman kəsiyində sabitləşdirilməsinə, ortamüddətli zaman kəsiyində yeni hərəkət etdirən qüvvələr hesabına inkişafın davam etməsi üçün onun bərpa edilməsinə, sonda isə dünya iqtisadiyyatına çıxmaqla rəqabət qabiliyyətinin yüksəldilməsinə nail olmaqdır. 2020–ci ilə qədər olan strateji baxış 2025–ci il və ondan sonrakı illəri əhatə edərək iqtisadiyyatın inkişafına xidmət göstərəcəkdir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində, o cümlədən, nəqliyyat dəhlizlərinin inkişafını qorumaqla yanaşı, həm də strateji yol xəritəsində qeyd olunan istiqamətlərin irəli getməsi üçün təmin olunacaqdır.

Beləliklə, milli iqtisadiyyatın dayanıqlı inkişafı üçün dörd strateji hədəf qeyd olunmuşdur. Bu yazılmış strateji hədəflərin həyata keçirilməsi nəticəsində maliyyə sahələrinin arasında müvazinətin yaradılması ilə dayanıqlı iqtisadiyyatın inkişaf etməsi mümkün olacaqdır. Birinci srateji hədəfdə müvafiq olaraq Azərbaycanda büdcə-vergi siyasətin davamlılığı təmin ediləcək və üzən məzənnə siyasətini təkmmilləşdirəcəkdir. Monetar və büdcə-vergi siyasətin tədbiq olunması sabit makroiqtisadi sistemi yaradacaqdır. İkinci hədəfə uyğun olaraq isə səhmlərin nəzarəti dövlət fəaliyyətin əlverişliliyinin yüksəldilməsi və özəlləşdirmə siyasətin həyata keçirilməsi ilə iqtisadi artım tempini təmin edəcəkdir. İnsan kapitalının inkişaf etdirilməsi üçüncü hədəfə aiddir ki, burada əmək bazarının inkişafını milli iqtisadiyyatımıza uyğun etməkdən ibarətdir. Sonuncu dördüncü hədəf isə biznes sahəsinin daha da inkişaf etdirilməsini nəzərdə tutur. Bu layihədə olan dörd strateji hədəflər və onların on bir sektorlu  “Strateji yol

xəritəsi”ndə olan tədbirlər planını qeyd etmək olar. Bizim mövzuya aid olan strateji hədəfi aşağıdakı cədvəldə göstərə bilərik: [ 4 ]

| N | Tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müd dəti |
|---|---|---|---|---|
| **Davamlı monetar siyasətin qəbul edilməsi və fiskal dayanıqlılığının möhkəmləndirilməsi** | | | | |
| **Yeni iqtisadi modeldə effektiv pul siyasəti rejiminin tətbiq edilməsi** | | | | |
| 1. | Makroiqtisadi koordinasiya-nın təmin edilməsi | Maliyyə sabitliyi Şurası | | 2017-2018 |
| 2 | Yeni alternativ lövbərin hədəflənməsi | Mərkəzi Bank | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2016-2017 |
| 3 | Tam üzən məzənnə rejiminə keçidin təmin edilməsi | Mərkəzi Bank | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə bazarlarına Nəzarət Palatası | 2017 |
| 4 | Banklararası bazarın fəaliy-yətinin təkmilləşdirilməsi | Maliyyə Bazarlarına Nəzarət Palatası | Maliyyə Nazirliyi, Mərkəzi Bank | 2017 |
| 5 | Adekvat iqtisadi gözləntilə-rin formalaşdırılması və idarə edilməsi | Mərkəzi Bank | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə bazarlarına Nəzarət Palatası | 2017-2018 |

İqtisadiyyatın hərtərəfə çoxaldılmasında və ixtisaslaşmağın artırılmasında önəmli məqsəd odur ki, qeyri–neft sahəsinə daha çox dəyər sərf olunması əsasında gəlirlərin məbləğinin yüksəldilməsi və ədalətli bölgünün aparılmasıdır. Neftdən qazanılmış gəlirlər son on il müddətində əhalinin məşğulluq səviyyəsini yüksəldib. Buna baxmayaraq, neft sahəsində əməyin intensivliyi aşağı olduğu üçün bu sahəyə cəlb olunmuş işçilər ümumi işçi qüvvəsinin 1 %-nə bərabərdir. Təbii sərvətlərdən əldə olunmuş gəlirlər dövlət bölməsində və tikinti sektorunda məşğulluq səviyyəsini yüksəltmişdir. Qeyri–neft sektorunda gəlirlərin azalması məşğulluğun əvvəlki səviyyəsini bərpa edilməsində problem yaratması, həmçinin, azərbaycanlı miqrantların qonşu ölkələrdəki iqtisadi inkişafın geriləməsi səbəbinə görə ölkədə yeni iş yerlərinin açılmasına ehtiyac vardır. İqtisadiyyatın inkişafı və biznes sahəsinin təkmilləşdirilməsi imkan yaradacaq ki, daxili va xarici səylər nəticəsində ölkəyə daha çox investisiya cəlb olunsun və bir sıra şirkətlərdə yeni iş yerləri açılsın. O zaman işçi qüvvəsinin təcrübəsinin yüksəldilməsinə və yeni iqtisadi sistemə uyğunlaşdırılmasına xüsusi diqqət göstəriləcəkdir.

Davamlı olaraq inkişafın yüksək səviyyəyə çatdırılması üçün milli iqtisadiyyatın, ölkə büdcəsinin və məzənnənin neftdən olan asılılığı aşağı salınmalıdır. Neftdən əldə

olunmuş vəsait yerli tələbatı ödəmək üçün əhəmiyyətli dərəcədə təsir etdiyi üçün neftin qiymətindəki dəyişikliklər milli iqtisadiyyatda olan sabitliyi pozur. Məsələn, 2004–2014–cü illər ərzində illik artım tempi 11,6 % dərəcə dəyişməklə firmaların planlaşdırma şəraiti sonlandı və özəl sahəyə yatırılan investisiyaların səviyyəsi aşağı düşdü. Bundan əlavə, neftdən gələn gəlirlər xarici valyuta vəsaiti ilə olduğu üçün neftin qiymətindəki dəyişmələr dövlətin milli valyutası dəyərinin aşağı düşməsinə səbəb olur.

Əsas makroiqtisadi göstəricilər, xüsusən də, ölkə büdcəsinin neftdən gələn gəlirlərdən asılı qalmaması üçün "qızıl qayda"–nın tətbiqi əhəmiyyətli sayılır. Belə qayda ilə neftdən olan gəlirlərinin nəsillər arasında ədalətli bölgü olacaq və ARDNF–dən ölkə büdcəsinə köçürmələrin cəmi sabit iqtisadi inkişaf ehtiyacları ilə əlaqələndiriləcəkdir. Monetar siyasət nəticəsində qiymətdə olan sabitlik milli valyutaya inamı artacaq, düzgün fiskal siyasətin olmasına xidmət göstərəcək və iqtisadi artıma müsbət təsir edəcəkdir. Belə deyə bilərik ki, fiskal çərçivə, monetar siyasət və iqtisadi artım qarşılıqıl olaraq bir–birinə yardım göstərəcəklər.

2016–2020–ci illər ərzində strateji yol xəritəsinin həyata keçirilməsi üçün sosial təsirlər dəyərləndiriləcək, yeni iş yerlərinin açılması ilə yanaşı, əhalinin mənzillə təmin edilməsinin yaxşılaşdırılması, müasir tələbə uyğun olaraq səhiyyə və təhsil xidmətləri göstərilməsinin inkişafı, sosial yardımın həyata keçirilməsinin təmin edilməsi ilə yoxsulluğun aşağı səviyyəyə düşməsi üçün səylər göstəriləcəkdir.

2025–ci ilədək uzunmüddətli baxışa görə milli iqtisadiyyatının bütün yanların faydalı olması şəraitində daha çox dəyər qazanmaqla rəqabət qabiliyyətinin yaxşılaşdırılmasına nail olmaqdır. Uzunmüddətli baxışın şərhini belə vermək olar: Xüsusilə, azad rəqabətin inkişaf etdirilməsi ilə özəl bölməyə kömək göstərilməsi ilə milli iqtisadiyyata daha çox investisiya cəlb edilməsi və bazarlara çıxışlarının genişləndirilməsinə gətirib çıxaracaqdır. Biznes sahəsinin yaxşılaşdırılması və özəl sektorun investisiya qoyuluşlarının stimullaşdırılması, makroiqtisadi sabitliyin saxlanılması və yardımedici dövlət bölməsi ölkəmizin 2025–ci ilədək olan zamanda iqtisadi inkişafın bünövrəsi hesab olunur. 2025–ci ilədək ölkəmizdə bazarlara, müasir texnologiyalara və maliyyə vəsaitlərinə bərabər rəqabət qabiliyyətini yüksəltməyə çalışacaqdır. Yerli müəssisələrin inkişafına və xarici investorların dünya standartlarına uyğun şəkildə fəaliyyət göstərmələrinə imkan yaradacaq biznes sahəsi inkişaf etdiriləcəkdir. Biznesi həyata keçirmək üçün üç əsas sahə vardır: investisiya qoyuluşlarına imkanların yaradılması, biznesdə qlobal standarta nail olmaq və beynəlxalq dəyərlərə inteqrasiya etmək.

Azərbaycan regionda öz mövqeyini gücləndirmək üçün ölkəyə əlverişli yüksək səviyyədə investisiya yatırılması davam etdiriləcəkdir. 2025–ci ildə milli iqtisadiyyatımız ölkənin dəmir yolları xətlərinin Türkiyə, İran və Gürcüstanın dəmir yol xəttləri ilə Astara–Astara və Bakı–Tblisi–Qars dəmiryol layihələri vasitəsilə kəsişdirilməsindən, o cümlədən Xəzər dənizində Bakı Beynəlxaq Dəniz Ticarət Limanının tikilməsindən faydalanacaqdır. Azərbaycan hərtərəfli nəqliyyat imkanları olmasına görə ölkədə ixracat artmağa başlayacaq, həmçinin, bütünlüklə biznes xərclərinin azalmasına gətirib çıxaracaqdır. Bundan başqa, birləşdirilmiş nəqliyyat imkanları ölkəmizin bütün regionları daha çox yaxşı paylanmasına imkanlar yaratmaqla, onların biznes inkişafına yardım göstərəcəkdir. Müasir şəraitdən istifadə etməklə sürətli şəbəkə ilə elektron xidmətlərin əhatəsi genişləndiriləcəkdir. Xüsusən də, dövlət idarəetmələrində elektronlaşdırma biznes üçün əlverişli, şəffav, hesablı və proqnozlaşdırılan imkanlar yaradacaqdır. Azərbaycanda biznesin beynəlmilləşdirilməsi üçün elektron xidmətləri təşkil etmək və genişləndirmək vacib hal sayılacaq. 2025–ci ildə özəl bölmərin sistemin qurulmasında daha yaxından iştirak etməsi təmin olunacaq ki, bu da iqtisadiyyatın yaxşılaşmasına gətirib çıxaracaqdır. Bundan başqa, rəqabət qabiliyyətlilikli qiymətlərlə communal xidmətlər təklif ediləcək və bu qiymətlərə görə ölkəmiz regionda ön sıralarda duracaqdır.

Azərbaycan 2025–ci ilə qədər xüsusilə, MDB ölkələri, Gürcüstan, İran və Türkiyə kimi bizim region ölkələri əlverişli ticarət müqavilələrinə əsasən aşağı tariflə gömrük rüsumları ilə ticarət mərkəzi kimi öz mövqeyini gücləndirəcəkdir. Qeyri–neft sahəsi üzrə ticarət həcminin yaxşı olması Azərbaycan iqtisadiyyatının mövqeyi üçün vacibdir. Məsələn, Azərbaycandan göndərilən kənd təsərrüfatı və ərzaq məhsullarının 90%-i Gürcüstan, Rusiya və Orta Asiya ölkələrinə ixrac olunur. Qonşu ölkələrlə ticarət müqavilələri ölkəmizə daha sərfəli şərtlərlə xaricə ixracı genişləndirməyə şərait yaradacaqdır. O cümlədən, belə olduqda xarici investorların Azərbaycan ixracına investisiya yatırılmasına cəlb olunmağı yüksələcəkdir. 2025–ci ilə qədər regional əlaqələri davam etdirmək üçün ölkəmiz inteqrasiya məqsədilə müqavilələr bağlayacaqlar.

Ticarətin keyfiyyətinin dəqiq qiymətləndirilməsi və asanlaşdırılması üçün Azərbaycan müəssisələrində beynəlxaq standart sənədlər və sertifikatlarla təmin olunacaqdır. Beynəlxalq standarta uyğunlaşma isə ixrac olunan malları və xidmətləri rəqabətə davamlı halda olacaqdır. Beynəlxalq standartlardan istifadə etməklə inamlı keyfiyyət dərəcəsi yaradaraq yerli istehlakın səviyyəsini artıracaqdır. Azərbaycana region baxımdan yaxın olan iki bazarda – Avrasiya İttifaqı və Avropa İttifaqı standartları

əsas olduğundan, bu standartlara uyğun olaraq qeyri–neft sahəsinin ixracını genişləndirəcəkdir. Yerli müəssisələr məhsullarının keyfiyyətinin yaxşılaşdırılması ilə artan tələbləri qarşılaya biləcəklər. Beləliklə, “Made in Azərbaijan” adlı markası beynəlxaq bazarlarda tanınmış brendə çevriləcəkdir. “Made in Azərbaijan” markasının tanıdılması yönümdə işlərin effektliliyini yüksəltmək üçün ölkədə istehsal olunan malların və həmin istehsalçılar haqqında qeyd olunmuş məlumatlar üçün internət bazası yaradılacaqdır. Bu bazada məlumatlar üç dildə qeyd olunmalıdır: Azərbaycan, rus, ingilis dillərində. Bu dillərdə olması vacib sayılmalıdır, çünki bununla istifadəçi əhatəsini genişləndirməklə, yerli malların tanıdılması üçün əhəmiyyətli olacaqdır. Beləliklə, istehsalçı və istehlakçı arasında əlaqələr çətin olmayacaq, bununla da yerli malların ixrac həcmi çoxalacaqdır.

Azərbaycan 2025–ci ilə qədər sərmayə qoymuş investorlar daha da möhkəmlənəcək və yeni birbaşa xarici investorların cəlb olunması ilə təmin olunacaqdır. Xüsusən də, rəqabət qabiliyyətliliyi yüksək olan investisiya layihələri xarici sərmayədarlara təqdim olunacaqdır. Sərmayədarlara göstərilən xidmətlər onlara layihələri tez başa çatdırmağa və təhsil bölməsində müəssisələrlə və ya tikinti şirkətləri, təchizatçılarla əlaqə yaratmağa şərait yaradacaqdır. Xarici sərmayədarların yerli məhsul və xidmətlərə çoxlu tələbin olması üçün mexanizmlər qurulacaqdır. Əlverişli və geniş növlü maliyyə xidmətləri təklif edən dərin və sabit maliyyə mexanizmi formalaşdırılacaq ki, bu zaman ev təsərrüfatın və iqtisadiyyatın ehtiyaclarını yerinə yetirməklə iqtisadi inkişafa stimul yaradacaqdır.

Daha çox mexanizmə malik olan və dayanıqlı iqtisadiyyatın əsasını makroiqtisadi sabitlik təşkil edir. Bu sahənin formalaşmasını makroiqtisadi siyasət təyin edir. Keçən illər ərzində ölkəmiz dünya iqtisadiyyatında rəqabətlilik hesabat statistikinə əsasən on sabit makroiqtisadi siyasətə malik dövlətlər sırasında yer almışdır. Azərbaycanı bu sıralarda saxlamaq üçün növbəti on il ərzində daha çox ayrılmış gəlir mexanizmi yaradılacaqdır. Dövlət Neft Fondundan köçürmələr üçün “qızıl qayda”dan istifadə edilməsi və güclü xərc çərçivəsində olan büdcə-vergi siyasət neft qiymətindəki dəyişmələrin qarşısını alacaq, ARDNF–in ehtiyat yığılmasına şərait yaradacaq və dövlət borcunun aşağı salınmasına imkan yaradacaqdır. Borcların uyğun səviyyədə saxlanılması, bu zaman təbii ehtiyatlardan əldə olunan gəlirlərin və hesabatdan kənar borcların qeyd olunması üçün büdcə-vergi siyasət işlənib hazır olacaqdır. Həmçinin, bu siyasət nəticəsində qeyri–neft sahəsinin ÜDM–i ilə dövlət xərcləri arasında əlaqə yaradıb qeyri–neft sahəsindən gələn gəlirlər dövlət xərclərini ödəmə həddini

artıracaqdır. Bütün bunlara aid demək olar ki, Azərbaycan beynəlxalq reytinq agentliklərindən sərmayə dərəcəsində kredit reytinqi alması ilə təmin oluna bilər.

Vacib məlumatların qeyd olunması beynəlxalq və yerli sərmayədarların istədikləri şəffaflıq səviyyəsinin təmin olunması məqsədinə görə manat üzən valyuta şəklində davam edəcəkdir. Belə yanaşma ilə makroiqtisadi vəziyyəti daha asan proqnozlaşdırıla bilinəcək, daha çoxlu birbaşa xarici investisiyaları və sabit kapital axınlarının olmasına cəlb olunacaqdır. Beləliklə həmçinin, stabil və proqnozlaşdırıla bilən inflyasiyanın olmasına gətirib çıxaracaqdır ki, sonda ev təsərrüfatları öz ehtiyyatlarını banklara etibar etməklə maliyyə sabitliyinə yardım göstərmiş olacaqlar. Mübadilə məzənnəsində manatın dəyərinin dəyişkənliyi azalarsa, bu zaman Azərbaycanda investisiya risklərini aşağı salacaqdır. Beynəlxalq kreditorların təqdim etdiyi risk mükafatı bunun təsiri ilə azalaraq kapital məsrəfini azaldacaqdır.

Monetar və büdcə-vergi siyasəti ilə idarəetmənin effektiv olmasına yardım etmək üçün maliyyə sahəsində likvidlik və sabitlik 2025–ci ilə qədər tam təmin olunacaqdır. Bunun olması üçün isə dövlət qiymətli kağızların daha likvid olması təmin olunmalıdır. Likvidlikdə yüksək artım vacib qiymət amili olub, nəticədə real iqtisadiyyata kredit axını çoxluq təşkil edir ki, bu likvid banklararası bazarın inkişaf etməsinə stimul yaradır. Həm də, kapital bazarları yerli sərmayələr üçün şərait yaradır və bu müvəqqəti investisiya şəraiti axtaran investorlar üçün əhəmiyyətlidir. Bu üstünlüyün əsas məqsədi odur ki, kredit istəyənləri və kreditorları kapital bazarına cəlb olunmasından ibarətdir. Belə olduqda kapital bazarının dəyişkənliyin azaldılmasına və onun müxtəlif qollara ayrılmasına gətirib çıxarır, həm də manatın cəlbedici olması üçün manat müsabiqəli sərmayə yatırmalara daha geniş şərait yaradır. Nəticədə , hal–hazırda ABŞ dolları ilə saxlanılan yığımlar sonralar daha çox manata dəyişdiriləcəkdir. Kapital bazarı, həmçinin Mərkəzi Banka effektiv şəkildə monetar siyasət tətbiq etmək və bazarda qeyri–müəyyənlik olduqda axırıncı vəzifə kreditor kimi hərəkət etməyə şərait yaradacaqdır. 2025–ci ilə qədər olan dövrdə Azərbaycanda maliyyə sahəsində qısamüddətli sabitləşmə olacaq, ortamüddətli dövrdə quruluş islahatları ilə inkişaf daha da yaxşılaşacaq, uzunmüddətli dövrdə isə maliyyə bölməsi qlobal mühitdə açıq rəqabətə hazır olacaqdır. Ölkəmizdə maliyyə sahəsində olan islahatların region ölkələrinə nisbətdə daha sürətlə həyata keçirilməsi, ölkəmizə xarici investorların cəlb edilməsini genişləndirməklə milli iqtisadiyyatın davamlı olaraq inkişaf etməsinə kömək edəcəkdir.

Növbəti on il ərzində Azərbaycanda iqtisadiyyatımız yüksəlməyə doğru təkan verəcəkdir. Dövlətin iqtisadiyyata təsiri zamanı tənzimləmə, siyasət, dövlət sahibkarlığı və sifarişləri fəaliyyəti uyğun olaraq bir–birindən ayrı vəziyyətdə olacaqdır. Milli

iqtisadiyyatda dövlət sektoru əsasən aşağıdakı üç üstünlük ilə məşğul olacaqdır: Vergidən gələn gəlirlərin ən əlverişli şəkildə xərclənməsinə imkan yaradan inzibati idarəçiliyin təşkil olunması; Azərbaycan vətəndaşları üçün imkanların təşkili; uyğun olaraq tənzimləmə və makroiqtisadiyyat şəklində iqtisadi inkişafa yardım edilməsi.

Ciddi büdcə-vergi siyasəti, makroiqtisadi sabitlik və güclü hüquqi baza fiziki və əqli mülkiyyət hüquqlarının qorunduğu biznes sahəsi yaradacaq və nəticədə, özəl sərmayə həcmi lazımi qədər çoxalacaqdır. Bundan başqa, uyğun olaraq tənzimləmə rəqabət qabiliyyətini möhkəmləndirərək istehsal olunan yerli məhsul və xidmətlərin keyfiyyəti, təminatı və əlverişliliyində artıma yol açacaqdır. O zaman yerli kiçik və orta təşkilatların inkişafına yardım göstərilməsinə xüsusi diqqət olunacaqdır. Burada göstərilən cəhdlər ixracın artırılması, kredit, keyfiyyətli təlim proqramların təklif edilməsi şəraitlərinə çıxışı yaxşılaşdıracaqdır. Azərbaycan region ölkələri ilə iqtisadi inteqrasiya üçün tələb edilən vacib infrastrukturun tikintisinə imkan yaradaraq, kənd və şəhərdəki gəlir fərqini aradan qaldırmağa yardım edəcəkdir.

2025–ci ildən sonrakı zamanda əsas hədəf sosial rifahın yaxşılaşdırılması və insan kapitalının inkişafının yüksək səviyyəyə çatdırılmasını təmin edən və texnologiyanın inkişafı və iqtisadiyyatın əlverişli mexanizminə əsaslanan möhkəm rəqabət qabiliyyətli və dayanıqlı iqtisadi vəziyyəti qurmağı planlaşdırır. 2025–ci ildən sonrakı zaman üçün əsas hədəf baxışları ondan ibarətdir: rəqabət qabiliyyəti üstün olan sahələrdə ixtisaslaşma, effektli dünya iqtisadiyyatı ilə inteqrasiya, iqtisadi təhlükəsizliyin təmin edilməsi və inkişaf etmiş mexanizmanı təşkil edəcəkdir. Azərbaycan dayanıqlı iqtisadiyyatlı olması üçün BMT–nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq tədbirlər həyata keçirəcək.

Sosial rifah dedikdə, insanın həyat səviyyəsi başa düşülür. 2025–ci ildən sonrakı dövrdə əsas hədəf insan kapitalın qabiliyyətinin reallaşdırılması üçün yaxşı şəraitlər təmin etmək nəzərdə tutulur. Həyatın yaxşı, keyfiyyətli olması üçün əsas şərt təhsil, səhiyyə və rifahdır.

2025–ci ildən sonra yoxsulluq tamamilə aradan qaldırılacaq, təhsilə çıxış, keyfiyyətli səhiyyə imkanları genişləndiriləcəkdir. Keçmiş on il ərzindəki yolu davam edərək, iqtisadiyyatın inkişafında əsasən ən yoxsul insanları əhatə etməsi və beləliklə yoxsulluğun aradan qaldırılması təmin olunacaqdır. Bu dövrdə yoxsulluq probleminin həlli üçün iki yanaşma olacaq: əməkhaqqının və başqa gəlirlərinin az olmasına görə ehtiyaclarını ödəyə bilməyənlər üçün sosial yardım; yeni iş yerlərinin açılması. Minimum əməkhaqqı ilə işləyənlərin sayı artdıqca yoxsulluğun xüsusi çəkisi azalacaqdır. Belə olduqda isə minimum əməkhaqqı məbləği orta əməkhaqqı məbləği

səviyyəsinin 60%-nə bərabər olacaqdır. 2025–ci ildən sonrakı dövrdə əsasən ölkədə ərzaq təhlükəsi olmanın qarşısının alınması üçün sosial, iqtisadi, təbiət və texnoloji sahələrdə olacaq dəyişmələr və problemlər nəzərdə tutulacaqdır. Əlverişli ərzaq təhlükəsizliyi mexanizmi formalaşdırılması üçün yeni ərzaq texnologiyaların tətbiqi və yeni aqro-ərzaq mexanizmlərin formalaşdırılması prosesi nəzərdə tutulur. Hal–hazırda Azərbaycan Ərzaq Təhlükəsizliyi İndeksində qida tələbinin ödənilməsinə görə 61–ci, onun keyfiyyətli olmasına görə isə 86–cı sıradadır. Azərbaycan üçün daha yaxşı kənd təsərrüfatı strukturu bu göstəricilər üzrə sırası təqribən 40–cı yerə kimi qalxmasına gətirib çıxaracaq.

Azərbaycanın kənd yerlərində olan işçi qüvvəsi üçün şəhərdə yerləşən mənzil təminatı və orada məşğulluq imkanlarından faydalanmağa görə şərait yaradılacaqdır. Belə olduqda isə həm yoxsulluğun səviyyəsinin azalmasına yardım edər, həm də şəhər və kənd arasında gəlir bərabərsizliyinin azalmasına nəticələnə bilər. Bu zaman mənzillə təmin olunan şəhər əhalisinin tələblərini əhatələyəcək və bu əhalinin xüsusi çəkisi təqribən 55 %-dən 75 %-ə qədər artacaqdır. Kənd yerlərində daha yüksək gəlir qazandıran məşğulluğun artımı ilə daha yaxşı məşğulluğa görə şəhərlərə axınların olması nəticəsində gəlirlərdə olan bərabərsizlik azalacaqdır. 2025–ci ildən sonra Bakı ilə digər regionlar arasında olan gəlirlərdəki fərq adambaşına düşən gəlirin təqribən 50 %-dən 40 %-ə qədər düşəcəkdir.

Plana uyğun həyata keçirilən urbanizasiya nəticəsində orta təbəqənin rifah halının yaxşılaşdırılması, alıcılıq qabiliyyətinin artması və əmək məhsuldarlığın yüksəlməsi ilə iqtisadi inkişafı yüksək səviyyədə saxlaya biləcəkdir. Təhsil və səhiyyə xidmətin daha da keyfiyyətli olması nəticəsində insan kapitalına verilən dəyər 2025–ci ildən sonrakı dövr üçün iqtisadi artımda əsas rol oynayacaqdır. Azərbaycan təhsilinin keyfiyyətinə görə dünyada hal–hazırda 107–ci sırada qərarlaşması o deməkdir ki, daha da yaxşı olması qabiliyyətin böyük olmasını göstərir. Dövlət xidmətləri hamı üçün eyni dərəcədə asan olacaq və texnologiyanın inkişafı ilə əhaliyə internet üzərindən xidmətlər göstəriləcəkdir. 2025–ci ildən sonrakı illərdə su, istilik, qaz təchizatı, elektrik sahələrində əlverişliliyi və xidmət səviyyəsinin artması sosial rifahın daha da yaxşılaşdırılması və insan kapitalının inkişaf etməsinə lazımi qədər xidmət göstərəcəkdir.

Yaxşılaşdırılmış təhsil mexanizmi əlverişlilik və iqtisadiyyatın inkişafında əsas rol oynayacaqdır. Belə təhsil quruluşu Şərqi Avropa ölkələrinin olduğu səviyyəyə çatmağa şərait yaradan gəlirlərə imkan yaradacaqdır. Xüsusilə, az gəlir əldə edən işçilər üçün belə yaxşı həyatın təmin olunmasından ötrü əməkhaqqının artımı münasib iş

imkanlarına və daha yaxşı məhsuldarlıq çıxışdan asılı olacaqdır. 2025–ci ildən sonrakı illərdə Azərbaycanda təhsilin quruluşu beynəlxalq beynəlxalq standartlara uyğun şəkildə qiymətləndiriləcəkdir. Bizdə olan təhsilin səviyyəsi Şərqi Avropa ölkələrinin təhsilin səviyyəsinə qədər qalxızdırılacaqdır. Bundan başqa, məktəbəqədər təhsil Avropa səviyyəsində olacaq, uşaqlar öz təhsillərinə başlamağa şərait yaradılacaqdır. İt qabiliyyətlilərinin tədrisi ilk təhsildən ali təhsilə qədər müasir tədris proqramının əsasını təşkil edəcəkdir. Beləliklə, beynəlxalq standartlara uyğun təhsilə uyğunlaşma universitet və məktəb səviyyəsində beynəlxalq arenaya çıxmağa yol açacaqdır.

2025–ci ildən sonrakı illər üçün proqnozlara əsasən Azərbaycan iqtisadiyyatını hərəkətə gətirən qüvvə rəqabət qabiliyyəti yüksək olan işçi qüvvəsi olacaqdır. Xüsusilə onu qeyd edə bilərik ki, qadınlar və gənclərin işlə məşğulluğu əsas diqqət mərkəzində olacaqdır. Əmək bazarında sürətli siyasətin həyata keçirilməsi nəticəsində institutlar vasitəsilə bütün əhalinin məşğulluğunun artırılmasına gətirib çıxaracaqdır. Azərbaycanda insan kapitalına yalnız milli iqtisadiyyatın deyil, dünya iqtisadiyyatı səviyyəsinə uyğun inkişaf etdirilməsi elə tənzimlənməlidir ki, bunun dəyəri daha çox ölkəmizdə qalsın, yəni ölkəyə dəyəri çox olsun. Yüksək ixtisaslı, güclü, yenilik yaradan işçi qüvvəsi dünya miqyasında Azərbaycanın mövqeyini daha da gücləndirilməsində əhəmiyyətli rol oynaycaqdır. Texnologiya sistemində inkişafın artması Azərbaycanın işçi qüvvələrinin ixrac sferasında yaxşı fəaliyyət göstərməsinə şərait yaradacaqdır. Qabiliyyətlərin inkişaf etdirilməsi, o cümlədən, əmək bazarından əlverişli şəkildə istifadəsi nəticəsində Azərbaycan əmək məhsuldarlığı üzrə Şərqi Avropa ölkələrinin səviyyəsinə qalxacaqdır. Ümumən götürdükdə 2025–ci ildən sonrakı illərdə əmək resurslarının tənzimləmə zamanı yüksək texnologiyaların inkişafının genişlənməsi kimi amillərin təsiri nəzərdə tutulmalıdır.

Azərbaycan 2025–ci ildən sonrakı illərdə ətraf mühit təhlükəsinə qarşı mühafizəyə daha çox diqqət göstərəcək, ölkədə karbon buraxmalarının azaldılması, su, hava, torpağın təmizliyi üçün şərait yaradacaqdır. Enerjinin əlverişli şəkildə paylanması əsasında Azərbaycanda ÜDM–in hər bir məhsulun istehsalı üçün sərf edilən enerji minimuma salınacaq, bundan sonrakı illərdə ölkədə müxtəlif enerji növlərindən istifadə payı artırılacaqdır. Bundan başqa, ekoloji tənzimləmənin qorunması əsas götürüləcək, müxtəlif növ tullantıların, zərərli qazlar, çirkli suları əlverişli şəkildə idarə edilməsi mexanizmi yaradılacaqdır.

2025–ci ildə səmərəli biznes sahəsi, inkişaf etmiş mexanizm, sabit makroiqtisadiyyat, xüsusən büdcə-vergi dayanıqlığı, xarici sərmayədarların cəlb olunması və xarici bazarlara maneəsiz çıxış nəticəsində ölkəmiz xaricdən gələn mənfi

təsirlərə daha dayanıqlı olaraq və əmək məhsuldarlığı Şərqi Avropa ölkələrinə uyğun səviyyəyə çatdırılacaqdır. Gələcəkdə Azərbaycan iqtisadiyyatı əlverişli əsaslı sistemdən innovasiya əsaslı sistemə keçəcəkdir. Adambaşına düşən real gəlir təqribən 5% yüksələcək və ölkəmiz Dünya Bankına nəzərən "yüksək gəlirli" ölkəyə çevriləcəkdir. Bu inkişaf nəticələrinə görə Azərbaycan 2025–ci ildən sonrakı illərdə adambaşına düşən real gəlir göstəricisinə görə Şərqi Avropa ölkələrinin səviyyəsinə qalxacaqdır. Belə ki, innovasiya əsaslı sistemin inkişaf etməsi üçün bunlarla təmin olunacaqdır : insan, fiziki və sosial kapital.

2025–ci ildən sonrakı illərdə belə davamlı iqtisadiyyatın nəticəsində gəlirin dörddə üçündən çoxu qeyri–neft sahəsinə məxsus olacaqdır. Sonrakı illərdə Azərbaycan iqtisadiyyatı üçün rəqabət qabiliyyətli əmək məsrəfləri qısamüddətli olaraq iqtisadiyyat kotalizator halında olacaqdır. Amma, rəqabət üstünlüyü yeni texnologiyalar və başqa innovasiya növlərindən istifadə etməsi ilə yanaşı, yaxşı keyfiyyətli təhsilin nəticəsində yüksək məhsuldarlığa görə yaranacaqdır. Belə ki, başqa şəkildə desək, 2025–ci ilə qədər olan zaman təhsilli iqtisadiyyata keçid dövrü olacaqdır.

2025–ci ildən növbəti illərdə innovasiya əsaslı sistemə keçməsi inkişaf etmiş qeyri–neft sahələrində ixtisaslaşma daha da yaxşılaşmasına hesabına daha gəlirin ölkəyə gəlməsini təmin edəcəkdir. Texnologiyanın və biliyin inkişaf etdirilməsi, genişləndirilməsi sərmayə yatırılanın əlverişliliyini yüksəldəcəkdir. İqtisadiyyatın həm sektorlar arası, həm də regional quruluşunun əlverişliliyi artacaq ki, bu da müvazinətdə və dayanıqlı inkişaf ilə təmin olunacaqdır. Xüsusən də, Azərbaycanda reigonların iqtisadiyyatının inkişaf etdirilməsi hesabına ümumi iqtisadi inkişaf təmin olunacaqdır. Beləliklə, Bakı beynəlxalq standartlara uyğun şəkildə xidmət və sənaye mərkəzinə çevriləcəkdir. 2025–ci ildən növbəti illərdə karbon və qeyri–karbon gəlirləri arasında müvazinət qeydə alınacaq  və Dövlət Neft Fondu iqtisadiyyatımıza hər il vəsaitlər "qızıl qayda" şəklində təmin oluncaqdır. Bu cür yanaşma neft–qaz qiymətlərindəki dəyişmələr öz təsirini azaldaraq üzən valyuta rejiminə etibarı artıracaq və dayanıqlı iqtisadi inkişafı təmin edəcəkdir. Sabit makroiqtisadiyyat həm yerli, həm də xarici sərmayədarların stimullaşdırılmasına şərait yaradacaq. Maliyyə texnologiyanın tətbiqi ilə beynəlxalq bazarlar ilə inteqrasiya etmək ölkəmiz üçün rəqabətə davamlı, dayanıqlı iqtisadiyyatı inkişaf etdirəcək və əhalinin rifahı yaxşılığa doğru gedəcək.

Qeyri–neft sahəsində sərmayə yatırmaları 2025–ci ildən sonra da iqtisadiyyatın lazımi hərəkətə gətirən qüvvəsi olacaqdır. Buna görə gələcəkdə xidmət və sənaye yönümlü birbaşa sərmayələri daha çox cəlb edəcəkdir. Qabiliyyətlər, texnologiyalar və xarici firmaların qeyri–neft sahəsinə sərmayə yatırılması Azərbaycanın iqtisadi–strateji

mövqeyini daha da möhkəmləndirəcəkdir. Xarici sərmayədarların Azərbaycana strateji cəhətdən üç sahə üzrə cəlb olunacaqdır: qabaqcıl beynəlxalq təşkilatlara məqsədli şəkildə çıxış; cəlbedici sərmayə yatırmalarına şərait yaradılması; indiki və gələcək sərmayədarlar üçün yüksək səviyyədə xidmətlər.

Nəticədə 2025–ci ildən sonrakı illərdə ixracat həm məhsulla, həm də xidmət növlərinin artmasına görə böyüyəcək və şaxələnəcəkdir. Belə olduqda isə neft–qaz qiymətlərindəki dəyişmələrdən asılılığı məhdudlaşdırıb, xarici valyutalardan gələn gəliri sabitləşdirəcəkdir. Qeyd olunmuş strateji hədəflərə çatmaq üçün iyirmi yeddi milyard manat məbləğində sərmayənin tələb ediləcəyi proqnozlaşdırılır. Bu qədər məbləğin hamısı bütün sahələr üzrə strateji məqsədlər daxilində tələb edilən bütün məbləği əks etdirir. Beləliklə, bu vəsait dövlət və özəl sahələr hesabına təmin ediləcəkdir. “Strateji Yol Xəritəsi” layihəsinin icra edilməsi aşağıdakı sahələr hesabına maliyyələşdiriləcəkdir:

- yerli büdcələr ;
- dövlət büdcəsi ;
- büdcəyə aid olmayan fondlar ;
- birbaşa xarici sərmayədarlar ;
- ölkədə bank fəaliyyətindən olan kreditlər və qrantlar ;
- xarici dövlətlərin və beynəlxalq təşkilatların kreditləri, texniki və maliyyə dəstəyi
- qanundankənar olmayan digər sahələr ;

Maliyyə vəsaitləri strateji məqsədlər üçün ən əlverişli şəkildə xərclənməsini təmin etmək üçün büdcə tərtibatı sistemi daxilində işlənib hazırlayacaqdır. Maliyyə vəsaitlərinin böyük hissəsi özəl sahə və müxtəlif sərmayədarların birgə maliyyə dəstəkləri ilə təmin ediləcəkdir.

## 3.2. Azərbaycanda iqtisadi artımın əsas mərhələləri və inkişafının prioritet istiqamətləri

Azərbaycan iqtisadiyyatı iqtisadi artım tempinə görə son on il müddətində dünyada ən yuxarı səviyyəyə yüksələn dövlətlərdən biri kimi yeni mərhələyə gəlib çatmışdır. Bu müddət ərzində həyata keçirilən iqtisadi siyasət nəticəsində ölkədə iqtisadiyyatın səmərəli şəkildə genişlənməsinə, əhalinin sosial rifahın yaxşılaşdırılmasına, hər bir iqtisadi vasitələrin müasirləşdirilməsinə gətirib çıxarmışdır.

Belə ki, 2004–2015–ci illərdə statistikaya əsasən orta hesabla 10,6 % iqtisadi artım göstərilmişdir, ÜDM–in nominal həcm isə 7,6 dəfə yüksəlmişdir. Bu illər ərzində adambaşına düşən ÜDM–in həcmində 6,5 dəfə artım göstərilmişdir ki, bu göstərici də

Azərbaycanı dünyada 134–cü sıradan 79–cu sıraya kimi qalxızmışdır, əhalinin sosial rifahı səmərəli şəkildə yaxşılaşdırılmışdır. Yoxsulluq səviyyəsi isə 40,2 %-dən 4,9 %-ə salınmışdır.

Bünövrəsi Ümumilli lider H.Əliyev tərəfindən qoyulmuş neft siyasətinin uğurla həyata keçirilməsi nəticəsində ölkənin neftdən gələn gəlirlər yüksəlmiş, əldə olunan maliyyə vəsaitlərini sürətli şəkildə iqtisadi artımın maliyyələşdirilməsinə yönləndirilmişdir. Belə ki, 2004–2015–ci illərdə neftdən olan gəlirlərdən istifadə etməklə həyata keçirilmiş iqtisadi artım modeli "aktiv şəkildə əsas kapitala sərmayə yatırmaları" xarakterli olmaqla, illər ərzində qarşıya qoyulmuş məqsədi həyata keçirməyə imkan yaratmışdır.

Həyata keçirilmiş iqtisadi islahatlar nəticəsində ölkənin reytinq göstəricilərində mühüm yüksəlmə ilə göstərilmişdir. Bununla da onu demək olar ki, Azərbaycan 2009–cu ildə Dünya Bankı olan "Doing Business" statistikasına görə dünyada "lider islahatçı dövlət" kimi göstərilmişdir. Azərbaycan Dünya İqtisadi Forumun "2016–2017–ci illər ərzində qlobal rəqabətlilik statistik göstəricisi" nə görə 2006–cı ildən fərqli olaraq 138 ölkə arasında 27 pillə qalxaraq 37–ci sırada yer almışdır. Həmin statistik göstəriciyə əsasən Azərbayacan Respublikası makroiqtisadi sahənin keyfiyyətli olmasına görə dünyada 39–cu, milli gəlir ÜDM-ə nisbətinə görə 37–ci, əmək bazarının əlverişliliyinə görə 26–cı, sistemin keyfiyyətli olmasına görə isə 55-ci sırada qərarlaşmışdır.

Belə aparılmış iqtisadi siyasət nəticəsində Azərbaycan dünya ölkələri arasında adambaşına düşən milli gəlirin səviyyəsinin artmasına görə irəli getməsinə gətirib çıxarmışdır. Azərbaycan Dünya Bankının qruplara ayırmasına əsasən, adambaşına düşən milli gəlir həcminə görə 2004–cü ildə kasıb ölkələr qrupuna, 2005–ci ildə aşağı–orta gəlir əldə edən, 2009–cu ildə isə yuxarı–orta gəlir əldə edən ölkələr qrupuna aid edilmişdir.

Son illər ərzində həyata keçirilmiş iqtisadi artım modeli yüksək valyuta ehtiyatları toplamasına şərait yaratmışdır ki, beləliklə ölkə iqtisadiyyatının qarşısına çıxa biləcəyi risklərin qarşısının alınmasına, həm də iqtisadi inkişaf üçün maliyyələşdirməni təmin edəcəkdir. Dövlət Statistika Komitəsinin statistik göstəricilərinə əsasən onu demək olar ki, iqtisadi artım tempi 2004–2010–cu illərdə 16,9 % idisə, 2011–2014–cü illərdə isə 2,7 % təşkil edirdi. Həmin illərdə, yəni 2004–2010–cu illərdə Azərbaycan iqtisadiyyatına sərmayə yatırmaları da 17,9 %, 2011–2014–cu illər ərzində isə statistik göstərici 11,9 % olmuşdur. Belə ki, iqtisadi artım tempi 14,2 % azalmasına baxmayaraq, sərmayə yatırımları isə 6 % aşağı düşmüşdür. Bununla da demək olar ki, 2004–2014–cü illərdə uğurla həyata keçirilmiş iqtisadi artım tempi "doyumluluq" həddə çatmış və keyfiyyət

aşağı düşməyə başladığından iqtisadiyyat yeni iqtisadi artım yanaşmasına zərurət yaranmışdır.

Belə ki, 2014–cü ilin sonlarında dünyada enerji daşıyıcıları, yəni neft–qaz sektorunda qiymətlər kəskin şəkildə aşağı düşməsi ilə Azərbaycanın xarici valyuta ehtiyatı azalması nəticəsində həyata keçirilmiş son on il müddətində iqtisadi artım modelin maliyyə vəsaiti ilə təmin edilməsini məhdudlaşdırmışdır. Neftdən gələn gəlirlərin azalması nəticəsində ölkə iqtisadiyyatı yeni iqtisadi sistem yanaşmasına çevrilməsinə zərurət daha da artmışdır.

Hər iki göstərici onu göstərir ki, qeyd olunmuş iqtisadi artım modeli həyata keçirərək qarşıya qoyulmuş məqsədlərin əldə olunmasına şərait yaradır. Belə ki, yeni iqtisadi siyasətin baxışı “kapital akkumulyasiyası” olan modeldən “effektivlik” olan modelə keçməsini təmin etməkdə ibarətdir. Bunun olması üçün isə biznesin düzgün seçilməsi və ixtisaslaşdırılması, dəstəy ala bilən maliyyələşdirmə mənbələri, makroiqtisadi siyasətin müasirləşdirilməsi, ən əsası isə yüksək sürətli şəkildə insan kapitalının inkişaf etdirilməsi tələb olunur.

Azərbaycan 1991–ci ildən, yəni müstəqillik dövründən bugünə kimi bir çox çağırışlar və risklərlə qarşılaşmışdır. 1991–ci ildən bugünə kimi Azərbaycanda iqtisadi artım prosesi dörd əsas mərhələyə ayırmq olar:

I mərhələ - 1991–1994–cü illəri əhatə edən tənəzzül dövrü.

II mərhələ - 1995–dən 2003–cü ilə qədər olan iqtisadi islahatlar, keçid və bərpa dövrü.

III mərhələ - 2004–2014–cü illəri əhatə edən iqtisadi inkişaf və makroiqtisadi sabitlik dövrü.

IV mərhələ - 2014–dən bu günə kimi olan aşağı neft qiymətləri dövrü.

**Azərbaycanda iqtisadi artımın mərhələləri**



Mənbə : Dövlət Statistika Komitəsi

Birinci mərhələyə əsasən dövlət müstəqilliyinin ilk illərinə aid olan bu dövr, Azərbaycan müharibə vəziyyətində olması nəticəsində iqtisadi tənəzzül ölkədə iqitisadi islahatların olunmasına əngəl törətmiş, iqtisadiyatın bütün sahələri öz fəaliyyətini dayandırmağa məcbur olmuşdur. Belə ki, Ermənistanın hərbi təcavüzündən qaçqın və məcburi köçkünlərin problemləri ilə yanaşı keçmiş ittifaq ölkələr arasında ticarət münasibətləri zəifləməsi nəticəsində sosial–iqtisadi siyasət kəskin iqtisadi böhran dövrü ilə xarakterizə olunur. Bununla da Azərbaycanda iqtisadi islahatlar digər postsovet ölkələr ilə müqayisədə gec başlamasına gətirib çıxarmışdır. Belə ki, həmin illərdə makroiqtisadi sabitlik olmaması, iqtisadi idarəetmənin zəif olması, iqtisadi institutların tamamilə əlverişsizliyi ölkədə dərin iqtisadi böhranla nəticələnmişdir. BVF –in statistik göstəricisinə əsasən, həmin dövr ərzində Azərbaycan  iqtisadi qabiliyyətini 60 %-ni itirmiş, mövcud sənaye istehsalı tənəzzülə uğramış, işsizliyin kəskin sürətdə artımı nəticəsində hiperinflyasiya qeydə alınmış, əhalinin rifah halı pisləşmişdir. Birmənalı olaraq birinci mərhələdə onu qeyd etmək olar ki, bu mərhələdə aparılmış zəif islahatlar nəticəsində bütün iqtisadi göstəricilərdə mənfi meyllər müşahidə edilmişdi. Belə ki, 1991–1994–cü illərdə ölkənin real ÜDM–i ildə orta hesabla 17 % azalmış, istehlak qiymətləri isə hər il dəfələrlə artmağa davam etmiş, dövlət büdcəsinin doldurulması əsasən buraxılmış qiymətli kağızlar hesabına həyata keçirilmiş tədavüldə olan milli valyutanın məzənnəsi isə kəskin sürətdə dəyərdən düşmüşdür.

Müstəqillik əldə olunandan sonra iqtisadi böhranın qarşısını almaq ancaq 1996-ci ildə mümkün oldu. Ölkə iqtisadiyyatında irəliləmələr əsasən 1997–ci ilə təsadüf edir. İqtisadi inkişafın ikinci mərhələsi hesab olunan bu illər ərzində əsasən aşağıdakı üç istiqamət üzrə tədbirlər reallaşdırılıb:

1. Azad bazar iqtisadiyyatına keçidin təmin olunması.
2. Neft–qaz yataqlarından istifadə edilməsi.
3. Dünya iqtisadiyyatı ilə inteqrasiyanın möhkəmləndirilməsi

Ümumilli lider H.Əliyevin siyasi hakimiyyətə gəlməsindən sonra, bu dövrdə ilkin olaraq, ölkədə siyasi sabitlik bərpa olunması, əlverişli iqtisadi əlaqələr və bazar iqtisadiyyatına keçidi təmin edərək siyasi–iqtisadi islahatların həyata keçirilməsi nəticəsində ölkədə yüksək iqtisadi artımın olması üçün imkan yaratması ilə xarakterizə oluna bilər. Bu dövrdə geniş şəkildə torpaq islahatları, dövlət mülkünün özəlləşdirilməsi kimi əsas iqtisadi islahatların həyata keçirilməsini qeyd etmək olar. Bu dövrün ən mühüm siyasəti isə Azərbaycanın kəskin sürətlə inkişaf etməylə təmin edən neft siyasətinin bünövrəsi elə bu dövrə təsadüf etməsidir. 1994–cü ildə on üç şirkətdən təşkil olunmuş beynəlxalq kommersiya iştirakçılarla Azəri–Çıraq–Günəşli neft yataqlarının istifadəyə verilməsinə aid H.Əliyevin birbaşa təşəbbüskarlığı ilə imzalanmış "Əsrin Müqaviləsi" iqtisadi cəhətdən əlverişli olmasını göstərməyə başladı. Bu illərdə iqtisadi artım təmin olunmaqla itirilmiş qabiliyyət bərpa olunmuş, qiymətlərin və milli valyuta məzənnəsinin sabitliyinə, işsizliyin səviyyəsi isə mühüm şəkildə aşağı salınmasına nail olunmuşdur. Ölkənin siyasi xarici valyuta ehtiyatları yaradılmış, bank fəaliyyətinə inam bərpa olunmuş, dövlət büdcəsi isə güclü maliyyələşmə ilə təmin olunmuşdur. Beləliklə, ÜDM artım tempi orta hesabla 1996–ci ildə 1,3 %, 1997–ci ildə 5,8 %, 1998–2004–cü illərdə isə 10 % olmuşdur. 2001–2005–ci illərdə ÜDM–in artımı 13 % edirdisə, qeyri–neft ÜDM artım 11 % təşkil edirdi. 1998–ci ildə Rusiyada iqtisadi böhran olmasına və 1998–1999–cu illərdə neftin qiymətlərində sürətli şəkildə aşağı enməsinə baxmayaraq, ölkənin maliyyə və makroiqtisadi sabitliyi qoruyub saxlaya bilmişdi. 1996–2006–cı illərdə isə ÜDM–in orta illik artım sürəti təqribən 11%, həmçinin neft–qaz sahəsi üzrə 22 % olaraq iqtisadi artımın olmasında mühüm hesab edilmişdi. 1994–1997–ci illər ərzində büdcə defisiti mühüm dərəcədə aşağı düşərək qeyri–neft sahəsi üzrə ÜDM–in 12 %-dən 2 %-dək düşmüşdür. 2000–ci ildə neftin qiymətləri yüksək olduğuna görə kiçik büdcə profisiti olmuşdur. [ 18 ]

Azərbaycanda iqtisadi atımın üçüncü mərhələsi 2004–2014–cü illəri əhatə edir. Bu illər ərzində həyata keçirilmiş iqtisadi inkişaf modeli Azərbaycan makroiqtisadiyyatı dünyada kəskin sürətlə artması baş vermişdir. 2006–cı ildə iqtisadi artım 34,5 % və

ÜDM–in fiziki həcm göstəricisi isə 26,5 % qalxma olmuşdur. Bu göstərici dünya ölkələri arasında iqtisadi artım sürətinə görə ən yuxarı nəticə idi. Əldə olunmuş neft gəlirlərindən ölkə iqtisadiyyatında sərmayə yatırması nəticəsində Azərbaycan qısa müddət ərzində yüksək–orta gəlirli olan ölkəyə dəyişmiş, sosial iqtisadi sistem tamamilə müasirləşdirilmiş, dünyada qlobal rəqabət qabiliyyətinə görə 37–ci sırada qeyd olunmuşdur. Görülən layihələr və təbii sərvətlərin qiymətlərinin artması nəticəsində ölkə iqtisadiyyatı sürətli inkişaf mərhləsinin bünövrəsini qoymuş və 2004–2010–cu illərdə ildə ÜDM orta hesabla 16,9 % yüksəlmişdir. Neft–qaz ixracının həcminin və qiymətinin artımı neft sahəsinə birbaşa xarici investisiya cəlb olunmasına da imkan yaratmışdır. Beləliklə, 2006–cı ildə Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsinin açılışı olmuş və Azərbaycan beynəlxalq səviyyədə xarici iqtisadi əlaqələri yaxşı vəziyyətə salmaqla, neft–qaz istehsalı və ixracın dayanıqlığını təmin etmişdir. Bu dövr ərzində neftdən olan gəlirlər hesabına tikinti, nəqliyyat, xidmət, dövlət idarə edilməsi, müdafiə və sosial təminat kimi bir çox sahələrin də inkişaf etdirilməsinə gətirib çıxarmaqla ölkənin inkişafında mühüm rol oynamışdır. Bu iqtisadi inkişaf mərhələsində həyata keçirilmiş iqtisadi artım modeli nəticəsində iqtisadiyyatımız altı dəfə böyümüş, adambaşına düşən milli gəlir isə 5 dəfə yüksəlmişdir. Bu illər ərzində ölkədə sabit qiymətlər saxlanılmış, xarici valyutalardan gələn gəlirlərin artmasına görə yüksək həcmdə valyuta ehtiyatları yığılmış, milli valyutanın möhkəmlənməsinin olmaması ilə beynəlxalq rəqabət qabiliyyəti saxlanılmasıdır. İllər ərzində bank sahəsində aktivlik qalxmış, depozitlərin həcmi 11 dəfə, kreditlərin həcmi isə 19 dəfə yüksəlmişdir. 2011–ci ildən sonra iqtisadi artım tempinin zəfləməsi bu dövrdə əsas diqqət olunmalı hadisələrdən biridir. Belə ki, iqtisadiyyat yatırılan sərmayələrin çoxalmasına baxmayaraq, iqtisadi aktivlik aşağı düşülməsi halı müşahidə edilmişdir. Beləliklə, aktiv olaraq kapital yığımı modeli bu illərdən sonra “doyumluluq” həddinə çatmışdır.

Azərbaycan iqtisadiyyatın inkişafının dördüncü mərhələsi olan bu dövrdə, yəni 2014–cü ilin sonlarından sonra dünyada neft sektorunda qiymətlərin kəskin düşmüşdür. Azərbaycan iqtisadiyyatında isə mənfi təsirlərini 2015–ci ilin ikinci yarısında müşhidə olunmağa başlamışdır. Beləliklə, mənfi təsir əsasən tədiyyə balansına, sonra isə iqtisadi inkişafın maliyyələşmə mənbələrinin iqtisadi aktivliyinə keçirilmişdir. Milli valyuta olan manata qarşı ABŞ dollarının məzənnəsi iki dəfəyə qədər ucuzlaşmış, maliyyə sabitliyinin təmin olunmasına görə risklər olmuş, dövlət borcunun ödənilməsini çətin hala salmışdır. Azərbaycan iqtisadi aktivliyin bərpa olunması məqsədi ilə strategiyanın təkmilləşdirilməsi, iqtisadi islahatların sürətləndirilməsi yönümdə bir sıra tədbirlər həyata keçirmişdir.

2015–ci ildən sonra Azərbaycan iqtisadiyyatı yeni mərhələyə çatmışdır. Yeni iqtisadi artım mərhələsinə keçidə görə 2010–2014–cü illərin iqtisadi inkişaf modelinin, o cümlədən həmin illərdə həyata keçirilmiş iqtisadi siyasətin təhlil edilməsində mühüm risklər əsasında yeni iqtisadi artımın müəyyən edilməsi məcburi olmuşdur.

Sıçrayışlı artım dövrü olan 2004–2010–cu illərdə Azərbaycan neft gəlirlərinin bir hissəsinin iqtisadiyyata tərəf çevirməsi nəticəsində yüksək iqtisadi artım əldə etmişdir. Qeyri–neft sahəsində orta illik iqtisadi artım 11,7 % olduğu halda, neft sahəsində isə bu göstərici 24,9 % təşkil edir. Diqqət edə bilərik ki, qeyri–neft sahəsinə yatırılmış yüksək həcmdə sərmayələr nəticəsində bu sahənin mühüm artımına şərait yaratmışdır. 2010 –cu ildən sonra iqtisadi artım əsasən neft sahəsindən qeyri–neft sahəsinə köçürülməsi baş vermiş, 2010–2014–cü illərdə qeyri–neft sahəsində 8,8 % artım olduğu halda, neft sahəsində 2,9 % azalmaqla, ümumi 3 % iqtisadi artım əldə edilmişdir.

**Sahələr üzrə iqtisadi artım**




1. Kənd təsərrüfatı , meşə təsərrüfatı və balıqçılıq
2. Elektrik və su təchizatı , tikinti
3. Ticarət , turistlərin yerləşdirilməsi və ictimai iaşə , nəqliyyat və anbar təsərrüfatı , informasiya və rabitə , maliyyə və sığorta fəaliyyəti , daşınmaz əmlak , kirayə və biznes xidmətləri
4. Dövlət idarəetməsi və müdafiə , təhsil , əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi , digər sahələrdə xidmətlərin göstərilməsi
Mənbə : Dövlət Statistika komitəsi

Yüksək sürətli iqtisadi artım sabit makroiqtisadiyyatın daha da gücləndirilməsinə şərait yaratmışdır. Beləliklə, Dünya İqtisadi Forumun statistik göstəricisinə əsasən,

Azərbaycan 2014–cü ildə makroiqtisadi sabitliyin keyfiyyətinə görə 2014–cü ildə 36 pillə yuxarı qalxaraq 9–cu sırada, milli gəlirin ÜDM-ə nisbətə görə 9–cu sırada, dövlət borcunun ÜDM-ə nisbətə görə isə 12–ci sırada yer almışdır. İqtisadi artımı təhlil edərkən onu görə bilərik ki, əldə olunmuş sabit makroiqtisadiyyat və rifah üzərində neft sahəsinin təsiri mühüm sayılır. Əvvəlki dövrdə neft qiymətlərinin yüksək olması ölkədə iqtisadi artım olması üçün asılılığı yüksəltmişdir. Əsas hədəflərdən biri iqtisadi artımın dövlət tələbindən dayanıqlılığı özəl tələbə yönləndirilməsi öz aktuallığını saxlayır.

Həyata keçirilmiş sıçrayışlı iqtisadi artım modeli olan "kapital akkumulyasiyası" nəticəsində ölkədə həcmli və müasir sosial–iqtisadi sistem hazırlanmışdır. Belə ki, Azərbaycan bu illər ərzində dünyada olan sürətli iqtisadi inkişaflı olan Cənubi–Şərqi–Asiya ölkələrində həyata keçirilmiş "dövlət kapitalizmi" modelindən yararlanmışdır. "Dövlət kapitalizmi" modelin siyasətində ən aktiv qol isə fiskal siyasət olmuşdur. Yüksək neft gəlirlərinin dövlətdən iqtisadiyyata yönəldilməsində mühüm yol sayılan dövlət büdcəsinin investisiya məsrəfləri olmuşdur.

2010–cu ilə qədər olan dövrdə iqtisadi artımın əsas təkan verici sahə neft sahəsi olsa da 2010–2014–cü illərdə olan iqtisadi artıma isə əsas stimul qeyri–neft sahələrindən formalaşmışdır. Dövlət Statistika Komitəsinin statistik göstəricilərinə baxsaq, görə bilərik ki, 2014–cü ildə qeyri–neft sahəsində 6,9 %, xidmət sahəsində 7,6 %, tikinti sahəsində isə 8,8 % artım müəyyən olmuşdur. Bu sahələrin ÜDM–dəki hissələrin təhlili göstərir ki, 2014–cü ildə təbii ehtiyatlar iqtisadi artıma 37 % pay vermiş, ikinci sırada isə 14 %-lə tikinti sahəsi qeyd edilmişdir. Qeyri–ticari sahələr üzrə iqtisadi artımın dövlət maliyyəsindən asılı olmasının, qlobal inteqrasiya imkanlarının aşağı olmasını qeyd edərək, ticari sahələrin inkişafda olması özəl fəaliyyətlərin genişləndirməsi əsasını qoruyub saxlayır.

2004–2014–cü illərdə iqtisadi artımın nəticəsində əhalinin sosial rifahın yaxşılaşdırılması ilə də müşahidə edilmişdir. 2004–cü illə fərqləndirərkən adambaşına düşən milli gəlir 8 dəfə yüksələrək 7600 dollara qalxmış, qısa müddətdə Azərbaycan aşağı gəlirli ölkədən yuxarı–orta gəlirli ölkəyə yüksəlmişdir. İqtisadi artım nəticədə məşğulluq səviyyəsinin artması müşahidə edilmiş, 1,3 mln. yeni iş yerləri istifadəyə verilmiş və həmin iş yerlərinin 77,1 %-i həmişəlik iş yerləri olmuşdur ki, bu göstəricinin də 62,9 % regionlara aid olmuşdur. Məşğulluq səviyyəsinin artımı nəticəsində əhalinin adambaşına düşən gəliri realdan 2,6 dəfə qalxmışdır.

Əhali rifahının aşağı olan qruplarına edilən sosial xidmətlər əsasən maddi dəstəklərin göstərilməsi ilə məhdudlaşır. Bu yardımın edilməsi isə yoxsul və zəif təcrübəyə malik əhalinin yenidən əmək bazarına girməsi baxımından fayda aşağıdır.

Beləliklə, həmin əhalinin aktiv işçi qüvvəsinə çevrilməsi üçün sosial xidmətlər sistemi və keyfiyyətli səhiyyə və təhsil xidmətlərinin, lazım olan hallarda, təcrübənin yüksək səviyyəyə çatdırılması kimi xidmətlərin daxil olması lazımdır.

Əhalinin sosial rifahının yaxşılaşdırılmasının bir başqa əsas göstərici olan kommunal xidmətlər sahəsinin keyfiyyətinin yaxşılaşdırılmasıdır. Dövr müddətində sistemə yönəldilmiş yüksək məbləğli investisiyalar əhalinin qaz, işıq, su ilə təmin edilməsi kimi kommunal xidmətlərə çıxış şəraitləri yaxşılaşdırılmışdır. Kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına baxmayaraq, xidmətlər üzrə əsas aparıcı sahə hələ də dövlət sektoru göstərilir. Kommunal xidmətlərin azad olması və özəl sahəni cəlb etməklə keyfiyyətli xidmətlərin təmin edilməsi və o cümlədən, dövlət sahəsinin büdcə-vergi yükünün aşağı düşməsi baxımından əhəmiyyətli ola bilər. Sosial rifahın statistik göstəricilərindən biri mənzillə təmin olunmadır. Hal–hazırda Azərbaycanda adambaşına olan mənzil təminatı 17,9 $m^2$ qeyd olunur ki, bu da Şərqi Avropa və MDB ölkələri üzrə orta statistikadan aşağıdır. Azərbaycanda iqtisadi artım amillərinə istehlak və dövlət investisiya aktivliyi aiddir. Beləliklə, Dövlət Statistika Komitəsinin statistikasına əsasən, son istehlak məsrəfləri 2005–2010–cu illərdə ildə orta hesabla 14 %, 2010–2014–cü illər ərzində isə uyğun olaraq 9 % yüksəlmişdir.

2004–2014–cü illər ərzində Azərbaycanda yüksək sərmayə aktivliyi görünmüşdür. Bu illər ərzində 148,9 mlrd. manat məbləğində ölkə iqtisadiyyatına investisiya qoyulmuşdur ki, bunun da 45,9 %-i xarici, 54,1 % isə daxili vəsaitlər hesabına maliyyələşdirilmişdir. Bu illərdə yüksək sərmayə aktivliyinin əsas başlığı yüksək neftdən gələn gəlirlər olmuşdur. ARDNF–ya 90 mlrd. ABŞ dolları məbləğində vəsait daxil edilmiş, bunun da 61 mlrd. dolları ölkə iqtisadiyyatına sərmayə yatırılmışdır.

Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilmiş sərmayələrin əsas başlığı 2007–ci ilədək birbaşa xarici sərmayələr qeyd edilmişdir. Ancaq ondan sonra bu hal dəyişmiş, daxili sərmayə aktivliyi dövlətin maliyyələşdirməsinə görə yüksəlmişdir. Onu deyə bilərik ki, Azərbaycanda birbaşa xarici sərmayələrin ÜDM–in payı regional olaraq orta göstəricilərdən aşağıda qərarlaşır.

Bu dövrdə (2004–2014–cü illər) ölkə iqtisadiyyatının inkişafına qoyulan BXİ 52 mlrd. dollar göstərilmişdir ki, bunun da 15 %-i qeyri–neft sahəsinə, 85 %-i isə neft sahəsinə yönəldilmişdir. Həmin illərdə qeyri–neft sahəsinə yatırılan sərmayələrin az olmasına baxmayaraq, artım tempi yuxarı olmuşdur. Belə deyə bilərik ki, statistik göstəricilərə əsasən, məcmu BXİ–nin orta illik artımı 8,2 % olduğu halda, qeyri–neft sahəsi üzrə uyğun statistik göstərici 32,5 % qalxmışdır.

İnvestisiya aktivliyinin quruluşu üzrə ən əsas mənbələrdən biri iqtisadiyyata yönəldilmiş sərmayələrin məhsuldar olması səviyyəsinin aşağı olmasıdır. Belə ki, 2004–2010–cu illər ərzində ölkə iqtisadiyyatına yatırılan sərmayənin tempi orta göstərici ilə 17,9 % təşkil etmişdirsə, 2011–2014–cü ildə 11,9 % olmuşdur. Yatırılan sərmayənin 6 % aşağı düşməsindən asılı olmayaraq, iqtisadi artım sürəti 14,2 % azalmışdır. Belə deyə bilərik ki, bu model artıq çoxlu dövlət maliyyəsi "impuls" larına bütöv qarşılıq verə bilmir. Belə nəticəyə gəlmək olar ki, qeyri–neft sahəsinə yatırılan sərmayələr artıq "doyumluluq" həddinə gəlib çatmışdır və buna görə də qısa və ortamüddətli dövrdə sərmayələr daha effektiv sayılan ticari sahələrə yönəldilməlidir.

Sərmayə aktivliyinə aid başqa əhəmiyyətli amil daxil sərmayələrin mühüm başlanğıcını dövlət maliyyəsindən özəl sahəyə ötürülməsinə çalışmaqdır. Bu halın baş verməsində gecikmələr dövlət büdcəsinin yükü və dayanıqlığı, əlverişli idarə olunması üstündə risklər əmələ gəlir və özəl sahənin fəaliyyətinin aşağı düşməsinə gətirib çıxarır. Beləliklə, elə buna görə özəl sahənin stimullaşdırılmasında biznes–investisiya sahəsi daha da inkişaf etdirilməli, birbaşa xarici sərmayələrin qeyri–neft sahəsinə cəlb olunması yünümdə işlər güclənməlidir. İqtisadi artım amili sayılan xalis ixrac Azərbaycanda əsas təkan verici qüvvələrdən biri idi. Neft müqavilələrinin bağlanması Azərbaycanın neft ixracını artırmış, neftdən olan gəlirlər sayəsində ölkənin tədiyyə balansı yüksəlmişdir.

2004–cü ildə cari əməliyyatlar balansı üzrə 5,8 mlrd. ABŞ dolları məbləğində defisit idisə, belə ki, 2005–ci ildən sonra defisit profisitlə yerini dəyişib, əvəz olunmuşdur. Bu illərdə, yəni 2005–2014 illərdə cari əməliyyat balansı profisiti umumi 110 mlrd. ABŞ dollarına yüksəlmişdir. 2011–ci ildə bu statistik göstərici isə tarixi rekord həddə çataraq 17 mlrd. ABŞ dollarına çatmışdır.

**Neftin qiymətinin ticarət balansına təsiri**



1. Əmtəə balansı

Mənbə : "Global insights" Dünya bazarının Monitorinqi və Dövlət Statistika Komitəsi

Xarici ticarət balansı isə 2004–cü ildə 3 mlrd. dollar defisitdən, 2014–cü ildə 19 mlrd. dollar məbləğində profisitə qalxmışdır. Bu illərdə əmtəə idxalı 2,6 dəfə, ixracı isə 6 dəfə yüksəlmişdir. Cari əməliyyatlar balansının ən mühüm komponenti elə xidmətlər balansıdır. Xidmətlər balansında diqqət edilən mühüm səbəb ondan ibarətdir ki, yuxarı iqtisadi artım tempi və rifahın yaxşılaşdırılması xidmətlər balansında defisitin yüksəlməsinə gətirib çıxarmışdır. Beləliklə, 2010–2015–ci illərdə balans üzrə mənfi saldo olmuş, yəni kəsir iki dəfə artmış, 2 milyarddan 4 milyarda qalxmışdır. Ancaq bu hala baxmayaq, bəzi xidmətlərdə artım göstərilmişdir.

Azərbaycanın tədiyyə balansını təhlil edərkən onu gorə bilərik ki, bu illər ərzində ölkənin xarici iqtisadiyyatı möhkəmlənmişdir Ancaq eyni zamanda tədiyyə balansında neft sahəsi statistik göstəricilərin təmizlənməsi dəyişik şəkil formalaşdırır. Ona aid deyə bilərik ki, bu dövrdə qeyri–neft sahəsi üzrə CƏB defisitin ümumi 56 mlrd. ABŞ dolları qeyd olunmuş, dövrün əvvəlindən dəyişik olaraq 2014–cü ildə defisit beş dəfə qalxmışdır. Bu hal nəticədə onu göstərir ki, yuxarı neft gəlirləri ölkə iqtisadiyyatına idxal olunan qeyri–neft sahəsindən asılılığı yüksəltmişdir. Bu sistem şərait məzənnə siyasətinin sürətliliyi və qabiliyyətli əlverişliliyi, həmçinin xarici valyuta ehtiyatların yığılması üzərində müəyyən risklər formalaşdırır.

İxracat artdığı kimi Azərbaycanda adambaşına düşən qaz və qeyri–neft idxalı da yüksəlməkdədir. Bu idxalat 2004–cü ildən 2015–ci ilədək 10 % qalxmışdır. Bu statistik göstəriciyə əsasən Azərbaycanda artım Türkiyədəki illik göstəricidən çox olsa da ancaq ildə 15 %-lik artım göstərən Gürcüstandan aşağı olmuşdur.

2004–cü ildən sonra Azərbaycan iqtisadiyyatında yüksək inkişaf olması ilə yanaşı, ixracın bir neçə yerə ayrılması səviyyəsinin aşağı düşməsi göstərilmişdir. Eyni müddət ərzində, ixrac olunan malların növləri də azalmışdır. Belə ki, "THE OBSERVATORY OF ECONOMİC COMPLEXİTY" statistik göstəricisinə görə 2004–də Azərbaycanda 56 növdə rəqabətli ixrac malları ilə təmsil edilirdisə, bu gösərici 2014–cü ildə azalaraq 23 növdə malla "ixracın şaxəliliyi" göstəricisinə görə dünyada 108–ci sırada qərarlaşmışdır. Azərbaycanın ticarət əlaqələri olan Türkiyə 380 növdə rəqabətli məhsul ixracı ilə dünyada 51–ci sırada, Gürcüstan isə 106 növdə uyğun olaraq məhsul ixracı ilə dünyada 66–cı sırada yer almışdır.

Gələcək illərdə idxalatdan asılılığı aşağı səviyyəyə salmaq və yerli əmtəələrlə tələbatı ödəmək məqsədilə rəqabət qabiliyyətli qeyri–neft malların istehsalı və ixracatın stimullaşdırılmasında Azərbaycan qanunvericiliyində bir sıra əsas dəyişikliklər həyata

keçirmişdir. Belə ki, "Qeyri–neft mallarının ixracının təşviqi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti Ə.İlham 2016–cı ildə 1713 saylı sərəncamı və "Qeyri–neft mallarının ixracının stimullaşdırılması ilə bağlı tədbirlər haqqında" 1 mart 2016–cı il 811 saylı Fərmanı ölkənin ixracının artması və rəqabət qabiliyyətli olmasına hərəkət verəcəkdir. [ 3. ]

İqtisadi artım amillərindən biri də insan kapitalının keyfiyyətli olması yönümdə tədbirlərdir. İnsan kapitalı göstəricisinə görə Dünya İqtisadi Foruma əsasən (2015–ci il) Azərbaycan 124 ölkədən 63–cü yerdə qərarlaşıb. İnsan kapitalına görə yuxarı–orta gəlir qazanan 30 ölkəyə nəzərən Azərbaycan 15–ci sırada yerləşir. Belə gəlirli olan ölkələr üzrə ən yüksək göstərici isə Qazaxıstan və Macarıstana aiddir. Azərbaycanda 15–24 yaş qrupuna ən aşağı keyfiyyət uyğundur, ən yuxarı keyfiyyət göstəricisi isə 55–64 yaşa məxsusdur. Bununla deyə bilərik ki, ölkədə ən zəif kadrlar gənclər, ən ixtisaslı kadrlar isə yaşlı nəsil arasındadırlar. Bu göstərici ilə Azərbaycan dünyada 85–ci sırada qərarlaşıb. [ 8. ]

Dünya İqtisadi Forumunun statistik göstəricisinə əsasən (2016), Azərbaycan təhsil və təlimin keyfiyyətli olması göstəricisinə görə 144 ölkədən 78–ci sırada, ali təhsilə cəlb edilməsinə görə 94–cü sırada, işçi qüvvəsinin təlimi üzrə 82–ci sırada, ibtidai təhsilin keyfiyyətli olması üzrə isə 81–cı sırada qərarlaşıb. Bu baxımdan məhsuldarlıq səviyyəsinin artması üçün ən əsas inkişaf istiqamətlərdən biri də insan kapitalının keyfiyyətli olmasına dair tədbirlər və ona diqqət göstərməklə keyfiyyət göstəricisini yüksəltməkdir.

Yüksək iqtisadi artımın təmini üçün yürüdülən makroiqtisadi siyasət 2004–2014–cü illərdə Azərbaycanda iki istiqamət üzrə həyata keçirilidi: fiskal siyasət və pul məzənnə siyasəti. Bu illər ərzində Azərbaycan sabit makroiqtisadiyyat statistik göstəricilərinə görə dünyada öndə olan ölkəyə çevrilmiş, bu uğurlu siyasət nəticəsində ölkəyə biznes–sərmayə cəlb edilməsi səviyyəsi yüksəlmişdir. Keçən illər üzrə makroiqtisadiyyatı təhlil edərkən, onu görə bilərik ki, bu iqtisadi siyasətin formalaşdırılması və həyata keçirilməsində neft əsas amil sayılır.

Azərbaycanın iqtisadi artım mühərriki hesab edilən mühüm siyasət mühüm siyasət fiskal genişlənmə siyasəti olmuşdur. Fiskal statistik göstəricilər bu illər ərzində mühüm dərəcədə artmış, dövlət maliyyəsinin iqtisadi artıma təkan verməsi əhəmiyyətli şəkildə yüksəlmişdir.

2004–2014–cü illər ərzində büdcənin məsrəfləri 12,5 dəfə yüksəlmiş, məsrəflərin ÜDM-ə nisbəti isə 14 % qalxaraq 32 %-ə yüksəlmişdir. Fiskal genişlənmə isə büdcənin kapital məsrəflərinə nəzərən yüksəlmişdir. Belə ki, bu illərdə cari məsrəflər 8 dəfə

yüksəldiyi halda, büdcə gəliri 12 dəfə, kapital məsrəfləri isə 41,5 dəfə artmışdır. Ancaq ona diqqət edə bilərik ki, qeyri–neft gəlirlərinin ümumi gəlirlərə nəzərən həcmi 30 % aşağı düşüb 34 % səviyyəsində olmuşdur. Gəlirlərin arması əsasən ARDNF–dan köçürmələrin həcminin yüksəlməsi olmuşdur. Belə ki, bu illərdə küçürmələrin həcmi 72 dəfə yüksələrək, 130 milyon manatdan 9,3 milyarda qalxmışdır. Ümumi neft gəlirindən olan hissə 36 %-dən 66 %-ə qalxmışdır. Qeyri–neft sektorundan gələn gəlirləri hesab edilən gömrük, vergi və s. daxilolmalar isə 7 dəfə artaraq, 966 milyon manatdan 6,3 milyarda yüksəlmişdir.

Dövlət maliyyəsinin əhəmiyyətli halqalarından biri də elə ARDNF–dir. Böyük həcmli neft layihələrinin həyata keçirilməsi nəticəsində 2015–ci ilin axırına kimi fondun gəlirləri 98 milyard dollar təşkil etmişdir. Gəlirlərin 65 %-i dövlət büdcəsinə köçürmələr əsasən ölkə iqtisadiyyatının inkişaf etməsinə yönəldilmişdir. ARDNF–in ehtiyatlarında 6,3 milyard dolları sosial tədbirlər və strukturun maliyyələşməsinə yönəldilmişdir ki, bu da iqtisadi aktivliyin artmasına təkan vermişdir.

Vergi dərəcələrinə görə regionda Azərbaycan aşağı mövqedə yer alır. Beləliklə, vergi ödənişləri dərəcəsi Azərbaycanda 39,8 % olduğu halda, Qazaxıstanda 29,2 %, Gürcüstanda isə 16,4 % təşkil edir. 2015–ci il Dünya İqtisadi Forumun statistik göstəricilərinə görə Azərbaycan "Gömrük prosedurların biznes üzərində yükü" göstəricisinə dünyada 144 ölkə içində 122–ci sırada yer almışdır.

Fiskal genişlənmə ilə əlaqədar diqqət edilən göstərici dövlət büdcəsinin icra edilməsində aylar üzrə qeyri–müvazinətlik olmasıdır. Belə ki, bir neçə illərdə dövlət büdcəsinin dekabr ayında icra edilməsi o biri aylarla nisbətdə mühüm dərəcədə çox olur ki, bu da iqtisadiyyatda müəyyən qeyri–müvazinətliklər formalaşdırır.

Yuxarı neft gəlirləri və qiymətləri ilərində ciddi fiskal genişlənmə fiskal siyasətin yüksəlməsində qənaətin formalaşdırılmasına şərait yaradır. Fiskal multiplikatoru və dayanıqlığın yuxarı həddini təmin edə bilən əlverişli qaydaların tətbiq edilməsi idarəetmənin daha da keyfiyyətli olması baxımından əsas çağırış olaraq qeyd edilir.

Dediyimiz kimi, iqtisadi artım mühərrikindən biri də pul və məzənnə siyasətidir. Yuxarı neft gəlirlərində inkişaf olması üçün istifadə etməsində pul və məzənnə siyasətinin mühüm təsirləri olmuşdur. 2004–2014–cü illərdə pul siyasətində artan temp göstərilmiş, ölkədə maliyyə aktivliyi artmışdır.

BVF–nin statistik göstəricisinə görə, həmin illərdə Azərbaycan Respublikası Mərkəzi Bankının hədəfi de–fakto məzənnəsinə yönəlmişdir. Elə bu illərdə sabit məzənnədə istehlak edilən idxal mallarının əsas hissəsini yadda saxlamaqla, idxal inflyasiyasının olmasına şərait yaratmışdır.

**Azərbaycanda inflyasiya səviyyəsinin dinamikası**

Mənbə : Dövlət Statistika Komitəsi




Mərkəzi Bankda olan hesabata əsasən, Azərbaycanda 2004–2014–cü illər ərzində milli valyuta ilə pul ehtiyatı 18 dəfə yüksələrək, 640 milyondan 11,5 milyard manata qalxmışdır. Dövrüyyədə olan pul isə 21 dəfə artmış, banklarda likvdi vəsaitlərin çəkisi isə 3,3 dəfə qalxmışdır.

Pul kütləsi (manatla) 25 dəfə qalxaraq 17 milyarda çatmışdır. Bu illərdə iqtisadiyyatın pulla təmin edilməsi 8 %-dən 30 %-ə qalxmışdır. Bank sahəsindən iqtisadiyyata verilmiş kreditlər 19 dəfə yüksələrək, 18 milyard manat olmuş, ÜDM–də xüsusi çəki isə 30 faizə qalxmışdır.

Bank sahəsində qoyulmuş depozitlərin həcmi də bu illər ərzində yüksək tempə malik olmuşdur. Depozitlərin həcmi 2004–2014–cü illər ərzində 11 dəfə qalxmışdır ki, bu da bank sahəsinə inamın artmasına deməkdir. Bu illərdə dollarlaşma 44 %-dən aşağı enərək 36 % olmuşdur.

